# Novruz bayramınız mübarək!

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 61 (30755) 20 mart 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti




Səhifə ⇨ 4

## Novruz tonqalları yeni arzulara yaşıl işıq yandırır

### Dünya Azərbaycan həqiqətlərini indi də Ağdərədən eşitdi

*Suların qovuşduğu yerdə yurd həsrətlilər də doğma ocağa qovuşurlar*



**Bu ilin mart ayı da bizim üçün bir neçə cəhətdən əlamətdar oldu. Həm XII Qlobal Bakı Forumunda dünyanın müxtəlif ölkələrinin hazırkı və sabiq dövlət – hökumət başçıları bir araya gələrək, növbəti dəfə qlobal məsələlərə dair fikir mübadiləsi aparmaq fürsəti əldə etdilər, həm ABŞ-da 50-dən çox ravvin Prezident Donald Trampa müraciət edərək "İbrahim sazişləri"-nin genişləndirilməsini və bu prosesə türk dövlətlərinin (ilk növbədə Azərbaycan, Qazaxıstan və Özbəkistanın) daxil edilməsini istədilər, həm də Azərbaycana qarşı "907-ci düzəliş"in ləğv olunmasının vacibliyi gündəliyə gətirildi. Yəhudi liderlərinin Ağ ev rəhbərinə müraciətində bildirilir ki, ABŞ-ın digər yəhudi təşkilatları, o cümlədən ultra-ortodoks təşkilatlar da Amerika liderinə bu tip müraciətlər etməyi planlaşdırırlar.**

Xatırladım ki, "İbrahim sazişləri"nin müəllifi birbaşa Donald Trampdır. O, birinci prezidentliyi dövründə ərəb ölkələri ilə İsrail arasında münasibətləri yaxşılaşdırmağı hədəfləyən "İbrahim sazişləri" ifadəsini dilə gətirəndə öz arqumentini belə əsaslandırmışdı ki, İslam dininə görə, İbrahim peyğəmbər (ə.) ərəblərlə yəhudilərin ortaq atasıdır. Yəni ərəblər İbrahim peyğəmbərin (ə.) Həcər adlı xanımının dünyaya gətirdiyi oğlu İsmayılın, yəhudilər isə onun digər xanımdan (Sara) doğulan İshaqın törəmələridir: "Hər iki millətin ilk ataları İbrahim peyğəmbərin (ə.) övladlarıdırsa, məntiqlə onlar qardaş sayılırlar. Qardaşlar arasında isə ixtilafa ehtiyac yoxdur". Yəni Azərbaycanın bu sazişə qoşulması bizim üçün olduqca uğurlu bir siyasi-diplomatik addım olacaq. Üstəlik, ədalətsizcəsinə üzləşdiyimiz "907-ci düzəliş" adlı bədnam sənədin ləğv edilməsi də gündəliyə gətirilir.

**(ardı 3-cü səhifədə)**

## Novruz gəlir ellərə, nəğmə axır dillərə

Səhifə ⇨ 14

## Prezident İlham Əliyev Milli Məclis sədri Sahibə Qafarovaya orden təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 19-da Sahibə Qafarovanı qəbul edib və ona "Şərəf" ordenini təqdim edib.**

Sahibə Qafarovanı salamlayan Prezident İlham Əliyev dedi:

– Hörmətli Sahibə xanım, sizi yubileyiniz münasibətilə təbrik edirəm. Sizə yeni uğurlar, cansağlığı arzulayıram. Siz uzun illərdir Azərbaycanın ictimai-siyasi həyatında fəal rol oynayırsınız. Milli Məclisin deputatı kimi 15 il və Milli Məclisin sədri kimi 5 ildir uğurlu fəaliyyət göstərirsiniz. Mən sizin fəaliyyətinizi yüksək qiymətləndirirəm, həm seçicilərlə daim təmasda olursunuz, eyni zamanda, ölkəmizin milli maraqlarını beynəlxalq arenada müdafiə edirsiniz və öz işinizlə ölkəmizin ümumi inkişafına dəyərli töhfə verirsiniz. Bu yubiley günündə mənim Sərəncamımla siz "Şərəf" ordeni ilə təltif olunmusunuz. İcazə verin, bu ordeni sizə təqdim edim.

Prezident İlham Əliyev "Şərəf" ordenini Sahibə Qafarovaya təqdim etdi.

**Sahibə Qafarova:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

Sahibə Qafarova dedi:

– Çox sağ olun, çox minnətdaram. Möhtərəm cənab Prezident, icazə versəniz, mən bir neçə söz deyərdim.

Möhtərəm cənab Prezident, bu yüksək təltifə görə dərin və səmimi minnətdarlığımı bildirmək istərdim. Onu da qeyd etmək istərdim ki, mən bu yüksək təltifi Azərbaycan Respublikası Milli Məclisinin işinin qiymətləndirilməsi kimi dəyərləndirirəm. Əmin etmək istəyirəm, möhtərəm cənab Prezident, həm Milli Məclisin bir üzvü kimi, həm Milli Məclisin sədri kimi, ümumiyyətlə, Milli Məclis adından demək istərdim ki, bizim hər birimiz Sizin apardığınız siyasətə həmişə parlament səviyyəsində dəstək olacağıq. Xalqın təmsilçiləri olaraq bütün Milli Məclis xalqın rifahı üçün parlament səviyyəsində əlindən gələni edəcək. Mənim haqqımda dediyiniz sözlərə görə Sizə çox minnətdaram. Mən ömür boyu işləmişəm ki, cəmiyyətimizə həmişə hansısa bir xeyir gəlsin. Mən əminliklə demək istəyirəm ki, bundan sonra da işlədiyim zaman Milli Məclisin sədri kimi, bir insan kimi, Azərbaycan vətəndaşı kimi həmişə əlimdən gələni edəcəyəm ki, işlədiyim yerdə öz vəzifəmi yerinə yetirim. Mən Sizə çox minnətdaram.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm.

***AZƏRTAC***

## Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə paylaşımı

**Azərbaycan Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə sosial media hesablarında paylaşım edib.**

**AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:**

***"Hörmətli həmvətənlər!***

***Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval ruhiyyəsi, cansağlığı və uğurlar arzulayıram".***




## Ermənistana kökə, Azərbaycana "zopa"

*Avropa Parlamentinin Cənubi Qafqazda sülh müqaviləsinə növbəti "töhfəsi"*

**Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi mətninin razılaşdırılmasının başa çatmasından dərhal sonra qəribə tendensiya müşahidə olundu.**

Rəsmi İrəvanın müqavilənin imzalanmasına hazır olduğunu bəyan etməsi ilə dünyanın müxtəlif yerlərindəki ermənipərəstlər Azərbaycanı sazişi imzalamağa çağırdılar. Baş nazir Nikol Paşinyan iqtidarı təmsilçilərinin, bir növ, topun ölkəmizin tərəfində olduğuna eyham vuran açıqlamaları isə həmin çağırışları bir qədər də qüvvətləndirdi.

Aydındır ki, müşahidə olunan tələskənlik Azərbaycanı fakt qarşısında qoymağa, ölkəmizi, tez bir zamanda, yarımçıq barış sazişini imzalamağa məcbur etməyə hesablanmışdı.

**(ardı 3-cü səhifədə)**

# “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” 2009-cu il 24 iyun tarixli 116 nömrəli, “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2014-cü il 20 fevral tarixli 111 nömrəli, “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2015-ci il 4 may tarixli 516 nömrəli, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2016-cı il 28 aprel tarixli 888 nömrəli və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında” 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” 2009-cu il 24 iyun tarixli 116 nömrəli, “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2014-cü il 20 fevral tarixli 111 nömrəli, “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2015-ci il 4 may tarixli 516 nömrəli, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2016-cı il 28 aprel tarixli 888 nömrəli və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında” 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 597 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 318 nömrəli və 12 fevral tarixli 327 nömrəli fərmanları) 1-ci hissəsində “5332” rəqəmləri “5402” rəqəmləri ilə, “409” rəqəmləri “459” rəqəmləri ilə, “260” rəqəmləri “280” rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 mart 2025-ci il**

# “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-2.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 308-2.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 445-1.2-ci, 445-1.3-cü (hər iki halda) və 445-1.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Məcəllənin 445-1.3-cü maddəsində hər iki halda “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 445-1.2-ci və 445-1.4-cü maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 278 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 257 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə “və 137.2-ci” sözləri “, 137.2-ci və 308-2.2-ci” sözləri ilə əvəz edilsin;

3.2. 2.1-1-ci bənddə “maddəsində” sözü “və 308-2.2-ci maddələrində” sözləri ilə əvəz edilsin.

**4.** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 335 nömrəli Fərmanı) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.1-ci bəndə “429.0.2,” rəqəmlərindən sonra “445-1.2, 445-1.3 (hər iki halda), 445-1.4,” sözləri əlavə edilsin;

4.2. 4.2-ci bənd 4.2-1-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 4.2-ci bənd əlavə edilsin:

“4.2. həmin Məcəllənin 445-1.3-cü maddəsində (hər iki halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;”;

4.3. 4.3-1-ci bəndə “363.2-ci,” sözlərindən sonra “445-1.2-ci, 445-1.4-cü,” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 mart 2025-ci il**

# Sahibkarlarla görüş

**Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini Abbas İsmayılov və nazirliyin tabeliyindəki qurumların rəhbərlərinin iştirakı ilə İqtisadiyyat Nazirliyində “Mövcud vəziyyət, problemlər və perspektivlər” mövzusunda sahibkarlarla görüş keçirilib.**



Görüşdə Abbas İsmayılov Naxçıvanda ötən il iqtisadi göstəricilərin əhəmiyyətli dərəcədə artdığını vurğulayıb. Özəl sektorun rəqabətədavamlı inkişafı, yeni istehsal sahələrinin stimullaşdırılması və ixrac qabiliyyətinin yüksəldilməsinin prioritet hədəflər olduğunu bildirib. Əlverişli biznes mühitinin inkişafı və investisiya imkanlarının genişləndirilməsi məqsədilə tətbiq edilən vergi islahatlarının, sahibkarların investisiya layihələrinin maliyyələşdirilməsi üzrə dövlət dəstəyi mexanizmlərinin və digər alətlərin əhəmiyyəti qeyd olunub.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası idarə heyətinin sədri Vüqar Abbasov görüşün dövlət–biznes dialoqu çərçivəsində həyata keçirilən tədbirlərin davamı olduğunu, sektorda mövcud vəziyyətin dəyərləndirilməsi, problemlər, bu sahədə gələcəkdə atılacaq addımların müzakirəsi baxımından əhəmiyyətini vurğulayıb.

Görüşdə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini, rəis vəzifələrini müvəqqəti icra edən Müslüm Cabbarzadə, Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun idarə heyətinin sədri Vüsal Novruzov, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Tural Abdulzadə müzakirə edilən məsələlərlə bağlı çıxış ediblər. Müzakirələrdə sahibkarlarla real sektordakı inkişafı davam etdirmək, istehsal və ixracı artırmaq barədə fikir mübadiləsi aparılıb.

***XQ***

# S.Ə.Qafarovanın “Şərəf” ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında böyük xidmətlərinə görə Sahibə Əli qızı Qafarova “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 mart 2025-ci il**

# “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası”nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasında süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, infrastrukturunun əlçatanlığını təmin etmək, habelə ixtisaslı kadr potensialını gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası” (bundan sonra – Strategiya) təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Strategiyada nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.2. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti dövlət orqanlarında (qurumlarında) süni intellektin tətbiq edildiyi sahələrdə informasiya təhlükəsizliyi risklərinin təhlilini həyata keçirsin, o cümlədən dövlət orqanlarında (qurumlarında) süni intellektlə bağlı informasiya təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

**4.** Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 mart 2025-ci il**

# “Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi və “Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 iyul tarixli 154 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi və “Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 iyul tarixli 154 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 297 (Cild I); 2024, № 4, maddə 378, № 5 (I kitab), maddələr 517, 529, № 8, maddə 943) ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə”nin 3.5-ci bəndində (hər iki halda) və 3.9-cu bəndinin birinci cümləsində “internet portalında” sözləri “rəsmi internet saytında” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 335 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 72-ci hissəsində “Direktorlar Şurasının” sözləri “İdarə Heyətinin” sözləri ilə əvəz edilsin və həmin hissədən “icraçı direktor,” sözləri çıxarılsın.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1480 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1096 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş “Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissə üzrə:

3.1.1. 2.3-cü bəndə “internet saytında” sözlərindən əvvəl “rəsmi” sözü əlavə olunsun və həmin bənddə “internet portalında (bundan sonra – portal)” sözləri “rəsmi internet saytında” sözləri ilə əvəz edilsin;

3.1.2. 2.4-cü bəndin birinci cümləsində “Mərkəzin portalında, dövlət orqanının” sözləri “dövlət orqanının və Mərkəzin rəsmi” sözləri ilə əvəz edilsin;

3.1.3. 2.6-cı bənddə “internet saytında və Mərkəzin portalında” sözləri “və Mərkəzin rəsmi internet saytında” sözləri ilə əvəz edilsin;

3.2. 4.1-ci bəndin birinci cümləsində “internet saytı və Mərkəzin portalı” sözləri “və Mərkəzin rəsmi internet saytı” sözləri ilə əvəz edilsin;

3.3. 5.8-ci bənddə “internet saytında və Mərkəzin portalında” sözləri “və Mərkəzin rəsmi internet saytında” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, № 3, maddə 262, № 4, maddə 397, № 5 (I kitab), maddə 526, № 6 (I kitab), maddə 657, № 8, maddə 948, № 11, maddə 1197; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 mart tarixli 348 nömrəli Fərmanı) ilə təsdiq edilmiş Əlavə 1 – “Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı”nın 29.1-ci bəndində “Direktorlar Şurasının” sözləri “İdarə Heyətinin” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 mart 2025-ci il**

# Dünya Azərbaycan həqiqətlərini indi də Ağdərədən eşitdi

(əvvəli 1-ci səhifədə)



**Bu gün dünyada gedən toqquşmalara, münaqişələrə, müharibələrə nəzər salsaq, son tarixin müharibələrinə nəzər salsaq, hətta deyə bilərəm ki, İkinci Dünya müharibəsindən sonra Azərbaycan qədər birmənalı və tam qələbə heç kim tərəfindən qazanılmayıb.**

**Azərbaycan Prezidenti İlham Əliyevin Suqovuşan sakinləri ilə söhbətindən. Ağdərə rayonu, 18 mart 2025-ci il.**

Ancaq ekspertlərin fikrincə, ölkəmizin mart ayındakı uğurları təkcə xarici siyasətlə yekunlaşmır. Cənab Prezidentin martın 18-də Ağdərənin Suqovuşan kəndində yaşayış kompleksinin istifadəyə verilməsi mərasimi zamanı sakinlərlə görüşdə səsləndirdiyi fikirlər, sözün həqiqi mənasında, zamanın çağırışlarına, bədxahlarımıza, Ermənistanın himayədarlarına və Avropa Parlamentində oturub Cənubi Qafqazda xaos və anarxiya yaratmaq istəyənlərə, eləcə də sərhədlərimizin o biri tayında hərəsi özü boyda binokl götürərək "müşahidə aparanlara" ("Qoca qitə"nin qoca kəşfiyyatçılarına) cavab verilməsi idi. Bu fakt həm də ona görə önəmlidir ki, cənab Prezident həmin cavabı paytaxt Bakıdan yox, otuz il vəhşi tayfaların barbarcasına viranəyə çevirdiyi, düşmən tapdağından azad ediləndən sonra isə gündən-günə abadlaşan, cənnətmisal görkəm alan torpaqlarımızda dayanaraq verirdi. Bunun isə nə demək olduğunu hamıdan yaxşı İrəvan rəhbərləri bilirlər.

Bu fakt bir də ona görə önəmlidir ki, Ermənistan rəhbərliyi "Biz Bakı ilə sülh müqaviləsinin bütün müddəalarını razılaşdırmışıq və imzalamağa hazırıq" – desə də, işğalçı ölkənin silahlı qüvvələri son günlər atəşkəsi ardıcıl olaraq bir neçə dəfə pozub. Bu isə o deməkdir ki, Ermənistan rəhbərliyi ilə bu ölkənin sınıq-salxaq ordusu eyni fikirdə deyil. Deməli, cənab Prezidentin məhz həmin gün həmin məkanda olması və həmin arqumentləri dilə gətirməsi heç də təsadüfi deyildi. Nəyi, nə zaman, necə etməyi hamıdan yaxşı bilən Azərbaycan Prezidenti martın 18-də Suqovuşanda dedi ki, Ermənistana himayədarlıq edənlərin "kitabı bağlanıb".

Azərbaycanın 44 günlük Vətən müharibəsi və birgünlük antiterror tədbirləri haqqında danışan dövlət başçımız xatırlatdı ki, həmin tarixi faktlar bizim Silahlı Qüvvələrimizin gücünü və xalqımızın iradəsini göstərirdi: "Hətta bir çoxları əmin idi ki, biz heç vaxt o müdafiə xətlərini keçə bilməyəcəyik. Çünki relyef düşmənin xeyrinə işləyirdi, illər boyu qurduqları mühəndis istehkamları onların xeyrinə işləyirdi. Xarici qüvvələr, xarici ölkələr onların arxasında idi – ilk növbədə, guya, bu məsələ ilə məşğul olmaq mandatını alan ATƏT-in Minsk qrupu. Onların əsas məqsədi bu münaqişəni əbədi etmək, torpaqlarımızı əbədi işğal altında saxlamaq, gözdən pərdə asmaq, bizim başımızı aldatmaq və sonsuz danışıqları aparmaqla bu reallığı bizə qəbul etdirmək idi. Onların hər üçünün məqsədi bu idi, burada bunların üçü də bir amal uğrunda birləşmişdi. Halbuki bu ölkələrin arasındakı indiki münasibətlər göstərir ki, bu, çox nadir bir hal idi. Yəni nəyi göstərirdi, hər üçü Ermənistanın arxasında idi, hər üçü müxtəlif yollarla Ermənistanı dəstəkləyirdi. Biri silah verirdi, biri siyasi dəstək verirdi, o biri iqtisadi imtiyaz verirdi. Bax, biz buna qarşı mübarizə aparmışıq, buna qarşı müharibə aparmışıq".

Bəs necə oldu ki, biz dünyanın üç güclü dövlətinin himayə etdiyi (xatırladaq ki, onların heç biri Ermənistanın xoş gələcəyini istəmir, öz maraqlarını təmin etməyə çalışırdılar) işğalçıya diz çökdürdük? Cənab Prezident bu sualın cavabını dəfələrlə vermişdir: "Biz xalq – iqtidar birliyinə nail olduq, güclü iqtisadiyyat yaratdıq, uğurlu xarici siyasət kursu işləyib hazırladıq, güclü ordu formalaşdırdıq, vətənpərvər gənclik yetişdirdik, ən başlıcası isə bütün proseslər eyni mərkəzdən idarə edildi". Təkcə sadə vətəndaşlar, ekspert və ya jurnalistlər deyil, həm də beynəlxalq aləmdəki hərbi mütəxəssislər də səmimi şəkildə etiraf edirlər ki, Azərbaycan Ordusunun məlum uğurları bilavasitə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bütün prosesə şəxsən nəzarət etməsi, bütün məsələləri incə detallarına kimi bilməsi, düzgün qərarlar çıxarması nəticəsində mümkün olmuşdur.

İndi kimsə elə bilməsin ki, mən Azərbaycanı Rusiya və ya ABŞ-la müqayisə etmək istəyirəm. Qətiyyən elə fikrim yoxdur və həmin müqayisə mümkün deyil. Ancaq müqayisə edə biləcəyimiz konkret faktlar var. Məsələn, son səksən ildə SSRİ-nin Əfqanıstana, ABŞ-ın Vyetnama, Koreyaya, İraqa, Əfqanıstana müdaxilələri zamanı qətiyyən konkret nəticə əldə edilməmişdi. Çünki proseslər bir mərkəzdən idarə edilmirdi. "Demokratik dəyərlər"i bayraq edən ABŞ-da Ağ ev, Pentaqon və Dövlət Departamentinin hərəsi məsələyə öz prizmasından yanaşırdı. Nəticədə, hərbi müdaxilə etdikləri ölkələrin heç birində tam qələbə əldə edə bilməmiş, "girdikləri" ölkələrdən çıxmağa məcbur olmuşdular.

SSRİ rəhbərliyindəki Kremldaxili intriqalar (Kommunist Partiyasının süqutundan sonra həmin intriqaların miqyası barədə yüzlərlə analitik material ortaya çıxmışdı) isə bu güclü dövlətin nəinki hansısa hərbi müdaxilə zamanı uğur qazanmasını təmin edə bilmədi, əksinə həmin ziddiyyət və qarşıdurmalar sovet dövlətinin çökməsinin əsas səbəblərindən biri oldu. Ona görə də konfliktoloq və politoloqlar deyirlər ki, Azərbaycan İkinci Dünya müharibəsindən sonra müharibəni tam qələbə ilə başa vuran yeganə dövlətdir. Biz məmnunuq ki, bunu artıq hamı etiraf edir.

Bu zaman başqa bir faktı da xüsusilə vurğulamaq zərurəti var. Belə ki, cənab Prezidentin dəfələrlə vurğuladığı kimi, həm 44 günlük İkinci Qarabağ müharibəsi ərəfəsində, həm müharibənin getdiyi günlərdə, həm də birgünlük antiterror əməliyyatı zamanı beynəlxalq hüquq birmənalı şəkildə Azərbaycanın tərəfində idi. Bu isə göydəndüşmə uğur deyildi, həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev on illər boyu bu zəminin yaradılmasına çalışmış, nail olmuşdular. Ona görə də Azərbaycanın başladığı (hərçənd, biz müharibənin ilk günlərində döyüş meydanına Ermənistanın təxribatlarına cavab vermək məqsədilə atılmışıq) İkinci Qarabağ müharibəsi ƏDALƏTLİ MÜHARİBƏ idi. Biz öz torpaqlarımızı işğalçılardan azad etməliydik. Etdik də...

Ancaq fikrimizcə, 3 ildir davam edən Rusiya – Ukrayna müharibəsinin bu qədər uzanmasının əsas səbəbi bu məsələyə beynəlxalq hüququn birmənalı münasibət bildirməməsidir. Yəni həmin münaqişəyə münasibət bildirən beynəlxalq hüquq mütəxəssislərinin biri "elə" deyirsə, digəri "belə" deyir. Ona görə də tərəflərin heç biri ciddi nəticə əldə edə bilmir. Bu isə həmin ölkələrdə öz maraqlarını təmin etmək istəyən "üçüncü dövlətlərin" fəallaşmasına səbəb olur.

Xüsusilə vurğulanmalıdır ki, Rusiya, Ukrayna və İsrail uzun illərdən bəri mükəmməl silahlanma mərhələləri keçmiş ölkələrdir. Yəni onların hərbi potensialının cəmi otuz il dövlət müstəqilliyi olan Azərbaycanla müqayisə edilməsi mümkün deyil. Üstəlik, İsrailin apardığı müharibə hansısa nizami orduya deyil, özlərinin də elan etdikləri kimi, terrorçu qruplaşmalara qarşı davam etdirilir. Ancaq Azərbaycan öz torpaqlarını düşmən tapdağından azad etmək üçün müharibəni bütün müasir texnika ilə təchiz edilmiş, 30 il müddətində oturuşmuş və güclü müdafiə xətti yaratmış orduya qarşı apardı və qalib gəldi.

Bu məqamda tarixi miflər uydurmaqda peşəkar olan ermənilərin yaratdığı başqa bir mifi xatırlatmaq istərdim. Belə ki, 44 günlük müharibənin qəhrəmanlarından olan bir zabitimiz mətbuata verdiyi müsahibədə demişdi: "Vətən müharibəsində düşmənin qüvvələrini yarmaq üçün ilk əməliyyat Füzuli istiqamətində olub. Ermənistanın uydurduğu "Ohanyan səddi"ni Azərbaycan Ordusu cəmi bir saata yarıb. Həm siyasətdə, həm də döyüşdə göstərdik ki, güclü olan tərəf bizik. Prezident, Ali Baş Komandan İlham Əliyevin vaxtında və düzgün qəbul etdiyi qərarlar mühüm rol oynadı".

Yeri gəlmişkən, Ohanyan səddi 1994–2020-ci illərdə, Ermənistanın keçmiş müdafiə naziri olmuş Seyran Ohanyanın birbaşa rəhbərliyi altında qurulan və sonrakı dövrlərdə belə gücləndirilən müdafiə qurğuları sistemi idi. Azərbaycanla Ermənistan arasındakı (Qarabağdakı) təmas xətti eynilə Ohanyan xətti ilə üst-üstə düşürdü. O səddin uzunluğu 180 kilometrdən 200 kilometrə qədər idi. Hərbçilərin fikrincə, Murovdağ dağ silsiləsi təmas xəttinin şimal hissəsi sayılır və mahiyyət etibarilə iki qüvvə arasında təbii sərhəd rolunu oynayırdı. Şərq istiqamət isə Ohanyan xəttinin əsas seqmentini təşkil edirdi. Bu istiqamətin möhkəmləndirilməsininə yaranan ehtiyac isə təbii sərhədlərin olmaması, şərqə doğru yüksəkliklərin alçalması idi.

Onu da əlavə edim ki, mən Ohanyan səddinin özünü görməsəm də, Bakıdakı Hərbi Qənimətlər Parkında həmin səddin bir hissəsinin orijinala tam əsaslanaraq yaradılmış variant ilə tanış olmuş, "Allah səni qorusun, Azərbaycan əsgəri, bu səddi necə keçmisən?" – deyə heyrətlənmişdim.

Onu da xatırladım ki, 44 günlük müharibə günlərində ermənilər Azərbaycan əsgərinin qarşısında duruş gətirə bilməyəndə – istənilən addımda uşaqlı – böyüklü bütün mülkü insanların öldürülməsinə, qətlinə çalışırdılar. Eynilə Xocalıda olduğu kimi. Azərbaycan Ordusu isə istər 44 günlük müharibədə, istərsə də birgünlük antiterror əməliyyatları zamanı əsl "centlmensayağı müharibə"si apardı. Mülki əhaliyə zərər vurulmadı, mülki infrastruktur dağıdılmadı. Bütün dünyanın gözü qabağında olan faktdır ki, birgünlük antiterror tədbirlərində mülki əhaliyə çıxmaq üçün xüsusi şərait yaradılmışdı, onların təhlükəsiz hərəkəti təmin olunmuşdu.

Ermənilər özləri də etiraf edirlər ki, əhali qabaqcadan radio, TV və xüsusi yayımlanan vərəqələr vasitəsilə xəbərdar edilirdi. Ermənilər raket qurğularını mülki obyektlərdə yerləşdirsələr belə, həmin obyektlərə heç bir zərər verilmədi. Ancaq İkinci Dünya müharibəsindən sonra həyata keçirilən bütün savaşlarda mülki əhalinin qırılması, mülki infrastrukturun dağıdılması, minlərlə mülki şəxsin öldürülməsi, şəhər, kənd və qəsəbələrin yer üzündən silinməsi milyonlarla insanın gözünün qabağında baş verir. Dövlət başçımızın Ağdərədə dediyi kimi, indi internet əsridir və kimin harada, nə ilə məşğul olduğunu hamı görür.

Elə mən də çox faktları görmüşəm. Yadımdadır, Bakıdakı Hərbi Qənimətlər Parkında Ermənistan ordusundan hərbi qənimət kimi götürülmüş avtomobillərin dövlət fərqlənmə nişanlarının (nömrələrinin) sayını öyrənmək istəsəm də sayıb qurtara bilmədim. Ancaq beynəlxalq aləmdəki hərbi təhsil müəssisələri bizim Zəfər tariximizdəki çox faktları və hadisələri sayıb qurtarıblar. Ona görə də Azərbaycanın həyata keçirdiyi hərbi əməliyyatların unikallığı və qısa müddətdə böyük nəticələr vermək təcrübəsi indi artıq uzaq xaricdə də öyrənilir. Şuşa və Hadrut əməliyyatlarının unikallığı isə yazıçı və kinossenaristlərin, rejissorların maraq dünyasını zəbt etmişdir.

Bəli, dünya Azərbaycan reallıqlarını Ağdərədən də eşitdi. Bu reallıqlar güclü dövlət – güclü lider düsturunun bütün qələbələrin əsasında dayandığının göstəricisi kimi qəbul edilir. Cənab Prezident ağ günlərini yaşayan Ağdərədə yeni yaşayış evlərinin açılışında da iştirak etdi, Novruz tonqalı da yandırdı. Bütün soydaşlarımızın, türk dünyasının və beynəlxalq aləmdəki dostlarımızın sevinərək alqışladığı həmin faktlar Parisdə, İrəvanda və anti-Azərbaycan zehniyyətli insanların olduğu hər yerdə çoxlarının yuxusunu qaçırdı. Qoy olsun! Biz də torpaqlarımız barbar qonşunun tapdağında olanda çox gecələri yuxusuz qalmışdıq.

Evin mübarək, Ağdərə sakini! Suyun bulanmasın, Suqovuşan! Yolun aydın olsun, sabiq məcburi köçkün! Daha böyük uğurlarına şahidlik edək, cənab Prezident!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# QHT-lər Qərbi Azərbaycana Qayıdış hərəkatına ictimai dəstək qazandırır

**Milli QHT Forumunda Qərbi Azərbaycana qayıdış prosesində QHT-lərin rolu mövzusunda toplantı keçirildi. Mərasimdə qeyri-hökumət təşkilatlarının rəhbərləri, tarixçilər, rəsmi şəxslər və ictimaiyyət nümayəndələri iştirak edirdilər.**



Vətəndaşların Sosial Rifahı Naminə İctimai Birliyinin sədri İradə Rizazadə qeyd etdi ki, Qərbi Azərbaycana qayıdış məsələsində həmrəyliyimizi genişləndirməli, gücləndirməliyik. Onun fikrincə, bu ərazilərimizə qayıtmaq üçün bir neçə istiqamət var və onlardan ən vacibi gənclər təşkilatı ilə görüləcək işlərdir: "Qərbi Azərbaycan məsələsi yurdlarından didərgin düşmüş soydaşlarımızın haqlarını və tarixi ədaləti bərpa etmək baxımından olduqca zəruridir. Əzəli torpaqlarımıza qayıdışı təmin etmək üçün QHT-lər də önəmli rol oynaya bilər və bunun üçün addımlar atmaq lazımdır. Deyərdim ki, Qərbi Azərbaycanla bağlı xeyli araşdırılmayan mövzular var".

"Abidələri Müdafiə Təşkilatı" İctimai Birliyinin sədri Faiq İsmayılov ermənilərin Azərbaycanın tarixi abidələrini məhv etməsinin acı nəticələrindən söz açdı. Qeyd etdi ki, həmin abidələr canlı mədəni irsdir: "Qərbi azərbaycanlıların haqlarının təmin edilməsi üçün indiki Ermənistan ərazisindəki tarixi mədəni irs nümunələri, həmçinin o dövrün görkəmli alimləri yaxşı araşdırılmalı, həm Azərbaycan cəmiyyətinə, həm də bütün dünyaya tanıdılmalıdır. Sübut edilməlidir ki, bu ərazilər tarixi Azərbaycan torpaqlarıdır, burada azərbaycanlılıar yaşayıb və gec-tez öz yurdlarına qayıdacaqlar"

"Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyinin sədri Nurəddin Mehdiyev Qərbi Azərbaycana qayıdış məsələsində QHT-lərin aktiv fəaliyyət göstərə bilməsini, bu istiqamətdə vacib qərarların verilməsini və real addımların atılmasını zəruri hesab etdi.

Digər natiqlər də Qərbi Azərbaycana qayıdışın konsepsiyasının günümüzün reallığı olmasının və bu işdə medianın da böyük rol oynamasının vacibliyini vurğuladılar. Qərbi Azərbaycana qayıdış prosesində QHT-lərin rolu ilə bağlı fikir və təkliflər dinlənildi, mövzu ilə bağlı məsləhətləşmələr aparıldı, suallar cavablandırıldı.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Hərb, yoxsa sülh?

## İrəvanın hansını seçəcəyi hələ də müəyyən deyil



**Az qala, bütün dünya Azərbaycan və Ermənistan arasında sülh mətninin razılaşdırılmasını alqışlayır. Hətta vaxtilə münaqişənin həllində vasitəçi statusunda olan, amma, əslində, onu konservləşdirmyə çalışan üç ölkə – ABŞ, Rusiya və Fransa da tezliklə sülh sazişinin imzalanmasını arzulayırlar. ABŞ Dövlət katibi Marko Rubio bildirib ki, bu, hər iki ölkə üçün Prezident Trampın möhkəm sülhə dair baxışlarına uyğundur, onilliklər boyu davam edən münaqişənin səhifəsini çevirmək üçün bir fürsətdir. O, durumdan məmnunluğunu "indi sülhə nail olmaq, müqaviləni imzalamaq, ratifikasiya etmək və Cənubi Qafqaz xalqları üçün yeni tərəqqi dövrünü açmaq vaxtıdır" formasında ifadə etməyi də unutmayıb.**

Maraqlı və təəccüblü yanaşmadır. Bəli, Ermənistana silah verənlər həm də sülhdən danışırlar. Axı, bu iki məfhum – hərb və sülh bir "qazana" sığmır. Görünən odur ki, sadaladığımız üç gücdən ikisi Ermənistanı sürətlə silahlandırmaq planını işə salıblar. Məqsədləri bəllidir: ermənilər məğlubiyyətin acısını tez unutsunlar, hərbi dəstəyi hiss etsinlər, tək qalmadıqlarına əmin olsunlar. Bu isə hərbi-siyasidən daha çox psixoloji nüansdır. Bunların məğlub ordunu "reanimasiya"dan çıxarmaqdan ötrü sülhlə manipulyasiya etmək kimi ikiüzlü gedişləri də varmış.

*

Üç gündə atəşkəs rejimini səkkiz dəfə pozan Ermənistan rəsmi Bakının buna etirazlarına bəyanatla cavab verib. Əvvəlcə Azərbaycan Müdafiə Nazirliyinin bəyanatına diqqət yetirək: "Martın 18-i saat 22:20-dən martın 19-u saat 01:40-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod, Yuxarı Şorca və Qarakilsə rayonunun Bazarçay yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan yenidən fasilələrlə atəşə tutub".

İndi də son üç gündə Ermənistan müdafiə nazirliyinin martın 18-də dərc etdiyi Azərbaycanın "dezinformasiyalarının" səkkizinci təkzibinə fikir verin: "Azərbaycan Müdafiə Nazirliyinin Ermənistan silahlı qüvvələrinin bölmələrinin sərhəd zonasının şərq hissəsində yerləşən Azərbaycan mövqelərini atəşə tutması ilə bağlı bəyanatı reallığa uyğun gəlmir". Ardınca xatırladılır ki, Ermənistan baş nazirinin ofisi atəşkəs rejiminin pozulması hallarının və ya bu barədə məlumatların araşdırılması üçün Ermənistan–Azərbaycan birgə mexanizminin yaradılmasını təklif edib. Lakin Azərbaycan hələlik bu təklifə cavab verməyib".

Aydın məsələdir ki, Bakı İrəvanın yalan və təxribatçı bəyanatına cavab verməli idi və verdi də. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistan baş nazirinin ofisinin sərhəddə atışmalar və digər anti-Azərbaycan iddiaları ilə bağlı bəyanatını şərh edib. Şərhdə deyilir ki, Azərbaycan Ermənistan baş nazirinin ofisinin Azərbaycana qarşı tamamilə əsassız iddialarla yanaşı, yerdəki reallıqları və sərhədyanı bölgələrdə atışma faktlarını təhrif edən bəyanatını qətiyyətlə rədd edir. Ermənistan hərbi qulluqçularının açıq təxribatlarına son qoyulmasının sabitlik üçün zəruri şərt olduğu xatırladılan şərhdə bildirilir ki, İrəvanın xoşməramlılıq nümayiş etdirmək, bu cür təxribatlara son qoymaq əvəzinə, mücərrəd və praktiki olaraq qeyri-mümkün təklifləri Azərbaycan ərazilərinin 30 ilə yaxın işğalı müddətində olduğu kimi, heç bir əsası yoxdur: "Bu, Minsk qrupu həmsədrlərinin işğala son qoymağa çağırmaq əvəzinə, irəli sürdüyü təklifləri xatırladır".

"Əgər Ermənistan hökuməti, Baş nazirin ofisinin də bəyan etdiyi kimi, sülh gündəmini rəhbər tutursa, o zaman sərhədyanı ərazilərdə, hücum silahlarının yerləşdirilməsi də daxil olmaqla, kütləvi hərbiləşmənin Ermənistanın belə bir gündəliyinə necə xidmət etdiyi barədə izahat verməsi yerinə düşərdi"– deyilən XİN rəsmisinin şərhində Ermənistanın konstitusiyasına dəyişiklik edilməsi barədə Azərbaycanın prinsipial mövqeyi bir daha diqqətə çatdırılır, ATƏT-in köhnəlmiş və qeyri-funksional Minsk qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğv olunmasının zəruriliyi vurğulanır.

Konkret fakt, sübut və diplomatik məntiqlə əsaslandırılmış şərhdə 30 ilə yaxın müddətdə tərəf olduğu beynəlxalq müqavilələr və silahlara nəzarət mexanizmləri çərçivəsində öhdəliklərini kobud şəkildə pozanın məhz Ermənistan olduğu diqqətə çatdırılır. Bu arqumentin qarşısında isə İrəvanın deməyə sözü olmamalıdır: "Azərbaycana qarşı təcavüz törədən, ərazilərimizin işğalı müddətində əksər hərbi texnikasını və silah sistemlərini ölkəmizin ərazisində yerləşdirməklə beynəlxalq silahlara nəzarət mexanizmlərindən gizlədən ölkə kimi Ermənistanın belə mexanizmlərdən danışmağa mənəvi haqqı yoxdur".

*

İndi isə mövcud vəziyyətə kənar müşahidəçinin gözü ilə baxmağa çalışaq. Mənzərə nədən ibarətdir? Ermənistan–Azərbaycan sərhədində vəziyyət yenidən pisləşib. Azərbaycan Müdafiə Nazirliyinin məlumatlarına görə, Ermənistan ordusunun bölmələri sərhədin, demək olar ki, bütün perimetri boyu – Gorus rayonunun cənub istiqamətindən Basarkeçərin şimal sektorunadək Azərbaycan mövqelərini atəşə tutur. Əgər şərti sərhəddə silahlı təxribatlar belə davam edərsə, Azərbaycan istər-istəməz sərt cavab tədbirləri görməli olacaq. Sülhə çağırışların səsləndiyi indiki durumda sərhəddə eskalasiyanın yaranmasında kimlər maraqlıdır?

Sülh müqaviləsinin mətni üzərində işlərin başa çatdırılmasının Ermənistanda daşnak-revanşist və rusiyayönlü qüvvələrin kəskin reaksiyasına səbəb olduğu məlumdur. Baş nazir Nikol Paşinyanın opponentləri ermənilərin Qarabağa qayıdışı, separatçı liderlərin azad edilməsi, eləcə də haylar üçün "vacib" sayılan digər məsələlərə təminat verməyən sazişi kapitulyasiyaya bərabər tutaraq, onu sərt tənqid edirlər. Özlərini "Erməni diplomatlarının milli şurası" adlandıran qrup danışıqlar prosesinin "birtərəfli güzəştlər formatı"nda getdiyini bəyan edib. Onlar hakimiyyəti sazişin mətnini ictimaiyyətdən gizlətməkdə ittiham edirlər. Bu isə Ermənistan üçün əlverişsiz müddəalardan xəbər verir.

Daxili müxalifət – keçmiş prezidentlər Serj Sarkisyan və Robert Koçaryanın partiyaları da sülh sazişinə qarşı çıxırlar. Ermənistan Respublikaçılar Partiyası isə mətnin dərhal dərc olunmasını tələb edib. Guya, Paşinyanın əlində beynəlxalq təminat olmadan sazişi imzalamağa legitimliyi yoxdur. Paşinyanın ünvanına tənqidlər təkcə Ermənistanın özündən deyil, həm də erməni lobbisindən gəlir. ABŞ-dakı Amerika–Erməni Milli Komitəsi də Paşinyanı birtərəfli güzəştlərdə ittiham edir. Beləliklə, Ermənistan hakimiyyəti həm ölkə daxilində, həm də xaricdə ciddi təzyiqlərə məruz qalıb. Yaranmış vəziyyətdə şərti sərhəddə gərginliyin artırılması diqqəti siyasi problemlərdən yayındırmaq üçün alət ola bilər. Sirr deyil ki, son bir neçə ildə Ermənistan Fransa, Hindistan və bir sıra digər ölkələrin dəstəyi ilə fəal şəkildə silahlanır. Sərhəd xətti təkcə müdafiə deyil, həm də hücum funksiyalarını yerinə yetirə bilən beton istehkamlarla möhkəmləndirilib.

*

Belə görünür ki, İrəvanda 2020-ci illə müqayisədə Ermənistan ordusunun xeyli güclənəcəyinə inam formalaşıb. Ola bilsin ki, daxildən və kənardan real təhdidlərlə üz-üzə qalmış Paşinyan iqtidarı silahlı qüvvələrin indi müqavimət göstərmək və təkcə hərbi hesablamalarla deyil, həm də siyasi məqsədlərdən irəli gələn lokal hücum planını gerçəkləşdirmək iqtidarında olduğunu düşünür. Axı güc nümayişi müxalifətin təzyiqləri fonunda hakim partiyaya öz reytinqini yüksəltməyə kömək edə bilər. Ermənistan rəhbərliyində, doğrudan da, belə bir fikir üstünlük təşkil edərsə, o zaman nəticələri həm Paşinyan hökuməti, həm də bütün Ermənistan cəmiyyəti üçün fəlakətli ola bilər.

Hətta nəzəri cəhətdən ehtimal etsək ki, Ermənistan Azərbaycana qarşı hansısa hərbi təcavüzə baş vura bilər, bu, beton divarı başla vurub dağıtmaq cəhdinə bənzəyər. Azərbaycan son illər hərbi büdcəsini dəfələrlə artırıb, ordusunu müasirləşdirib, onun döyüş qabiliyyətini gücləndirib. Bunu "hərb, yoxsa sülh"? – dilemması qarşısında qalan İrəvan isteblişmenti də yaxşı bilir. Onun gərginliyin artmasında nə qədər irəli gedəcəyini söyləmək çətindir.

Hay mətbuatının yaydığı məlumatlara görə, Ermənistan yeni aldığı silahları sərhədə toplayır. Bu, bir daha həmin silahların Paşinyan hakimiyyətinin dediyi kimi, müdafiə üçün deyil, hücum üçün olduğunu göstərir. Bəlkə Ermənistan sərhəddə törətdiyi təxribatlarla Azərbaycanın güc tətbiq etməsinə nail olmağa, sonra da bunu beynəlxalq arenaya "təcavüz" kimi üfürməyə çalışır? Hayların bu qəbildən olan ənənəvi informasiya müharibəsi taktikasını çox görmüşük və artıq bu təxribatlara reaksiyamızı də təkmilləşdirmişik.

Hələlik şərti sərhəddə atəşkəsi atıcı silahlar pozur. Amma yaxın tarixin təcrübəsi göstərir ki, belə vəziyyətlərdə ağır silahlardan istifadəyə keçid eskalasiyanı sürətləndirə və böyüdə bilər. Əgər Ermənistanın təxribatları davam edərsə, Azərbaycan sərt cavab tədbirləri görməyə məcbur olacaq. Bu zaman ortaya çıxan tək sual lokal toqquşmalardan ciddi hərbi əməliyyatlara keçidin nə zaman baş verəcəyi ilə bağlı olacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

***Rasim MUSABƏYOV,***
***Milli Məclisin deputatı, politoloq:***



– Rəsmi İrəvan bəyanat verir ki, guya, Ermənistan ordusu tərəfindən atəşkəs rejimi pozulmayıb. Axı, Ermənistan hakimiyyətinin öz sərhədlərinə nəzarəti çox zəifdir. Qarabağdan çıxan ermənilər özləri ilə minlərlə avtomat, pulemyot, qumabaraatan aparıblar. Onlar mülki əhali adı altında həmin şərti sərhəd zolağında əllərində silah gəzirlər. İstisna etmirəm ki, beyinləri daşnak ideologiyası ilə zəhərlənmiş yeniyetmə dığalar sülh müqaviləsinin imzalanmasını Ermənistanın kapitulyasiyası kimi qəbul edirlər və onu pozmağa çalışırlar. Bir təpədən o biri təpəyə keçərək Azərbaycan istiqamətində atəş açırlar. Bu başıpozuq qüvvələrin hamısını nəzarət altında saxlamaq lazımdır. Ona görə sərhəddə baş verən insidentlərə görə bütün məsuliyyət Ermənistanın üzərinə düşür. Sərhədin o üzündən kimin atəş açdığının bizim üçün heç bir fərqi yoxdur. Təxribatçı yeniyetmə də ola bilər, erməni hərbçisi də.

Fikrimizcə, belə insidentlər Paşinyana lazım deyil. O, tezbazar sülh müqaviləsini imzalamaq istəyir. Amma generalitet belə təxribatlara gedə bilər. Sadəcə, Ermənistan ordusu Azərbaycanla təmas xəttinə nəzarət etmək iqtidarında deyil. İndi sərhəddə nəzarət mexanizminin qurulması ilə bağlı Ermənistanın Azərbaycana hansısa təklifləri verməsi xüsusi məqsədə xidmət edir. İrəvan bu yolla Avropa İttifaqının müşahidə missiyasını Azərbaycan ərazisinə keçirməyi düşünür. Bu, baş tutmayacaq. Haylar xəyallara qapılmamalı, Azərbaycandan aldığı dərsləri yadlarına salmalıdırlar. Əgər növbəti təxribatda bizim tərəfdən kimsə xəsarət alsa, yaxud öldürülsə, bu halda sərt cəza tədbirləri qaçılmaz olacaq. Vəziyyəti o səviyyəyə çatdırmaqdan çəkinməlidirlər.

### Ekspert rəyi

***Fərhad MƏMMƏDOV,***
***Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin rəhbəri:***



– Bizə elə gəlir ki, şərti sərhəddə törədilən təxribatlar sülh müqaviləsi ilə bağlı məsələ deyil. Bu durum ABŞ ilə Avropa İttifaqı tərəfindən Ermənistana göstərilən dəstəyin davam etdirilməsi ilə bağlıdır. Çünki insidentin miqyası elə də böyük deyil. İrəvanda çox yaxşı anlayırlar ki, sərhəddə "kiçik qələbə" ssenarisini gerçəkləşdirmək istəyirlərsə, bu halda Azərbaycanın ciddi cavab tədbirləri ilə üzləşə bilərlər. Yəni, "kiçik qələbə"nin əvəzində böyük məğlubiyyətə uğramaq təhlükəsi var.

Belə bir planın mövcudluğuna inanmıram. Yalnız ağılsız siyasətçi bu barədə düşünə bilər. Nikol Paşinyan isə ən azı, özünüqoruma instiktinə malikdir. Belə təxribatların meydana gəlməsi, ilk növbədə, kənardan yardımın, dəstəyin koordinasiya olunmuş şəkildə alınmasına hesablanıb. Sual oluna bilər ki, nəyə görə?

Keçən ilin aprelində ABŞ və Avropa İttifaqı Ermənistana yardım məsələsini sistemləşdirdi. Bu fəaliyyəti bir-biri ilə koordinasiya edirlər. Mərkəzimiz bunu araşdırmışdı. Məlum oldu ki, bu məqsədlə sərf olunan maliyyə vəsaitlərinin hesabatında göstərilir ki, Vaşinqtonun Ermənistana etdiyi yardımların, ayırdığı qrantların 50 faizdən çoxu birbaşa söz azadlığına və dövlət strukturlarında islahatlara yönəldilib. Eyni qaydada yardımları Aİ də edir. Amma daha çox infrastruktur layihələrin həyata keçirilməsinə. Paşinyan bunu bacarıb. İndi isə qlobal səviyyədə bu koordinasiya itib. Fəaliyyətin Ukrayna, İran, Yaxın Şərq istiqamətlərində haçalanma baş verir. Ermənistan, o cümlədən USAID xətti ilə aldığı yardımlardan da məhrum olub. İrəvanın şərti sərhəddə eskalasiya yaratmaqda əsas məqsədi ABŞ-dan təhlükəsizliyini təmin etmək üçün yardım qoparmaqdır.

# Ermənistana kökə, Azərbaycana "zopa"

*(əvvəli 1-ci səhifədə)*

Tələskənlikdə başlıca məqsəd ölkəmizin sülh müqaviləsinin ərsəyə gəlməsi üçün Ermənistana qarşı irəli sürdüyü iki şərti (Ermənistan konstitusiyasında dəyişiklik aparmaqla sənədin işğalçı istinad mahiyyətinin aradan qaldırılması və ATƏT-in Azərbaycan torpaqlarına təcavüzün leqallaşdırmaq istiqamətində fəaliyyət göstərən Minsk qrupunun ləğvi – red.) nəzərə almamaq, beynəlxalq ictimaiyyətin həmin şərtlərə diqqət cəmləşdirməsinin qarşısını kəsmək olmuşdu və yenə durum dəyişməyib.

Bir sözlə, dünyanın ermənipərəst dairələri elə fon yaradırlar ki, sanki rəsmi Bakının tələbləri mənasızdır. Ən başlıcası isə guya, bu tələblər Azərbaycanın Ermənistanla sülhə gəlmək istəməməsindən qaynaqlanan bəhanələrdir. Halbuki, ölkəmizin istəyi Cənubi Qafqazda barışın fundamental əsaslarını müəyyənləşdirməkdir və Ermənistan ərazi iddiasından əl çəkdiyinə təminat verməyincə bu mümkünsüzdür.

Əlqərəz, Azərbaycanı sülhə çağıranların sırasına Avropa Parlamenti də qoşulub və məsələ təəccüblü sayılmamalıdır. Qurumun bu məqsədlə yaydığı bəyanata diqqət yetirəcəyik. Əvvəlcə isə onu deyək ki, AP-nin indiki bəyanatında Azərbaycana qarşı açıq ittiham tonu yoxdur və sənəd bu baxımdan qurumun əvvəlki lakmus kağızlarından fərqlənir. Axı AP son illərin anti-Azərbaycan ritorikasının ən qızğın məcrada özünü göstərdiyi platformadır.

Ümumən, Avropa İttifaqının bu strukturunun ermənipərəstlik mövqeyindəki azğınlığa, sadəcə olaraq, heyrətlənmək qalır. Elə təsəvvür yaranır ki, AP-nin Ermənistan adlı ayrıca fəaliyyət dairəsi var. Hesab edirik ki, gələcəkdə qurumu Ermənistan parlamentinin Avropa filialına çevirmək üçün ciddi "potensial" da formalaşıb. Əlbəttə, bu pensionerlər klubunun təmsilçilərinin açıqlamalarındakı illüziya tonu Ermənistanı tamamilə məhvə sürükləməsə yaxşıdır. Nəzərə alaq ki, İrəvanı, obrazlı desək, illüziya bataqlığında boğan yalnız AP deyil.

Beləliklə, Avropa Parlamenti Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi mətninin razılaşdırılması üzrə danışıqların başa çatmasını alqışlayan bəyanatında Paşinyan iqtidarını əməlli-başlı tərifləyib. Sən demə, rəsmi İrəvanın barış mühitinin formalaşmasına yönələn səyləri təqdirəlayiq imiş: "Biz əminik ki, Azərbaycan rəhbərliyi onilliklər ərzində davam edən münaqişəyə son qoymaq üçün yaranmış tarixi şansdan istifadə edəcək və sülh müqaviləsini imzalamaqla, çiçəklənən Cənubi Qafqaz quruculuğuna çalışacaq".

Bəyanatdakı belə gəligözəl ifadələr qətiyyən səmimi deyil. Birincisi, elə təəssürat yaranır ki, sanki sülh yolunda çalışan yalnız Ermənistan olub, Azərbaycan yox. İkincisi, subliminal şəkildə rəsmi Bakının, guya, heç nə ilə razılaşmadığı görüntüsü formalaşdırılır. Üçüncüsü, söhbət çiçəklənən Cənubi Qafqaz quruculuğundan gedirsə, ilk növbədə bildirmək və tam ciddiyyatı ilə nəzərə almaq lazımdır ki, regionda mövcud istiqamətdə çalışan ilk ölkə məhz Azərbaycandır. Bu gün Avropa kapitalı Cənubi Qafqazda hansısa formada dayana bilirsə, bu, birbaşa ölkəmizin səylərinin nəticəsidir. Amma nədənsə avropalılar keçmişi unudurlar. Unutmaları bir yana, ermənipərəstlik növbəsi gələndə, Azərbaycanı destruktuv qüvvə kimi görürlər. Dördüncüsü, hazırda sülh və əməkdaşlıq platforması olaraq Cənubi Qafqazın inkişafına real töhfə verən, regionun gələcək inkişafının konseptual məqamlarını böyük ölçüdə, yəni, əməli fəaliyyəti ilə düşünən məhz Azərbaycandır. Beşincisi, 44 günlük müharibədən sonra Ermənistana barış əlini uzadan da ölkəmiz olub, 2022-ci ildə sülh müqaviləsinin mətnini hazırlayan da.



AP-nin bəyanatında, eyni zamanda, Azərbaycan – Ermənistan sərhədlərinin delimitasiya prosesindəki proqres, habelə, regional kommunikasiyaların ölkələrin suverenliyi və yurisdiksiyası, qarşılıqlılıq və bərabərlik əsasında açılmasının zəruriliyi, bunun inkişafa və tərəqqiyə gətirəcəyi, insanlar və icmalar arasındakı əlaqələri möhkəmləndirəcəyi vurğulanıb. Göründüyü kimi, yenə gəlişigözəl ifadələrə yer verilib ki, bu yanaşma reallıqları heçə saymaq, onlardan yan ötmək deməkdir.

Reallıq isə budur ki, Paşinyan hakimiyyəti hazırda regional kommunikasiyaların açılması ilə bağlı ən müxtəlif manipulyasiyalara baş vurmaqdadır. 44 günlük müharibədən sonra Azərbaycanın digər əraziləri ilə Naxçıvan arasında quru əlaqəsinin yaradılması kazusu əsas götürülsə də və bu kazus beynəlxalq ictimaiyyət tərəfindən birmənalı qəbul edilsə də, rəsmi İrəvanın hazırkı hərəkət və davranışları onu deməyə əsas verir ki, Ermənistan Naxçıvana quru yolunun olmasını istəmir. Paşinyanın xüsusən son günlər qarışıq təkliflər səsləndirməsi fikrimizin sübutudur. Yəni yaxşı olar ki, AP buna görə də tələskənliyə "yol verməsin".

Ölkələrin suverenliyi və yurisdiksiyasına gəlincə, aydındır ki, belə qoyuluş da erməni iqtidarının ərazi bütövlüyü və suverenlik klişesindən qaynaqlanır. Rəsmi İrəvan Naxçıvana maneəsiz yolun qarşısını məhz bu klişeni əlində bayraq edərək kəsir, nəticə etibarilə 44 günlük müharibə məğlubu kimi üzərinə düşən öhdəliyi yerinə yetirməkdən boyun qaçırır. Deməli, həm də sülhün real trayektoriyasını qəbul etməkdən yayınır.

Hayastan silahlı qüvvələrinin son günlər atəşkəs rejimini pozmaları da Ermənistan rəhbərliyinin Azərbaycanla sülhdən yayındığının sübutudur. Doğrudur, bu barədə AP-nin bəyanatında heç nə yoxdur. Sənəddə ifadəsini tapan daha bir məqam isə İrəvanın Bakını nəzərə almamaqla, Türkiyə ilə yaxınlaşmaq xəttinə dəstəkdir: "... Biz əminik ki, Türkiyə hökuməti regionda pozitiv inkişafı dəstəkləmək imkanından yararlanacaq və Ermənistanın öz vətəndaşlarının və Cənubi Qafqazın rifahı naminə Ermənistan – Türkiyə sərhədlərinin açılmasına hazır olmasına reaksiya verəcək".

Məlumdur ki, Türkiyə Cənubi Qafqazda regional kommunikasiyaların açılmasının Azərbaycan gündəminin tərəfdarıdır və başqa cür mümkün deyil. Digər tərəfdən, Türkiyə Azərbaycanla birbaşa quru əlaqəsinin olmasında maraqlıdır. Üçüncü bir yandan, rəsmi Ankara ümumilikdə Türk dünyasının coğrafi məkan olaraq bütövləşməsi ideyasını dəstəkləyir ki, bu ideyanın reallaşmasının tək yolu Azərbaycanın digər ərazilərindən Naxçıvana maneəsiz hərəkətin olmasıdır. Hərəkətə maneçilik törədənin isə Ermənistan olduğunu vurğuladıq. Deməli, Paşinyan hakimiyyətinin Ermənistan – Türkiyə əlaqələrini, Ermənistan – Azərbaycan münasibətlərindən kənarda tutmaq yönümlü yanaşması nəinki yolverilməzdir, eyni zamanda, absurddur. Yaxşı olar ki, AP-dəkilər bunu da nəzərə alsınlar.

Sonda ümumiləşdirmə apararaq deyək ki, Avropa Parlamentinin haqqında söz açdığımız bəyanatı, həmişəki kimi, Ermənistanı dəstəkləmək, Cənubi Qafqazda erməni avantürasının saxlanılmasına kömək göstərmək mahiyyəti daşıyır. Bu yanaşma heç bir halda sülh və sabitliyin qərarlaşmasına xidmət sayıla bilməz. Əslində, belə bir xidmət AP-dən heç gözlənilmir də.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Milli ideya XXI əsrin yeni geosiyasi çağırışları fonunda



### III MƏQALƏ

## Cəmiyyətin birlik rəmzi

Əsrimizin yeni çağırışlarının ümumi mənasından bir sıra məntiqi nəticələr çıxarmaq olar. Onlardan biri, şübhəsiz, hər bir müstəqil dövlətin daxili birliyini təmin etmək səviyyəsi ilə bağlıdır. İndi dünya miqyasında baş verən proseslər bir tərəfdən qloballaşmaya faktiki olaraq yeni anlam vermək cəhdinin olduğunu göstərir, digər tərəfdən isə dövlətlərin daxili birliyi məsələsinin daha da aktuallaşdığına işarə edir.

Qloballaşmanın yeni anlamı bütövlükdə fəlsəfi və politoloji düşüncə üçün maraqlıdır. Bu proses yeni başlamışdır və onun yekun mənzərəsini indidən görmək çətindir. Lakin aydındır ki, bu dönəmdə milli müstəqil dövlətçiliyin mövcudluğu şərtləri yeniləşə bilər.

Deməli, hər bir müstəqil dövlət çoxvariantlı ssenarilərə hazır olmalı və özünün mövcudluğunu saxlamağı bacarmalıdır. Burada ən çətini ondan barətdir ki, dünya miqyasında ölkədən kənarda nələrin ola biləcəyini öncədən proqnozlaşdırmaq imkansızdır.

O halda dövlətin öz daxilində çox güclü "immun sistemi" qurması yeni anlamda strateji əhəmiyyətliliyini ön sıraya çıxarmış olur. Dövlətin daxili "immun sistemi" cəmiyyətin birliyi səviyyəsi ilə sıx bağlıdır. Milli ideya kontekstində bu onu ifadə edir ki, yeni çağırışlar istər-istəməz cəmiyyətin birliyini və həmrəyliyini daha da gücləndirməyi tələb edir. Əslində, proseslərin bu istiqamətdə gedəcəyini Azərbaycan Prezidenti öncədən görmüşdür. Onu kifayət qədər aydın və yığcam ifadə etmişdir.

2024-cü il fevralın14-də İlham Əliyev Prezident seçilməsi ilə bağlı təşkil edilmiş andiçmə mərasimində bəyan etmişdir: "Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır".

Bu yığcam fikirlərdə Azərbaycan Respublikasının 1993-2020-ci illərdə keçdiyi yolun milli ideya kontekstində gözəl və dəqiq ifadəsi vardır. Burada üç incə aspekt vəhdət halında məntiqi olaraq verilmişdir. Birinci, günün reallığı: "Azərbaycan xalqı bir yumruq kimi birləşib". İkinci, bunun səbəbi milli ideyanın reallaşmasıdır. Konkret olaraq: "Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi"dir. Üçüncü, mövcud vəziyyətin tələbi: "bu birlik daimi olmalıdır"!

## Milli ideya, tarixi zaman və tarixi yaddaş

Bəlkə də fəlsəfi təfəkkürdən kənarda sonuncu qısa tezis tam mənası ilə asan dərk edilmir. Lakin birliyin daimi olması fəlsəfi prizmada ən azı üç cəhəti ehtiva edir. Onlardan biri "birlik" anlayışına tarixi zamanda baxmaqla bağlıdır. Azərbaycan Prezidenti bu anlamda həm birliyin mövcudluğunu fiksasiya edir, həm də daim yeniləşməkdə olan proses xarakterinə işarə verir. Yəni hər mərhələdə cəmiyyətin birliyini tarixi zaman yaradır. Birlik daima tarixi zamanda aktuallaşır və əyaniləşir.

İkinci məqam tarixi zamanda birliyin əbədi olmasının praktiki reallaşması forması ilə bağlıdır. Burada keçmişlə indinin və gələcəyin qarşılıqlı əlaqələrinin elə konkret fəlsəfi və daha konkret səviyyədə siyasi-nəzəri formulunu yaratmaq lazımdır ki, müsbət praktiki nəticə versin. Bu baxımdan dövlət başçısı İlham Əliyev qısa bir tezisdə Azərbaycan fəlsəfi, elmi və siyasi nəzəriyyəsi qaşısında dövlətçilik baxımından prinsipial strateji əhəmiyyət daşıyan vəzifə qoymuşdur.

Üçüncü aspekt tezisdə birliyin nəyin naminə təmin edilməsinin fəlsəfəsi ilə bağlıdır. İlham Əliyevin birlik məsələsini vurğuladığı kontekstin mənası göstərir ki, söhbət güclü müstəqil demokratik dövlət quruculuğu naminə birliyin təmin edilməsindən gedir. Bu ideyanın bir qədər əyani ifadəsi azərbaycançılıq və multikulturalizm xəttindən kənara çıxmamaq tövsiyəsidir.

Bu məqamda üç faktorun dərki çox önəmli görünür – tarixi zaman, tarixi yaddaş və birlik! Bəs onları tam olaraq özündə hansı faktor-proses ehtiva edə bilər? Fikrimizcə, o, milli ideyadır! Yalnız uğurlu və konkret hədəfli milli ideya bir forma və məzmun olaraq vurğuladığımız məqamların daşıyıcısı olar bilər!

Azərbaycan Prezidenti məsələnin bu aspektini də andiçmə mərasimində məharətlə ifadə etmişdir. Dövlət başçısı yuxarıda vurğuladığımız fikirlərin davamı olaraq demişdir: "Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi qalır, dünyada oynadığı rolu artır. Əlbəttə, bizə qarşı bundan sonra da ideoloji təxribatlar nəinki istisna deyil, bunlar qaçılmazdır və biz bunu demək olar ki, gündəlik həyatda görürük. Bizim işimizə kölgə salmaq, bizi diskriminasiyaya uğratmaq, Azərbaycan haqqında əsassız və yalançı, mənfi imic yaratmaq - biz bütün bunları gündəlik həyatda görürük, Azərbaycan xalqı görür və bundan hiddətlənir".

Bu fikirlərdə faktiki olaraq yeni tarixi mərhələdə milli ideyanın "daxili intellektual immun sistemi"nin başlıca parametrlərinin bir qismi əksini tapmışdır. Onları detallı şəkildə göstərək.

Azərbaycan Prezidenti məsələni milli birliyin daimiliyinin təmin edilməsi kontekstində qoyur. Bu, baza yanaşma, təməl şərtdir – istənilən halda milli birlik təmin edilməlidir. Deməli, hər bir anda bu birliyin pozulmasına olan cəhdlər qətiyyətlə neytrallaşdırılmalıdır. Yəni bəri başdan bilməliyik: Milli birlik uğrunda savaş olacaq və bu, davam edəcək! Bütöv cəmiyyət, dövlət strukturları (o sırada alimlərin, xüsusi olaraq AMEA-nın yeri və rolu ayrı olmalıdır) milli birliyin dinamik təmini üçün çalışmalıdır. Eyni zamanda, Prezident İlham Əliyev bu məsələni çox ciddi mənada iki səviyyədə aktuallaşdırr.

Birinci, milli birliyin təmininin nəzəri obrazının təməl prinsiplərini ifadə edir.

İkinci, onu reallaşdırmağın böyük mlli məsuliyyət olduğunu göstərir. Yəni problem bəri başdan onun nəzəri təsəvvürü ilə reallaşması zərurliyinin vəhdətində müəyyən edilir. Bu o deməkdir ki, cəmiyyətin hər bir kəsimi yalnız sözlə kifayətlənməməli, obrazlı desək, "hər kəs əlini daşın altına qoymalıdır"! İstənilən bölücülüyün qarşısı alınacaq. Min cür bəhanə ilə yad mədəni elementlərinin dominantlığına cəhd edənlər ciddi təpki görəcəklər. Yeni mərhələdə milli ideya kontekstində milli birlik məsələsi qətiyyətlə aktuallaşdırılmışdır!

Bu aktuallıq və məsuliyyətlilik fonunda milli birlik məsələsinin səbəblərini də dövlət başçısı detallı şəkildə ifadə edir.

**Birincisi,** "Azərbaycanın önəmi artır". Hansı mənada və aspektlərdə? Müasir mərhələdə milli dövlətin müstəqilliyini təmin etməsini əhatə edən bütün aspektlərdə və istiqamətlərdə! Bu mənada, ümumi səviyyədə Azərbaycanın önəmi həm də onun milli təhlükəsizliyni təmin etməyin daha da aktuallaşmasını ifadə etməkdədir!

**İkincisi,** "Azərbaycanın dünyada oynadığı rolu artır". Milli ideya kontekstində çox vacib tezis-göstərişlərdən biridir. Yeni tarixi mərhələ üçün onun konkret mənası: Azərbaycan artıq regional lider kimi, regionlararası miqyasda liderliyə hədəflənmişdir və bu da avtomatik olaraq qlobal miqyasda geosiyasi oyunçu kimi müəyyən öhdəliklər və məsuliyyət üzərinə götürmək deməkdir. Milli ideya bu istiqamətdə əsas motivəedici və hərəkətverici qüvvə olmalıdır!

**Üçüncüsü,** lakin – "bizə qarşı bundan sonra da ideoloji təxribatlar nəinki istisna deyil, bunlar qaçılmazdır". Burada maraqlı formada milli ideyanın, adətən, diqqət etmədiymiz bir özəlliyinə işarə vardır. Yəni milli ideya həm də toplumun "daxili immun sistemini" intellektual vasitələrlə elə stimullaşdırmalıdır ki, cəmiyyət vahid orqanizm kimi kənar təxribatları zərərsizləşdirə bilsin.

Dövlət başçısının fikirlərinə "biz bunu, demək olar ki, gündəlik həyatda görürük" kimi davam etməsi artıq bizim bu informasiya savaşının hədəfində olduğumuzu ifadə edir. Bu da fərd və toplum olaraq yenə də Azərbaycan, Vətən, müstəqil dövlət naminə məsuliyyətli olmağı tələb edir. Yəni heç bir ideoloji təxribata uymamalı, kimlərinsə oyuncağına çevrilməməliyik.

Sirr deyil ki, Prezident çox düzgün diaqnoz vermişdir və kənar təxribatçı təsirləri görürük. Mədəniyyətimizə, milli kimliyimizə, müstəqil siyasətimizə qarşı müxtəlif üstüörtülü üsullarla və bəzən daxildəki səbatsız etnik qrupların məhdud sayda nümayəndələrinin əli ilə nələrisə etməyə çalışırlar!

Dördüncüsü, əsas məqsədləri – "bizim işimizə kölgə salmaq, bizi diskriminasiyaya uğratmaq, Azərbaycan haqqında əsassız və yalançı, mənfi imic yaratmaq"-dan ibarətdir. Prezidentin vurğuladığı bu məqam müəyyən mənada milli ideya çərçivəsində milli birlik məsələsinin mahiyyətini ümumiləşdirir. Yəni bir sıra dairələr nə qədər gəlişigözəl ifadələr ("insan haqları", "demokratiya", "liberalizm", "söz azadlığı" və s.) işlətsələr də, əsas hədəf Azərbaycanı azərbaycanlıların Vətəni kimi, müstəqil güclü dövlət olaraq və məhz türk dövləti olaraq gözdən salmaqdan ibarətdir. Bu məqamda milli ideya və milli birlik fəlsəfi, tarixi, siyasi, mədəniyyət aspektlərində bir-birini tamamlayırlar. Həmin prizmada milli ideyanın yeni tarixi mərhələdə aktuallığının daha da artdığını görmək mümkündür.

Bütün bunların və yeni çağırışların fonunda milli ideyada tarixi yaddaşın cəmiyyəti birləşdirici aspektdə yeri və rolunun müəyyən edilməsi xeyli aktuallaşır. Bu məsələnin Azərbaycan Prezidentinin yeni vətənpərvər gənc nəslin yetişdirilməsi və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi aspektlərində təhlili vacib görünür.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Ermənistanı silahlandırmaq sülhə "badalaq" vurmaqdır

**Avropa İttifaqı (Aİ) Ermənistanı silahlandırmaq üçün layihə hazırlayıb. Layihəyə Fransa rəhbərlik edir. Bu vaxtadək Paris, Dehli və Afina Ermənistanı silahlandıran əsas "oyunçu"lar idi. Artıq onların sırasına Aİ də daxil olub. Bu barədə Türkiyənin "Haber Global" telekanalının saytı məlumat yayıb. Məlumatda bildirilib ki, İrəvan Aİ tərəfindən maliyyələşən Avropa Sülh Fondu (APF) tərəfindən silahlandırılacaq: "İrəvana 10 milyon avro dəyərində hərbi yardım göstərilsə də, bu yardım genişləndiriləcək. Əlavə yardım paketinin məqsədi Ermənistan ordusunun maddi-texniki və hərbi imkanlarının artırılmasıdır".**

Ermənistan Müdafiə Nazirliyi bundan sonra ən azı daha üç böyük yardım paketi almaq niyyətindədir. O da qeyd olunub ki, İrəvan növbəti müharibəyə hazırlaşmaq üçün pilotsuz uçuş aparatları (PUA) almağa çalışır. Bunun da səbəbi var. İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu tərəfindən ağır məğlubiyyətə uğramış Hayastan strategiyasını dəyişib. Kəşfiyyat məlumatlarına görə, Ermənistanın müdafiə naziri Suren Papikyan "növbəti müharibə üçün" elektron döyüş alətləri, PUA-lar, SİHA-lar və informasiya müharibəsi proqramları əldə etməyə çalışır. Artıq müxtəlif ölkələrlə danışıqlar aparılır.



Haylar hesab edirlər ki, bu silahlara sahib olmaqla gələcəkdə hərbi qarşıdurmaların, hətta bütövlükdə, əməliyyatların taleyini dəyişdirə biləcəklər. İrəvana görə, ən yaxşı silahlar Qərb ölkələrindədir. Hətta bu məqsədlə Ermənistan hökuməti Aİ və Belçikadakı nümayəndəliyində hərbi attaşe vəzifəsini təsis edib. Bəllidir ki, Brüssel Ermənistanı Avropanın hərbi-siyasi proseslərinə cəlb etməyə çalışır. Eyni zamanda, uzunmüddətli hərbi əməkdaşlığın təməlini formalaşdırır. Daha əvvəl, 2024-cü ilin fevralında, NATO-dakı nümayəndəlikdə oxşar bir vəzifə yaradılmışdı.

Ermənistanın Avropa İttifaqı ilə hərbi sahədə əməkdaşlığının yeni mərhələyə çıxması isə regionda təhlükəli nəticələrə səbəb ola bilər. Çünki Aİ-nin özü tamamilə qərəzli qurumdur. Cənubi Qafqazdakı proseslərə yalnız öz maraqları kontekstindən yanaşır. Hayastanı silahlandıraraq regional sabitliyin təmin olunmasının qarşısını alır. Aİ-ni buna nə vadar edir?

Xatırladaq ki, Aİ və Fransa 44 günlük müharibədən sonra regionda yaranmış yeni geosiyasi reallıqlardan, o cümlədən Azərbaycanın nüfuzunun artmasından çox narahatdır. Digər tərəfdən, Azərbaycan müstəqil xarici siyasətini gücləndirib, Türkiyə, Rusiya və Asiya ölkələri ilə əlaqələrini fəal inkişaf etdirir ki, bu da Brüsselə xoş gəlmir. Ermənistanın silahlandırılması da buradan qaynaqlanır. Vəsait Avropa siyasətçilərinin iddia etdiyi kimi, "təhlükəsizliyin təmin edilməsi" üçün ayrılmayıb. Əksinə, Ermənistanın silahlandırılmasına yönəldilir ki, bu da onun hərbiləşdirilmə kursunu və sülh danışıqlarından imtina etməsini daha da gücləndirə bilər.



Aİ təkcə Ermənistanı silahlandırmır, həm də Azərbaycanla sərhəddəki müşahidə missiyasının müddətini uzadır. 2023-cü ildən etibarən bu missiyanın Ermənistan sərhədində çox sayda nümayəndəsi fəaliyyət göstərir. 2024-cü ilin yanvarında Brüssel onların mandatını daha iki il müddətinə uzadıb və 44 milyon avro vəsait ayırıb.

Deməli, son illərədək Rusiyanın regionda forpostu funksiyasını yerinə yetirən Ermənistan artıq kollektiv Qərbin əlaltısına çevrilir. Onun hazırkı addımları bütün region dövlətlərinin maraqlarına ziddir. Belə bir şəraitdə Aİ-nin Ermənistana növbəti hərbi yardım ayırması qəbulolunmazdır.

Bu barədə "Haber Global"dakı məqalədə də məlumat verilib. Bildirilib ki, Aİ-nin Ermənistana hərbi yardımları onun sülh təşəbbüsü ilə bağlı çağırışlarına ziddir: "Aİ rəsmiləri deyirlər ki, Cənubi Qafqazda sülhə ehtiyac var. Amma təşkilat tərəflərdən birini silahla təchiz edərək bu təşəbbüsə mane olur. Aİ-nin dəstəyini hiss edən Ermənistan Azərbaycanla sülh danışıqlarına son qoya bilər. Fransa rəsmiləri iddia edirlər ki, Ermənistan yenidən silahlanaraq sülh danışıqlarında güclü mövqeyə sahib ola bilər".

Yada salaq ki, İrəvanı silahlandıranlar arasında Afina da var. "Enikos.gr" portalının məlumatına görə, Yunanıstan Ermənistana S-300, TOR-M1 və Osa-AKM zenit-raket komplekslərini təhvil vermək istəyir (hərçənd Yunanıstan bunu inkar edir).

"Silahlı qüvvələrin rəhbərliyi köhnə sistemlərin yeni Qərb texnologiyaları ilə yenilənməsini davam etdirmək əzmindədir. Güclü Ermənistan Azərbaycanı açıq-aşkar gücləndirən "türk inadkarlığı"na əla tarazlıq olardı". Nəşr qeyd edib ki, ermənilər Rusiya silahlarından istifadə təcrübəsinə malikdirlər və onlara xidmət göstərmək üçün lazımi ehtiyat hissələrinə malikdirlər. Bu səbəbdən də haylara onlardan istifadə problem yaratmayacaq.

Afinanın dəstəyi təkcə silah təchizatı ilə məhdudlaşmır. Son illər Yunanıstan hərbi məktəblərində təhsil alan erməni kursantların sayı iki dəfə artıb. Bu ölkədə təlim keçmiş xüsusi təyinatlıların sayında da artım var. Bundan başqa, Yunanıstanda keçirilən "Olimpiya Əməkdaşlıq–2024" təlimləri də həmin ölkənin Ermənistan ordusunu gücləndirmək istəyini nümayiş etdirir. Təlimlərdə erməni hərbi qulluqçuları yunan tankları və Fransanın zirehli texnikasından istifadə etməklə döyüş tapşırıqlarını yerinə yetiriblər.

Yunanıstanın Ermənistanı silahlandırmaq cəhdi bu dövlətin Cənubi Qafqazda yeni bir qarşıdurma yaratmaq niyyətindən xəbər verir. Ermənistanda revanşizm əhval-ruhiyyəsini artırır. Kollektiv Qərb hərbi dəstəyi ilə Hayastanı şirnikləndirir, müharibəyə sürükləyir. Son vaxtlar şərti sərhəddə atəşkəsin tez-tez pozulması da bundan xəbər verir.

Onu da qeyd edək ki, Yunanıstan həm də Cənubi Qafqazda Qərbin planlarının icraçısıdır. Vətən müharibəsi zamanı Ermənistana kömək edib. Fransa ilə birlikdə Hayastanın silahlandırılmasının əsas təşviqatçılarındandır.

Onu da xatırladaq ki, Paris artıq İrəvana "Mistral" zenit raketləri, "Bastion" zirehli maşınları və uzaqmənzilli artilleriya göndərib. Almaniya Ermənistana qeyri-letal hərbi avadanlıqların tədarükünü elan edib ki, bu da gələcək silah təchizatının ört-basdır edilməsi üçün bir vasitə ola bilər.

Bu addımlar sübut edir ki, Aİ geosiyasi qarşıdurmada tərəf seçib və açıq şəkildə Ermənistanın hərbi ambisiyalarını dəstəkləyir. Özü də onlar bunu açıq və nümayişkəranə şəkildə edir, Ermənistanı növbəti müharibəyə hazırlayırlar. Kollektiv Qərb hələ də anlamır ki, Azərbaycan müstəqil siyasət yeridən dövlətdir və öz maraqlarını qorumaq gücündədir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Vilayət Eyvazov Bakıda sıra baxışı keçirib



**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov martın 19-da respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bakı şəhərində keçirilən sıra baxışında DİN-ə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 184 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 16 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Xarici işlər nazirinin telefon danışıqları




**Martın 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Böyük Britaniyanın xarici işlər, ittifaq və inkişaf məsələləri üzrə Dövlət katibi Devid Ləmmi arasında telefon danışığı baş tutub.**

Telefon danışığı zamanı iki ölkə arasında əməkdaşlıq məsələləri, mövcud regional vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında sülh prosesinin hazırkı durumu müzakirə olunub.

Britaniya naziri Novruz bayramı münasibətilə təbriklərini çatdırıb. İki ölkə arasında münasibətlərin daha da inkişaf edəcəyinə əminlik ifadə olunub.

Ceyhun Bayramov bölgədəki mövcud vəziyyət və sülh prosesi barədə məlumat verərək sülh sazişinin mətni üzrə danışıqların yekunlaşmasına baxmayaraq, sazişin imzalanması üçün Ermənistan konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarının aradan qaldırılması məqsədilə müvafiq düzəlişin edilməsinin vacib olduğunu vurğulayıb. Bununla yanaşı, ATƏT-in artıq aktual olmayan Minsk qrupu və digər aidiyyəti strukturlarının ləğvinin də vacibliyi diqqətə çatdırılıb.

*

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov ilə Bəhreyn Krallığının xarici işlər naziri Abdullətif bin Rəşid əl-Zayani arasında da telefon danışığı olub.**

Telefon danışığı zamanı iki ölkə arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Nazirlər qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə bir-birilərini ürəkdən təbrik edib, ən xoş arzularını çatdırıblar.

Azərbaycan–Bəhreyn əməkdaşlığının müxtəlif, o cümlədən iqtisadi, ticarət, enerji təhlükəsizliyi, mədəni istiqamətlər üzrə hazırkı durumu və perspektivləri, regional və beynəlxalq təşkilatlar, eləcə də BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq imkanları müzakirə olunub.

Azərbaycanın Bəhreynin "Manama Dialoqu" təşəbbüsündə fəal iştirakı, o cümlədən bu platformanın əhəmiyyəti xüsusi qeyd edilib.

*

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ilə Niderland Krallığının xarici işlər naziri Kasper Veldkamp arasında da telefon danışığı aparılıb.**

Telefon danışığı zamanı Azərbaycan–Niderland münasibətlərinin müxtəlif aspektləri, habelə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar müzakirə olunub.

Nazir Ceyhun Bayramov qarşı tərəfi bölgədə mövcud vəziyyət və reallıqlar, habelə Azərbaycan–Ermənistan normallaşma prosesi barədə ətraflı məlumatlandırıb. Azərbaycan və Ermənistan arasında sülh sazişinin mətni üzrə danışıqların yekunlaşmasına baxmayaraq, Ermənistanın konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarının mövcudluğunun, habelə Minsk qrupunun və ATƏT-in digər aidiyyəti strukturları ilə bağlı Ermənistan tərəfinin sərgilədiyi mövqenin maneə təşkil etdiyi, sazişin imzalanması üçün bu maneələrin aradan qaldırılmasının vacib olduğu vurğulanıb.

Nazir bununla yanaşı, Azərbaycana qarşı genişmiqyaslı cinayətlər törədilməsində ittiham olunan separatçı liderlərin və erməniəsilli şəxslərin məhkəmə prosesi barədə məlumat verərək antiterror tədbirlərindən sonra Azərbaycanın humanistlik nümayiş etdirərək 10 mindən artıq qanunsuz erməni silahlı birləşmələrinin nümayəndələrinin ölkəni tərk etməsinə icazə verildiyini bildirib. Həbs edilən şəxslərin isə insanlıq əleyhinə cinayətlərdə ittiham olunduğu qeyd edilib və guya bu həbslərin əsassız olduğu barədə Azərbaycan əleyhinə aparılan qarayaxma kampaniyasının heç bir əsasının olmadığı vurğulanıb.

*XQ*

# Qafqaz Müsəlmanları İdarəsində iftar məclisi



**Dünən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə öz iqamətgahında müqəddəs Ramazan ayı ilə əlaqədar iftar süfrəsi açıb.**

Məclisin əvvəlində "Qurani-Kərim"-dən ayələr oxunub.

Sonra Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə Ramazan ayının fəzilətlərindən danışaraq Azərbaycanda olan dini tolerantlığa diqqət çəkib, ölkəmizdə dini icmalara dövlət qayğısını yüksək qiymətləndirib. O bildirib ki, Azərbaycan dünyada dini və məzhəb ayrı-seçkiliyinə yol verilməyən nadir ölkələrdəndir. Bu, bizim həyat tərzimizdir, təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş, dövlət başçımız İlham Əliyevin uğurla davam etdirdiyi müdrik dövlətçilik siyasətinin, din–dövlət münasibətlərinin bəhrəsidir

A.Paşazadə ölkəmizin davamlı uğurlarından, dövlətçiliyimizin mənafeləri, xalqımızın rifahı naminə ürəkaçan əməllərdən, azad Qarabağda dini-mənəvi irsimizin dirçəldilməsindən bəhs edib. Şeyxülislam qeyd edib ki, birlik, həmrəylik və mehriban mühit, demək olar, heç bir yerdə yoxdur. O dua edib ki, Allah-Taala bu birliyimizi əlimizdən almasın.

Milli Məclis sədrinin müavini Əli Əhmədov ölkəmizdəki dövlət–din münasibətlərinin qarşılıqlı hörmət və dünyəvilik prinsipləri əsasında formalaşdığını, dövlətin dini inanclara tolerant yanaşdığını və cəmiyyətin müxtəlif konfessiyalar arasında harmoniyanın qorunmasına önəm verdiyini vurğulayıb.

Ölkəmizdəki dini konfessiyaların rəhbərləri çıxış edərək belə mübarək məqamda qardaşlıq süfrəsi ətrafında bir araya gəlmələrinin Azərbaycanın örnək multikultural həyat reallığı olduğunu söyləyiblər.

Sonda iftar süfrəsi açılıb.

*XQ*

# USAID-in çoxillik anti-Azərbaycan oyunları

**ABŞ II Dünya müharibəsindən sonra Avropa məkanında, ümumilikdə, dünya miqyasında öz hegemonluğunu təmin etmək üçün xüsusi mexanizmlərdən faydalanıb. Bu məqsədlə superdövlət "humanitar yardım göstərmək", "demokratik inkişafı dəstəkləmək" adı ilə çoxsaylı "donor" institutlar, "QHT" və "KİV" şəbəkələri formalaşdırıb.**



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

USAID, NED, Marşall fondu, İREX və digər "beynəlxalq donorlar" məhz bu proqramın icraçıları olaraq meydana çıxarılıb. Ayrı-ayrı ölkələrdə yüzlərlə "milli QHT-lər", "milli KİV-lər" məhz bu "donorlar" vasitəsilə maliyyələşdirilir. Onlar öz fəaliyyətlərini, istisnasız olaraq, Vaşinqtonla koordinasiya edir, okeanın o tayından gələn tapşırıqları qeyd-şərtsiz yerinə yetirirlər. ABŞ-ın hansı regionda maraqları təhlükəyə düşürsə, həmin "donorlar", peyk QHT/KİV-ləri fəallaşıb insidentlər yaradırlar. Bu qurumlar milli hökumətləri fakt qarşısında qoyaraq, güzəştlərə sövq etməyə çalışırlar.

Azərbaycan bu situasiya ilə total şəkildə ilk dəfə 2012-ci ildə – Avroviziya Mahnı Müsabiqəsi dövründə üzləşib. Ölkəmizin bu tədbirdən xeyir götürməsinin, dünyada yeni bir imiclə tanınmasının qarşısını almaq üçün o zaman USAID komandası hücuma keçib. "Azərbaycan üzrə beynəlxalq əməkdaşlıq qrupu" adlı platforma yaradıb. "Beynəlxalq donorlar" onların yedəyində olan QHT və KİV-ləri bu platformada cəmləyərək, fəaliyyətlərini koordinasiya edib. Ölkəmizə qarşı ən iyrənc formada təbliğatlar aparılıb.

2015-ci ildə – I Avropa Oyunları ərəfəsində də ölkəmiz bu şəbəkənin hədəfinə çevrilib. "İdman və insan haqları" adlı platforma formalaşdırılaraq, Azərbaycan əleyhinə fəaliyyət göstərən bütün "beynəlxalq donorlar"ın, "QHT" və "KİV"-lərin fəaliyyəti yönləndirilib. Azərbaycanda, guya, insan haqlarının pozulduğunu iddia edərək, beynəlxalq auditoriyaya müraciətlər ünvanlayıblar. İnsanların Bakıya gəlməsinə əngəl olmağa, yekunda qitə idman yarışmasının boykot edilməsinə çalışıblar.

Ölkəmiz əleyhinə daha bir mütəşəkkil kampaniya 2016-cı ildə – TANAP və TAP layihələrinin, Cənub Qaz Dəhlizinin reallaşdırılması zamanı aparılıb. Bəllidir ki, Azərbaycanın həmin layihələrin icrasına başlaması çoxlarını narahat etmişdi. Paradoksal haldır ki, dünyanın müxtəlif qütblərində yerləşən, fərqli güc mərkəzlərini təmsil edən həmin "narahat qruplar" Azərbaycanı Cənub Qaz Dəhlizi proqramından çəkindirmək üçün eyni şəbəkədən istifadə ediblər. Qeyd etdiyimiz donor/QHT/KİV şəbəkəsi Azərbaycanın Cənub Qaz Dəhlizini reallaşdırmasının qarşısını almaq üçün beynəlxalq kredit təşkilatlarına müraciət ünvanlayıblar. Azərbaycanın kredit almasını əngəlləmək üçün min bir oyun qurublar. Məsələ o qədər gərginləşib ki, Azərbaycan Mədən Sənayesində Şəffaflıq Təşkilatında üzvlükdən (MSŞT) imtina edib.

Həmin kampaniyada mərkəzi fiqur rolunda "Transparency İnternational" və OCCRP görünüb. Amma bu, vəziyyəti dəyişmir. "Transparency İnternational" (Tİ) təşkilatının layihələrinin maliyyələşməsinə çəkilən xərclər müxtəlif fondlardan toplanır. Təşkilatın veb səhifəsində "20 milyon dollarlıq büdcənin gəlir mənbələri" barədə bilgi yerləşdirib.

Buradan bəlli olur ki, Tİ-nin illik büdcəsinin 24 faizi (bütün institutsional xərcləri) ABŞ-dakı fondlardan formalaşır.

2020-ci ildə – II Qarabağ müharibəsi dönəmində, 2023-cü ilin 19 sentyabr antiterror əməliyyatları zamanında da ölkəmizə qarşı qarayaxma kampaniyaları aparan QHT və KİV-lər məhz bu şəbəkənin üzvləri idilər. Onlar haqq işi uğrunda mübarizə aparan, işğal altındakı torpaqlarını azad etməyə çalışan Azərbaycanı ən cəfəng arqumentlərlə qınayırdılar. "Qarabağda etnik təmizləmə aparmaqda", "Ermənistan ərazisini işğal etməyə hazırlaşmaqda" ittiham edirdilər.

Çox aydın şəkildə görünürdü ki, ABŞ Dövlət Departamenti və ya Konqres derektivlər yaradır, bu drektivlər USAID, NED və digər "donorlar" vasitəsilə QHT/KİV şəbəkələrinə ötürülüb, beləliklə, qarayaxma kampaniyaları intişar tapıb. USAID-in direktoru Samanta Pauerin Ruben Vardanyanla dostluq münasibətində olması, ermənipərəst mövqe sərgiləməsi işi daha da tündləşdirib. USAID şəbəkəsi tərəfindən gerçəkləşdirilən kampaniyaların daha da şiddətlənməsini təmin edib.

ABŞ Prezidenti Donald Tramp martın 14-də 7 federal qurumun ləğv edilməsi barədə fərman imzalayıb. Onların sırasında Qlobal Media Agentliyi (USAGM) də yer alıb. USAGM, əsasən, ABŞ-ın xaricə yönəlik media layihələrini maliyyələşdirib. Beynəlxalq auditoriya üçün məlumatlar yayan "Azad Avropa" ("Azadlıq"), "Amerikanın səsi", "Azad Asiya" radiolarının fəaliyyəti Qlobal Media Agentliyinin ayırdığı vəsaitlə təmin edilib.




USAGM-ın bağlanmasından bir həftə öncə – martın 9-da isə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin ( USAID) icra etdiyi proqramların 83 faizinin rəsmən ləğv edilməsinə qərar verilib. Həmin layihələr USAID tərəfindən maliyyələşdirilən və 120-yə yaxın ölkədə icra olunan 5,2 min qrant müqaviləsini, on milyardlarla dollar məbləğində vəsaiti əhatə edir.

Paradoksal haldır ki, hər 2 qurum – həm USAGM, həm də USAID indiyədək ABŞ xarici siyasətinin, bu ölkənin ekspansiya proqramının əsas icraçıları olublar. Donald Tramp ABŞ-ın xarici ekspansiya siyasətinin əsas elementlərindən olan USAGM və USAID-i nə üçün hədəf alıb? ABŞ-ın, ümumilikdə, xarici siyasət kursu dəyişirmi, yoxsa Tramp komandası ABŞ xarici siyasətini təbliğ etmək üçün yeni, daha effektiv mexanizmlər tapıb?

Qlobal rəy mərkəzlərinin son 2 ay müddətində apardıqları müzakirələrə əsasən, bu suallara hələ ki, aydın cavab verilməyib. Hər halda Prezident Donald Tramp 2025-ci il yanvar ayının 24-də ABŞ-ın xaricə yönəlik xərclərinin araşdırılıb qiymətləndirilməsi üçün sərəncam verib. Sərəncama uyğun olaraq, qarşıdakı 90 gün ərzində ABŞ-ın xaricə yönəlik bütün proqramları üzərində təhqiqatlar aparılacaq. Bundan sonra daha detallı bilgilər ortaya çıxacaq.

# Ordumuzun mövqeləri Basarkeçər istiqamətindən atəşə tutulub

Martın 19-u saat 14:15 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Günəşli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

# Brest sülhündən sonra Mart qırğınları qaçılmaz idi



**1918-ci ilin martın sonu, aprelin əvvəllərində Bakıda və Azərbaycanın digər yerlərində baş verən soyqırımlarının növbəti ildönümü yaxınlaşır. Həmin vaxt Bakı Soveti və daşnak erməni silahlı dəstələri azərbaycanlıları kütləvi şəkildə vəhşicəsinə qətlə yetiriblər. Rəsmi mənbələrə əsasən, bu soyqırımı nəticəsində on minlərlə azərbaycanlı amansızcasına öldürülüb, on minlərlə insan itkin düşüb.**

Qafqaz Tarixi Mərkəzinin direktoru Rizvan Hüseynov XQ-yə müsahibəsində həmin hadisələr barədə danışıb.

**– Rizvan müəllim, Mart qırğınlarına digər rakursdan baxmağa çağırırsınız. Digər rakurs nədən ibarətdir?**

– 1918-ci il martın sonu, aprelin əvvəlində baş vermiş hadisələrin mahiyyətini anlamaq üçün həmin dövrdə dünyada və regional siyasətdə baş verənləri dərindən öyrənməyə ehtiyac var. Əfsuslar olsun ki, müstəqillik dövründə Mart soyqırımı hadisələri yetərincə öyrənilməyib və geniş auditoriyaya əhatəli şəkildə çatdırılmayıb.

Ümumi olaraq bildirilir ki, silahlı erməni daşnak dəstələri və Stepan Şaumyan başda olmaqla bolşeviklər Bakıda və Bakı quberniyasının digər yaşayış məntəqələrində soyqırımları törədiblər. Ancaq əsas səbəb, iştirakçı qüvvələr və tərəflər çox vaxt dərindən təhlil edilmir. Zənnimizə, biz bu məsələyə daha geniş spektrdə və dərindən yanaşmalıyıq. Əsas diqqəti buna yönəltməliyik ki, 1918-ci il Birinci Dünya müharibəsinin sonuncu ili idi. Bundan əvvəl – 1917-ci ilin fevralında Rusiyada burjua-demokratik inqilabı baş verdi. Nəticədə çar mütləqiyyəti devrildi. Rusiyada respublika quruluşu bərqərar oldu. Həmin ilin oktyabrında bolşeviklər Petroqradda silahlı çevriliş edərək hakimiyyəti ələ keçirdilər.

Birinci Dünya müharibəsində Sovet Rusiyasının iştirakı ilə bağlı Leninin siyasəti bundan ibarət idi ki, onlar çar Rusiyasından fərqli olaraq, güzəştə getmək bahasına olsa da, mütləq müharibədən çıxmalıdırlar. Yeri gəlmişkən, qeyd edim ki, hətta, o dövrdə Rusiyada Leninin bu siyasəti ilə bağlı çox böyük narazılıq var idi. Bunun satqınlıq olduğu bildirilirdi.

Birinci Dünya müharibəsi vaxtı Rusiyaya qarşı döyüşən əsas ölkələr Almaniya və Osmanlı imperiyaları idi. Lenin bu düşüncədə idi ki, müharibə dayanmalı, sülh imzalanmalıdır. Bundan sonra bolşeviklər daxili problemləri həll etməlidirlər. Yəni daxildəki düşmənlərini, bolşevik siyasətinə qarşı çıxanları terror yolu ilə aradan götürməlidirlər. Amma bunun baş verməsi üçün Sovet Rusiyası müharibədən çıxmalıdır. 1917-ci ilin sonu – 1918-ci ilin əvvəllərində Qafqaz cəbhəsində Rusiya üçün ağır dönəm başladı. Müharibə zamanı Qafqaz cəbhəsi Şərq cəbhəsindən sonra ən mühümü idi. Bolşeviklər bu zaman bəzi manevrlər etdilər. Onlar yeni milli siyasi xətt hazırladılar. Bu xəttə görə, çar Rusiyası daxilindəki milli azlıqlar bolşevikləri dəstəkləyərlərsə, milli muxtariyyat əldə edə bilərlər.

1918-ci il martın 3-də Brest-Litovskda Sovet Rusiyası ilə "Dördlər ittifaqı" (Almaniya, Osmanlı, Avstriya-Macarıstan imperiyaları və Bolqarıstan çarlığı) arasında separat sülh müqaviləsi imzalandı. Rus tarixçilərinin də qeyd etdikləri kimi, bu sülh müqaviləsi Sovet Rusiyası üçün rüsvayçılıq və faktiki olaraq, təslimolma aktı idi. Çünki Rusiya ümumi ərazisinin 780 min kvadratkilometrini itirdi. Bu ərazidə Rusiya imperiyası əhalisinin 1/3-i, yaxud 56 milyon nəfər yaşayırdı. Əsasən Rusiyanın Avropa hissəsi – Baltikyanı, Belorusiyanın bir hissəsi Almaniyaya verildi. Ukrayna və Finlandiya müstəqil dövlətlər oldular.

Brest sülhü Osmanlı dövlətinin də maraqlarını təmin etdi. Rusiya Şərq cəbhəsində Almaniyaya güzəştə getdiyi kimi, Qafqaz cəbhəsində də Osmanlı dövlətinə güzəştə getməli oldu. 1877-1878-ci illərdəki rus-türk müharibəsi nəticəsində Rusiyanın ilhaq etdiyi Şərqi Anadolu əraziləri – Qars və Batum vilayətləri yenidən Osmanlı dövlətinə qaytarıldı. Amma bolşeviklər bu torpaqları qaytarmaqla yanaşı, hiyləgər bir siyasət yürütməyə başladılar. Həmin ərazilərdə yaşayan erməniləri tam silahlandırdılar. Yəni bolşeviklər, guya, Osmanlı torpaqlarından çıxırdılar, amma çıxarkən gələcək qırğınlar üçün silahlı erməni dəstələri hazırlayırdılar. Brest sülhündən az sonra böyük bir ərazidə – Anadoluda, Cənubi Qafqazda, yəni hazırkı Türkiyə Respublikasının şərqində, indiki Azərbaycan Respublikasının, Cənubi Azərbaycanın, Ermənistanın və Gürcüstan ərazisində dəhşətli hadisələr baş verirdi. Təqribi hesablamalara görə, o dövrdə 500 min müsəlman öldürülüb, qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Təxminən 25-30 min nəfərlik erməni və bolşevik dəstələri bu ərazilərdə müsəlmanları qıraraq orada gələcəkdə özlərinə uyğun olan milli muxtariyyət yaratmağa çalışırdılar. Bu milli muxtariyyətin rəhbərləri də ermənilər olmalı idi.



**– Qafqaz cəbhəsindən çıxan erməni və bolşevik dəstələrinin istiqaməti hara idi?**

– Onların əksəriyyəti Bakıya doğru hərəkət etməyə başladılar. Çünki həmin dövrdə Bakıda hakimiyyət bolşeviklərin – Bakı Xalq Komissarları Sovetinin əlinə keçmişdi. Şaumyan özünü bolşevik kimi göstərsə də, o da daşnaklardan geri qalmırdı. Şaumyan Lenin tərəfindən bütün Qafqaza komissar təyin edilmişdi. Onun digər vəzifələri də var idi. O, vəzifələrdən sui-istifadə edərək Qafqaz cəbhəsindən çıxan on minlərlə əli silahlıların, ermənilərin və bolşeviklərin Bakıya gəlməsini əmr etdi. Çünki Bakı Qafqazın ən böyük iqtisadi-sənaye mərkəzi, neft şəhəri idi. Bakıya nəzarət edən bütün Qafqaza nəzarət edəcəkdi. Bir qədər əvvəl qeyd etdiyimiz kimi, bolşeviklərin hazırladıqları yeni milli siyasi xəttə görə, Çar Rusiyası daxilindəki milli azlıqlar bolşevikləri dəstəkləyərdilərsə, milli muxtariyyat əldə edə bilərdilər. Ancaq Şaumyan və onun kimi bolşevik cildinə girmiş daşnaklar Azərbaycan ərazisində azərbaycanlıların milli muxtariyyətinin, yaxud dövlətinin olmasını qətiyyən istəmirdilər. Ona görə də Brest sülhü imzalanandan sonra mart qırğınlarının baş verməsi qaçılmaz idi. Elə müqavilənin imzalanmasından cəmi 27 gün sonra Bakıda ilk qırğınlar başladı.

**– Belə amansız qırğınlarda məqsəd nə idi?**

– Şaumyan Bakı da daxil olmaqla Xəzər boyunca – Dağıstandan İranadək yaşayan bütün müsəlman xalqlarını, hətta yəhudiləri qırmağa çalışırdı. Məqsəd burada Bakı paytaxt olmaqla erməni milli muxtariyyəti yaratmaq və sonra isə onu bolşevik Rusiyasına birləşdirmək idi. Plan bundan ibarət idi. Bu planın qarşısını alan Müsavat Partiyası başda olmaqla milli qüvvələr oldular. 1918-ci ilin martında Şaumyan yerli müsəlman əhalini özünə qarşı qaldırmaq üçün əlindən gələn bütün təxribatçı hərəkətləri həyata keçirdi. O, yaxşı bilirdi ki, müsəlman əhalidə faktiki olaraq, silah-sursat yoxdur. Amma onlara qarşı dayanan başdan-ayağa silahlanmış 20-25 min nəfərlik erməni-bolşevik silahlı dəstələri var idi. Hətta onlar hərbi gəmilərə, aeroplanlara, o dövrdə mövcud olan bütün müasir texnikaya malik idilər. Qafqaz cəbhəsindən gələn silah-sursat və döyüşçülərin hesabına Bakıda və şəhər ətrafında belə böyük ordu toplanmışdı. 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında təkcə Bakıda deyil, Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Göyçay, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və "Daşnaksütyun"dan olan erməni silahlı dəstələri böyük qırğınlar törətdilər.

Brest sülhünə və bundan sonra Batumda Osmanlı dövlətinin təkidi ilə keçirilən sülh konfransına görə, azərbaycanlılar, gürcülər və ermənilər üçün milli dövlətlər, yaxud muxtariyyətlər yaradılmalı idi. Şaumyan bunu çox yaxşı bilirdi. Ona görə də əlindən gələni edirdi ki, Bakıda – necə deyərlər, Azərbaycanın döyünən ürəyində azərbaycanlıların milli dövləti olmasın. İstəyirdi ki, ermənilərin idarə edəcəyi bolşevik dövləti olsun. Bütün bu hadisələri nəzərə alaraq Şaumyan martın sonu, aprelin əvvəlində bu soyqırımları törətdi. Amma istədiyinə nail ola bilmədi. 1918-ci il mayın 26-da Gürcüstan, mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildi. Daha sonra erməni dövləti (Ararat Respublikası) də yaradıldı.

Ermənilər həm bolşevik, həm daşnak cildində bütün Azərbaycan ərazisində erməni dövlətçiliyinin yaradılmasına çalışırdılar. Sonrakı plan isə bu erməni dövlət qurumlarını bir dövlət altında birləşdirmək idi.

Ancaq tarix bütün bu erməni layihələrinin iflasa uğradığını göstərdi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından az sonra – iyunun 4-də Osmanlı dövləti ilə anlaşma imzalandı. Həmin anlaşmanın dördüncü bəndinə əsasən ordu quruculuğuna başlanıldı. Sonra Qafqaz İslam Ordusu yarandı. Ordunun şəxsi heyətini Osmanlı dövlətinin zabitləri və onun tərkibinə qoşulan azərbaycanlı əsgər və zabitlər təşkil edirdi. Onların döyüş yolu 1918-ci ilin iyul ayından başladı. Qafqaz İslam Ordusu döyüşərək Gəncədən ta Bakıyadək bütün ərazilərimizi erməni daşnak birliklərindən azad etdi. Ən böyük döyüş isə Bakı uğrunda oldu və 1918-ci ili sentyabrında paytaxtımız azadlığına qovuşdu. Bununla da biz qurtulduq. Yəni Qafqaz İslam Ordusu gəlməsəydi, Azərbaycanın əksər əhalisi faktiki olaraq soyqırımına uğrayacaq, qaçqın və məcburi köçkünə çevriləcək, müasir Azərbaycan ərazisində dövlətçiliyimiz intişar tapmayacaqdı.

*Səxavət HƏMİD*
*XQ*

**Yaddaş insan ağlı kəsəndən onun ayrılmaz hissəsidir: yaşam yolunu canlı kamera kimi çəkir. Bu fərdi "çəkiliş"dən toplumun, ulusun, ölkənin tarixi yaranır.**

# Tarixi yaddaşımız milli varlığımızın aynasıdır

Yazıçı-publisist Orxan Fikrətoğlu bu yaxınlarda "Ədəbiyyat" qəzetində bu mövzudakı çıxışında bildirmişdi: "Qlobal siyasi düzənin yaddaşı yoxdur". Onun yazdığından belə çıxırdı ki, son dönəmlərdə dünya təbliğatında qloballaşmaya yön verənlər Adəm törəmələrinin yaddaşını silməyə çalışırlar. Yəni törəmizin min illərdir yaratdığı və artıq bitkin hala gəlmiş yaşam tərzini, kültürünü, dədə-babaların dilini, bilgisini, bir sözlə, ötənlərdən nəyimiz varsa yad-yabançılar öz qazancları xatirinə "qloballaşma" adı altında öz qazanlarında qaynadıb həzm etmək istəyirlər.



Amma onların yön verməyə çalışdıqları bu qatqılı qloballaşmanın matrisi özlərinin quraması olacaqdır. "Qlobalçılar" dünyadakı səbatsız millətlərin, ulusların, önəmsiz toplumların, tayfaların beyinlərini yuyacaq, təmizlədikləri ağ səhifələrə istədiklərini yazacaqlar. Beləliklə, öz keçmişindən, kimliyindən, dilindən, milli gələnəyindən qoparılmış insan toplumlarını istədikləri səmtə asanlıqla yönəldəcəklər.

Bu sətirləri yazarkən ötən əsrin 20–30-cu illərində Rusiya şovinistlərinin milli dəyərlərimizi yox edib, "proletar mədəniyyəti"adı altında "kommunizm" ideologiyası ilə başları doldurmaq cəhdlərini xatırladım. O zaman bu olumsuz ideyaların arxasında asılı xalqları yox etmək kimi çirkin siyasət dururdu. Bu sırada xalqımız da hədsiz qurbanlar versə də, bu ouyunlara getmədi, milli varlığını, onun zehni əsası olan tarixi yaddaşını qoruyub saxladı.

O zaman böyük şəhərlərimiz bir yana, hətta kəndlərimizə də işləmək adı ilə göndərilmiş rus qızlarını milli adət-ənənələrimiz qəbul etmədi. Xalqımız assimilyasiya siyasətinə qarşı dirəşdi. İndi isə qloballaşma şüarı arxasında gizlənən məlum güclər öz yadlaşdırma siyasətlərini isə keçirməyə törəsiz, səbatsız, tarixsiz qurama toplumlar axtarırlar.

Bəs niyə bizlərə çox girişirlər? Birincisi, Qafqaz ölkələrinə, Türküstan dövlətlərinə yeni səlib yürüşlərində yol Azərbaycandan keçir. Dost və qardaş coğrafiyaların elləri, adamları üçün Azərbaycan bir örnəkdir. İkincisi, bizlər gizli-aşkar gedən bu davanın ön cəbhəsindəyik. Bizi yenmədən irəliləmək olumsuzdur.

Müstəmləkələrini, xammal mənbələrini itirən Qərb səlibçiləri son onilliklərdə Rusiyanın zəifləməsindən istifadə edərək Qafqaz və Xəzər regionuna, oradan da Mərkəzi Asiyaya çıxmaq üçün yollar arayırlar. Hədəflədikləri bu marşrutun üstündəki ölkələrin insan və maddi resursları güclüdür. Qədim tarixə, kültürə, dilə malik Azərbaycanın qan yaddaşının ayaqda saxladığı döyüşkən əhalisi var. Onu yenmək üçün ilk öncə qan yaddaşını məhv etmək gərəkdir. Bunun üçün isə ən əlverişli üsul səmtinin dəyişdirilməsi gərəkən "qloballaşma" ideyasıdır. Yaxşı bilirlər ki, öz milli dəyərlərini, dilini, tarixini, mədəniyyətini unudan millətin əsgərində Anayurd anlayışı olmur.

Mən qloballaşmanın tam əleyhinə deyiləm – xalqların yaxınlaşması, sivil dəyərlərin paylaşdırılıb yayılması təbii prosesdir. Ta əski çağlardan Adəm törəmə-törükləri yaşamın bütün sahələrində qaynayıb-qarışıblar. İnsanlıq seçim edib, yaxşını götürüb, bütövləşib. Amma proseslər daha çox doğal axarla gedib. Dini, siyasi, hərbi güclər ondan bugünkü kimi basqı ilə faydalanmayıb. Mətbəxdən tutmuş geyim mədəniyyətində, tikintidə, texnologiyada yeniliklər mənimsənilib, yerli tələbata uyğun özününküləşdirilib. Zəiflər, kökü olmayan qurama toplumlar isə güclülərin içində əriyiblər.

Qloballaşmanın indiki gedişində ona qarşı çıxmaq ağılsızlıqdır. Zira, qloballaşma günümüzdə daha çox iqtisadi, siyasi, texnoloji və mədəni sahələrdə gedir. Bizim üçün ən həssas nöqtə milli-mədəni dəyərlər çevrəsidir. Biz xalqımızın, ulusumuzun özəlliklərini, dilimizi, çox əskilərdən gələrək formalaşan kültürümüzü, törəmizi, mənliyimizi saxlamaqla öz axarımızla getməliyik. Ulu dədələrimiz şumerlərdən üzü bəri müdriklərimiz "iti axan çayın əksinə üzməyi" ağılsızlıq saymışlar.

İgid oğullarımızın Vətən uğrunda tökdüyü qanlar, sərkərdələrimizin can qoyduqları müstəqillik dönəmində dünyada ad qazanmış Bakımızın küçələrində əcnəbi dillərdə yazılmış dükan, idarə adları olan lövhələri görəndə sinirlərimiz gərilir. Rusiya işğalı zamanı hər yerdə qurama rus dilinin işlənməsi məcburi idi. Bəs indi? Müstəqil dövlət olandan sonra necə? Öz dükanının, yeməkxanasının, şirkətinin adlarını əcnəbi dillərdə yazıb divara yapışdıran, kimsənin məcbur etmədiyi o adamlar kimlərdir? Yaddaşı zədələnmiş, öz dönüklərimizdir. Onlar dünən bir havaya uyğunlaşmışdılar, bu gün başqa axında üzməyə meyilli tör-töküntülərdir. Bunun bir nədəni anlamsızlıqdırsa, başqa səbəbi özünü bu xalqdan saymamaqdır.

200 ildir ki, Qafqazda yeni səlib davası aparan güclərin qloballaşmadan öz xeyirlərinə istifadə etmələri daim izlənilir. Onların gizli tələlərinə düşməməliyik. Nədir bu tələlər? – Cinsi azlıqların hüquqlarının tanınması, gender bərabərliyi, yalançı demokratiya, uşaq hüquqları və s. adlar altında yeni nəsillərin min illər formalaşmış düşüncələrini dəyişdirmək kimi aldadıcı şüarlar. Son 25 ildə nə qədər gənc oğlan və qız cinslərini dəyişdiriblər, nə qədər valideynin ürəyinə sağalmaz yara vurulub...

Çox təəssüf ki, övladlarının bu hərəkətlərinə qarşı çıxan, onların psixoloji durumunu müalicə etdirmək istəyən valideynlər müxtəlif basqıya məruz qalırlar. Onlar Avropadan maaş alan vəkillərin insan hüququnu pozma iddiaları ilə üzləşirlər. Xalqlara əxlaq dərsi verən Qərb qurumları belə əxlaqsızlıqları "sivil dəyərlər" adı ilə işə keçirməyə çalışır, qlobal mənəviyyatsızlıqla yeni təsir dairələri əldə etməyə çalışırlar.

2001-ci ildə Azərbaycanın Avropa Şurasına qəbul edilməsi iclasını müşahidə etmək üçün Strasburqa yollanan jurnalistlərin arasında mən də var idim. AŞ-nin məşhur binasında 2-ci qata qalxanda ilk gördüyümüz sevgililər kimi bir-birinə sarılmış 2 gənc oğlanın böyük şəkli oldu. İclaslarda isə Avropa parlamentariləri qızğınlıqla cinsi azlıqların hüquqlarını müdafiə edirdilər.

Bizim günlərdə başda Fransa olmaqla bir sıra Avropa ölkələrində cinsi azlıqlara yaşıl işıq yandırılır. Bu yaxınlaradək Fransa hökumətinə Makronun təyinatı ilə başçılıq etmiş homoseksual baş nazir rəsmi izdivacda olduğu kişisini xarici işlər naziri vəzifəsinə gətirmişdi. Avropanın aparıcı dövləti Fransa dünya ölkələrində də onu dəstəkləyəcək cinsi pozuqlardan ibarət 5-ci kolon yaratmaq istəyir. Bunun üçün isə yeniyetmə yaşından gənclərin beynini yumağa çalışırlar.

Əvvəldə xatırlatdığım yazarımız qloballaşmadan narahatçılığını belə ifadə etmişdi: "Ruhsal sərhədlərimiz bu gün basqı altındadır. Biz özümüzü bu saxta beyin axınından qoruya bilirikmi? Bunun üçün təşkilatlanmışıqmı?" deyən fikirləri ilə necə razılaşmayasan? Bəli, biz daim ayıq-sayıq olmalıyıq.

Yazımı bir neçə il öncə Quzey Afrikanın qədim Mərakeş şəhərində qatıldığım simpoziumda çıxış etmiş elm adamının sözləri ilə yekunlaşdırmaq istəyirəm: "Bizim dəyərlərimizə qarşı aparılan təbliğat artıq evlərimizə girmişdir". Həmin tanınmış şeyx öz problemlərindən, internet vasitəsilə ərəb ölkələrində gənclər arasında aparılan təbliğatdan şikayətlənirdi.

Doğrudan da, biz ruhsal sərhədlərimizi aşıb evimizin içinə girmiş viruslarla üz-üzə qalmışıq. Bu virusları yox etmək isə bizim özümüzdən asılıdır. Uşaqları, gəncləri milli ruhda yetişdirmək, özümüzü, dəyərlərimizi onlara tanıdıb sevdirmək tək qurtuluş yoludur. Bu yolda canlı tariximiz olan milli yaddaşımıza tapınmaqla əbədi varlığımızı yaşatmalıyıq.

*Fazil GÜNEY,*
*yazıçı-publisist, Əməkdar jurnalist,*
*İƏT Dövlətləri Jurnalistləri*
*Assosiasiyasının sədri*

## Qar uçqununa düşən hərbçilərin axtarışı davam edir

**Gədəbəy rayonu ərazisində yerləşən xidmət yerindən qayıdarkən Azərbaycan Ordusunun müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları – əsgər Həmidov Ruslan Rüstəm oğlu və əsgər İmanov Əli Tariyel oğlu dumanlı hava şəraitində qar uçqununa düşüblər.**

Bu barədə Müdafiə Nazirliyi və Fövqəladə Hallar Nazirliyi birgə məlumat yayıb.

Bildirilib ki, hərbi qulluqçularımızın tapılması məqsədilə yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin əlverişsiz olmasına baxmayaraq, dərhal zəruri axtarış tədbirlərinə başlanılıb. Tədbirlərə Ordumuzun müvafiq bölmələrinin, Fövqəladə Hallar Nazirliyinin və Avtomobil Yolları Dövlət Agentliyinin podratçı şirkətinin qüvvə, vasitə və xüsusi texnikaları cəlb edilib.

*XQ*

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası

**Mündəricat**


**1 Qısa xülasə**
**2 Qlobal trendlər**
**3 Mövcud vəziyyətin təhlili**
**4 Hədəf göstəriciləri**
**5. Strategiyanın məqsədləri**
**6 Strategiyanın prioritet istiqamətləri**
**7 Maliyyələşdirmə mexanizmləri**
**8. Strategiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planı**
**9 Akronimlər**


## 1. Qısa xülasə

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ölkəmizin rəqəmsal iqtisadiyyata keçidinin sürətləndirilməsi, bunun üçün əlverişli infrastrukturun yaradılması və 4-cü sənaye inqilabı texnologiyalarının tətbiqi imkanlarının tədqiq olunması tədbirləri müəyyənləşdirilmişdir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası"nda informasiya təhlükəsizliyi üzrə yarana biləcək təhdidlərin və risklərin əvvəlcədən müəyyən edilməsi, eləcə də onlara qarşı görülməli tədbirlərin proqnozlaşdırılması məqsədilə süni intellekt əsaslı həllərin işlənib hazırlanması və tətbiqinin təşkil edilməsi nəzərdə tutulur.

Qeyd olunanlar baxımından süni intellekt sistemlərinin tətbiqi üzrə əlverişli infrastrukturun yaradılması, rəqəmsal xidmət sahələrinin müəyyən edilməsi və inkişafı xüsusi strateji əhəmiyyətə malikdir.

Son zamanlar dünya miqyasında süni intellekt sistemlərinin müxtəlif sahələrdə tətbiqi fiziki və hüquqi şəxslərə sosial-iqtisadi üstünlüklər qazandırmışdır. Buna görə də bir çox dövlətlər süni intellekt sahəsi üzrə ayrıca strategiyalar qəbul etmişlər və onların icrası həyata keçirilməkdədir.

Digər dövlətlərdə olduğu kimi, Azərbaycanda da süni intellekt texnologiyaları ölkəmizin iqtisadi və sosial inkişafında və qlobal rəqabət mühitində üstünlüklər əldə etməsində mühüm rol oynaya bilər. Odur ki, bu sahədə sistemli yanaşmaya ehtiyac vardır. Süni intellektin dövlət idarəçiliyi, iqtisadi, sosial, təhsil, səhiyyə, müdafiə, təhlükəsizlik və digər sahələrə ciddi dəyişikliklər gətirəcəyi, eləcə də bununla bağlı yaranacaq çağırışlar və təhdidlər nəzərə alınaraq, süni intellekt üzrə milli strategiyanın hazırlanması zərurəti yaranmışdır.

Bu məqsədlə hazırlanmış "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" (bundan sonra – Strategiya), ilk növbədə, ölkədə süni intellekt üzrə mövcud vəziyyəti təhlil edir, daha sonra əldə olunan nəticələrə uyğun olaraq və qlobal trendlərə əsaslanaraq müəyyənləşdirilən prioritet istiqamətlər və tədbirlər planı vasitəsilə sözügedən sahədə strateji məqsədlərə və göstəricilərə nail olmağı hədəfləyir. Strategiyada süni intellekt ekosisteminin formalaşmasını və inkişafını təmin etmək üçün dövlət və özəl sektor arasında əməkdaşlıq, akademik və elmi tədqiqatların gücləndirilməsi, startap və innovasiya mühitinin dəstəklənməsi kimi məsələlərə xüsusi diqqət yetirilir.

2025–2028-ci illər ərzində həyata keçiriləcək tədbirlər çərçivəsində ilkin mərhələdə süni intellekt üzrə idarəetmənin təkmilləşdirilməsi, süni intellekt siyasətinin formalaşdırılması, məsul dövlət orqanlarının (qurumlarının) müəyyən edilməsi və dövlət–özəl sektor əməkdaşlığının genişləndirilməsi nəzərdə tutulur. Bu məqsədlə, süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadəni təmin etmək üçün normativ hüquqi baza hazırlanacaq, insan hüquqlarına və məlumatların məxfiliyinə xüsusi diqqət yetiriləcəkdir.

Süni intellektin effektiv inkişafı məqsədilə yüksəksəviyyəli hesablama infrastrukturunun qurulması və süni intellekt modellərinin sürətli işlənməsi üçün bulud əsaslı resursların artırılması planlaşdırılır. Eyni zamanda, açıq mənbəli süni intellekt kitabxanalarının yaradılması və Azərbaycan dilində süni intellekt həllərinin inkişaf etdirilməsi bu sahədə mühüm irəliləyişlərə yol açacaqdır.

Kadr hazırlığı və bacarıqların inkişafı istiqamətində isə süni intellekt sahəsində ixtisaslaşmış mütəxəssislərin hazırlanması üçün təlim və elmi proqramların genişləndirilməsi, ali təhsil müəssisələrində süni intellekt üzrə yeni tədris proqramlarının hazırlanması nəzərdə tutulur. Tədqiqatçılar üçün süni intellekt üzrə xüsusi fondların yaradılması və beynəlxalq institutlarla əməkdaşlığın genişləndirilməsi də bu sahədə əsas hədəflərdən biridir. Bundan əlavə, dövlət qulluqçuları və rəhbər şəxslər üçün süni intellekt və məlumatların idarə edilməsi üzrə təlimlər keçirilməsi süni intellektin dövlət idarəçiliyində səmərəli tətbiqini təmin edəcəkdir.

Süni intellekt ekosisteminin gücləndirilməsi, süni intellektin tətbiqini genişləndirmək üçün pilot layihələrin icrası və nəticədə biznesin inkişaf etdirilməsi Strategiyanın əsas istiqamətlərindən biri olacaqdır. Bunun üçün startap və innovasiya ekosisteminin dəstəklənməsi, süni intellekt sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri və maliyyə dəstəyi verilməsi planlaşdırılır. Həmçinin yerli və beynəlxalq investorların süni intellekt texnologiyalarına yönəlməsini təşviq etmək məqsədilə yeni mexanizmlər hazırlanacaqdır.

Eyni zamanda, süni intellekt üzrə nəzəri və praktiki tədqiqatların təşviqi üçün xüsusi proqramlar həyata keçiriləcəkdir. Süni intellekt üzrə elmi tədqiqat institutlarının yaradılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və süni intellekt texnologiyalarından kibertəhlükəsizlik sahəsində istifadə nəzərdə tutulur.

Strategiya çərçivəsində maarifləndirmə, həmçinin süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadənin təmin olunması istiqamətində də tədbirlər həyata keçiriləcəkdir. İctimaiyyətin süni intellekt barədə məlumatlandırılması, o cümlədən süni intellektin potensialı və riskləri haqqında təşviqat işinin təşkili, habelə süni intellektlə bağlı etik prinsiplərin qorunması əsas prioritetlərdən biri olacaqdır. Məlumatların məxfiliyinin və fərdi məlumatların qorunması üçün normativ hüquqi bazanın gücləndirilməsi süni intellektdən təhlükəsiz istifadəyə şərait yaradacaqdır.

Strategiyanın icrası nəticəsində ölkədə süni intellektin inkişafı və tətbiqi üzrə daha sistemli yanaşma formalaşdırılacaq, innovasiyalar və texnoloji yeniliklərin tətbiqi üçün əlverişli mühit yaradılacaqdır.

## 2. Qlobal trendlər

Kanada dünyada süni intellekt üzrə strategiyanı ilk hazırlayan dövlətlərdən biri olaraq, "Pan-Canadian AI Strategy"ni 2017-ci ildə təqdim etmişdir. Həmin strategiyanın əsas məqsədi Kanadanın mövqeyini qlobal süni intellekt lideri olaraq möhkəmləndirmək, bu sahədə innovasiyaları artırmaq və süni intellektin cəmiyyətə müsbət təsirlərini təşviq etməkdir. Eyni zamanda, strategiya süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadəni, müxtəlifliyi və inklüzivliyi artırmağa və texnologiyanın tətbiqinin cəmiyyət üçün faydalı olmasının təmin edilməsinə yönəlmişdir.

Amerika Birləşmiş Ştatları "American AI Initiative" strategiyası vasitəsilə müvafiq sahədə tədqiqat və innovasiyaları maliyyələşdirir.

Çin "Next Generation AI Development Plan" çərçivəsində qlobal liderliyi hədəfləyir. "AI City" kimi layihələr vasitəsilə şəhərlərin idarə olunmasında süni intellekt texnologiyalarından istifadə edilir. Ölkə süni intellekt sahəsində patent liderliyini qoruyaraq, qlobal texnologiyalar bazarında önəmli mövqedədir.

"Avropa Süni İntellekt Strategiyası"nda süni intellektin tətbiqi zamanı etik prinsiplər və sosial dəyərlər ön plana çıxarılır. Bu sahədə Avropa İttifaqı kiçik sahibkarlara maliyyə dəstəyi və tədqiqat proqramlarına ciddi investisiyalar da ayırır. Eyni zamanda, Yaponiya "Cəmiyyət 5.0" konsepsiyası çərçivəsində texnologiyanın insan rifahına xidmət etməsini prioritet hesab edir və orada sosial problemlərin həllində texnologiyadan istifadə digər ölkələrin strategiyalarından fərqlənir.

Nəzərə alınmalıdır ki, yüksək effektivliyə malik olsa da, süni intellekt üçün həm qabiliyyət, həm də funksionallıq baxımından bir sıra həlli vacib məsələlər vardır. Hazırda qlobal təcrübədə süni intellekt sistemləri barədə müşahidə olunan çağırışlar aşağıdakılardır:

1. məlumatların dəqiqliyi: süni intellekt sistemləri vasitəsilə həyata keçirilən qərarvermə proseslərində obyektivliyin təmin edilməsi üçün dəqiq və mötəbər məlumatların toplanılması, eləcə də məlumatların düzgün emalı və təmizlənməsi zəruridir. Amerika Birləşmiş Ştatlarında və Avropa İttifaqında etik alqoritmlərin tətbiqi və məlumat təmizliyi standartları bu istiqamətdə əhəmiyyətli addımlardandır;

2. kibertəhlükəsizlik riskləri: süni intellekt sistemlərinin kibertəhlükələrə qarşı dayanıqlılığını artırmaq üçün qabaqcıl beynəlxalq təcrübələrdən faydalanmaq mümkündür;

3. yüksək enerji xərcləri: İsveç və Danimarka kimi ölkələr enerji effektivliyi üçün yaşıl texnologiyalardan istifadə edir. Bu yanaşma həm iqtisadi, həm də ekoloji baxımdan faydalıdır;

4. mütəxəssis çatışmazlığı: rəqəmsal təhsil və təlim proqramlarının genişləndirilməsi, Sinqapurda və Koreya Respublikasında olduğu kimi, mütəxəssis bazasını genişləndirməyin əsas yoludur;

5. qərarvermə proseslərində aşkarlıq: süni intellekt sistemləri vasitəsilə həyata keçirilən qərarvermə proseslərində tətbiq edilən metodologiyaların şəffaflığı və aşkarlığı təmin edilməlidir;

6. məlumatların mühafizəsi: dövlət sirrinin və əldə edilməsi məhdudlaşdırılan digər məlumatların mühafizəsi təmin edilməli və konfidensiallığı qorunmalıdır;

7. hesabatlılıq: qurumlar yaratdıqları və istifadə etdikləri süni intellekt sistemlərinə görə cavabdeh olmalı və məsuliyyət daşımalıdırlar.

2030-cu ildə süni intellektin 326 milyon işə təsir göstərəcəyi təxmin edilir. Vaxtında lazımi tədbirlər görülməsə, işlərin 67%-nin bu sahədə təhsili olmayan şəxslər tərəfindən icra ediləcəyi qaçılmaz olacaqdır. Süni intellekt sahəsində aparılmış araşdırmalara görə, 2030-cu ildə süni intellektin inkişafı və tətbiqinin sürətləndirilməsi nəticəsində qlobal ÜDM 14% artacaq ki, bu da əlavə 15,7 trilyon dollar deməkdir. Süni intellektin tətbiqinin iqtisadi təsiri aşağıdakı nəticələrə səbəb olacaqdır:

1. biznes proseslərini avtomatlaşdırmaqla (robotlardan və avtonom nəqliyyat vasitələrindən istifadə daxil olmaqla) məhsuldarlığın artırılması;

2. müəssisələrdə mövcud işçi qüvvəsini süni intellekt texnologiyaları (yardımçı və genişləndirilmiş intellekt) ilə inkişaf etdirərək məhsuldarlığın artırılması;

3. fərdiləşdirilmiş və (və ya) daha yüksəkkeyfiyyətli süni intellekt məhsul və xidmətlərinin təqdim edilməsi yolu ilə istehlakçı tələbatının artması.

## 3 Mövcud vəziyyətin təhlili

Amerika Birləşmiş Ştatları, Çin, Türkiyə, Danimarka, Estoniya, İsrail, Koreya Respublikası, Sinqapur və digər ölkələr tərəfindən süni intellekt texnologiyasının gətirdiyi imkanları iqtisadi artıma çevirmək, hər kəsin rifahına və daha təhlükəsiz yaşamına yönəltmək üçün məqsədləri, prinsipləri və prioritetləri əks etdirən hərtərəfli milli strategiyalar və proqramlar hazırlanmışdır.

Süni intellekt idarəçiliyi və onun hüquqi tənzimlənməsi süni intellekt sistemlərinin tətbiqində mühüm vasitə rolu oynadığından, süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadəni təmin etmək üçün aydın qaydalar və normalarla bağlı Azərbaycanda müvafiq normativ hüquqi baza yaradılmalıdır. Süni intellekt üçün tənzimləyici normaların təsbit edilməsi, həmçinin, süni intellektin istifadəsinin və faydalarının ədalətli şəkildə bölüşdürülməsində, fərdlərin hüquqlarının qorunmasında, etik qaydaların hazırlanması və süni intellektin cəmiyyətə potensial mənfi təsirini azaltmaq üçün tədbirlərin həyata keçirilməsində vacib rol oynayır.

Məlumatların real vaxt rejimində mübadiləsi və emalı zamanı bulud hesablama resurslarından və "Əşyaların interneti"ndən istifadə, habelə cihazlar və sistemlər arasında əlaqə qurulması, eləcə də yüksəksürətli internet süni intellekt üçün vacib əhəmiyyətə malikdir.

Eyni zamanda, süni intellekt infrastrukturunu dəstəkləyən bulud infrastrukturunun, xüsusən də AWS, Google Cloud Platform və ya Microsoft Azure kimi əsas bulud provayderlərinin Azərbaycanda olmaması süni intellektin sürətlə mənimsənilməsi üçün ciddi maneələr yaradır.

2024-cü il yanvarın 1-nə Azərbaycan Respublikasında internet istifadəçilərinin sayı 9,19 milyon olmuşdur və internetdən istifadə səviyyəsi əhalinin 88,0 %-ni təşkil etmişdir. Genişzolaqlı internet istifadəçilərinin sayı isə 2,1 milyonu keçmişdir. Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının "Elektron Hökumətin İnkişafı İndeksi"nin 2024-cü il hesabatında 193 ölkə arasında 74-cü yerdə qərarlaşır ki, bununla da ölkəmiz ilk dəfə indeksin ən yüksək kateqoriyası hesab edilən "Çox Yüksək EGDI" qrupuna daxil olmuşdur.

Azərbaycan Respublikasında dövlət idarəçiliyində operativliyin və səmərəliliyin artırılması məqsədilə "Elektron hökumət"in formalaşması artıq təmin olunmuş, həmçinin dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri və ehtiyatları vasitəsilə təqdim edilən elektron xidmətlərdən geniş istifadə edilməkdədir.

Cənubi Qafqaz regionunda ilk olaraq Azərbaycan Respublikasının TIER III səviyyəli, ISO 20000, ISO 27001 və PCI DSS standartlarına uyğun Data Mərkəzi yaradılmış və fəaliyyəti təmin edilmişdir. Data Mərkəzi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na əsasən formalaşdırılan "bulud" infrastrukturunun təminatçısıdır.

"Elektron hökumət"in inkişafı istiqamətində qanunla əldə olunması, işlənilməsi, verilməsi və ya istifadəsi məhdudlaşdırılmayan və ümumi istifadə üçün təyin olunmuş məlumatlara əlçatanlığın artırılmasını, həmin məlumatlardan səmərəli istifadə məqsədilə onların vahid bazada toplanmasını təmin edən "Açıq məlumatlar" portalı yaradılmış, dövlət orqanları (qurumları) tərəfindən formalaşdırılan açıq məlumatların insan və maşın tərəfindən oxunabilən formatda portal vasitəsilə açıqlanması imkanı təmin edilmişdir. Hazırda "Açıq məlumatlar" portalına 500-dən çox məlumat dəsti inteqrasiya edilmişdir. Portalın yaradılması nəticəsində dövlət orqanlarında (qurumlarında) idarəetmədə şəffaflığın daha da artırılması, dövlət xidmətlərinin yaxşılaşdırılması, vətəndaş iştirakçılığının genişləndirilməsi ilə yanaşı, startaplar və digər biznes subyektlərinin yeni məhsul və xidmətlər yaratmaq, o cümlədən innovativ ideya və layihələri formalaşdırmaq üçün lazım olan açıq məlumatlarla təmin edilməsi hədəflənir.

Hazırkı qlobal geosiyasi və iqtisadi mühitdə digər dövlətlər, transmilli texnoloji şirkətlər tərəfindən süni intellekt texnologiyaları vasitəsilə Azərbaycanın milli strateji prioritetlərinə təsir göstərilməsi istisna olunmur. Bununla yanaşı, terrorçu təşkilatlar və beynəlxalq kriminal qruplaşmalar tərəfindən bu texnologiyalardan istifadə meyilləri hüquq mühafizə orqanları üçün yeni çağırışlar yaradacaqdır. Süni intellektin tətbiqi ilə ölkəmizə qarşı dezinformasiya hücumlarının həyata keçirilməsi cəhdlərinin, saxta kontent, o cümlədən "deepfake" audio-video materiallardan istifadənin artması da istisna olunmur. Kiberhücum və kibercinayətlərin həyata keçirilməsi üçün süni intellektin yaratdığı yeni imkanlardan, ziyanverici proqram təminatından istifadə oluna bilər. Bundan əlavə, "Əşyaların interneti" sensorlarında, "ağıllı telefonlar"da, avtonom nəqliyyat vasitələrində, "ağıllı ev" həllərində, sosial media platformalarında fərdi məlumatların daha effektiv toplanılmasını təmin edən (fərdi məlumatların mühafizəsinə təhdid yaradan) süni intellektin tətbiqi mümkündür. Göstərilən təhdidlərin qarşısının alınması və onlara qarşı əks-tədbirlərin həyata keçirilməsi üçün süni intellekt alətlərindən istifadə genişləndirilməlidir.

Ölkənin süni intellekt sahəsində inkişafı və rəqabət qabiliyyəti üçün həmin sahə üzrə istedad və bacarıqların artırılması, eləcə də təlimçilərin hazırlanması, ixtisasının yüksəldilməsi, habelə ölkənin işçi qüvvəsinin süni intellektlə idarə olunan iqtisadiyyata hazırlığının təmin edilməsinə nail olmaq vacibdir. Texnologiyanın sürətli inkişafı və müxtəlif sənayelərdə istifadəsinin genişlənməsi nəticəsində süni intellekt üzrə mükəmməl bilik və bacarıqlara malik mütəxəssislərə tələb artmaqdadır. Belə ki, 2016-cı ildən 2022-ci ilə qədər data elmi və maşın öyrənməsinə olan tələbat əsasında elanların sayı 60 dəfə artmışdır. "LinkedIn" sosial şəbəkə platformasındakı araşdırmalara əsasən, data elmi və maşın öyrənməsi üzrə ixtisaslaşmış təcrübəli mütəxəssislərin azlığı diqqət çəkir.

Dünyada süni intellekt hazırlığını ölçən qlobal indekslərdən "Süni İntellekt Qlobal İndeksi"ndə Azərbaycan 2024-cü ildən etibarən yer almaqdadır və 83 ölkə arasında 78-ci yerdədir. "Hökumətin Süni İntellekt Hazırlıq İndeksi"nin 2024-cü ildəki hesabatına əsasən, Azərbaycan 188 ölkə arasında 111-ci yerdədir. Süni intellektin inkişafı məqsədilə Strategiyanın formalaşdırılması ölkənin beynəlxalq indekslərdə, o cümlədən "Hökumətin Süni İntellekt Hazırlıq İndeksi"ndə irəliləməsinə töhfə verən əsas göstəricilərdən birinə çevriləcəkdir.

Ölkədə süni intellektlə bağlı mövcud çağırışlar aşağıdakı istiqamətlərdə işlər görülməsini tələb edir:

1. data elmi və maşın öyrənməsi üzrə təhsil proqramlarının genişləndirilməsi – universitetlərdə və digər təhsil müəssisələrində bu sahələr üzrə ixtisaslaşmış proqramların yaradılmasını və mövcud proqramların təkmilləşdirilməsini;

2. akademik tədqiqatçıların və mütəxəssislərin dəstəklənməsi – yüksək texnologiya sahəsində çalışan alim və tədqiqatçılar üçün rəqabətqabiliyyətli əməkhaqqı təklif edilməsini və onların fəaliyyətinin stimullaşdırılmasını;

3. məlumat bazalarına çıxışın təmin edilməsi – tədqiqat institutları və digər qurumlar tərəfindən toplanılan açıq məlumatlara tədqiqatçılar və mütəxəssislər üçün çıxış imkanlarının artırılmasını;

4. süni intellektin inkişafını dəstəkləyən qanunvericilik bazasının yaradılması – süni intellektin tədqiqi və tətbiqi üçün əlverişli hüquqi mühitin formalaşdırılması və mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsini;

5. məlumatların məxfiliyinin və təhlükəsizliyinin təmin edilməsi – fərdi məlumatların qorunması və kibertəhlükəsizlik sahəsində müvafiq qanunların qəbul edilməsini və tətbiqini;

6. süni intellektin təbliği – cəmiyyət arasında süni intellektin əhəmiyyəti və faydaları barədə məlumatlandırma kampaniyalarının keçirilməsini;

7. ictimaiyyətin maarifləndirilməsi – süni intellektin tətbiqi ilə bağlı potensial risklər və onların idarə edilməsi barədə ictimaiyyətin məlumatlandırılmasını;

8. süni intellekt sahəsində fəaliyyət göstərən şirkətlərin dəstəklənməsi – bu sahədə fəaliyyət göstərən yerli şirkətlərin sayının artırılması üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsini;

9. dövlət–özəl sektor əməkdaşlığının gücləndirilməsi – süni intellektin müxtəlif sahələrdə tətbiqi üçün dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizmlərinin yaradılmasını və inkişaf etdirilməsini.

Yuxarıda qeyd olunan istiqamətlərdə atılacaq addımlar Azərbaycanda süni intellektin inkişafını sürətləndirəcək və onun müxtəlif sahələrdə səmərəli tətbiqinə şərait yaradacaqdır.

## 4. Hədəf göstəriciləri

4.1. Strategiyanın icrası nəticəsində aşağıda qeyd olunan hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1. ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması;

4.1.2. süni intellektin tətbiqi üçün əlverişli şərait yaradılması;

4.1.3. süni intellekt sənayesində işləmək üçün ixtisaslı işçi qüvvəsinin hazırlanması;

4.1.4. cəmiyyətin bütün üzvlərinə süni intellektin faydalarının geniş şəkildə təbliğ edilməsi.

## 5. Strategiyanın məqsədləri

Strategiyanın əsas məqsədləri aşağıdakılardır:

ölkədə müəyyən edilmiş prioritet sektorlar üzrə süni intellekt sənayesinin, o cümlədən onun davamlılığının və rəqabət qabiliyyətinin təmin edilməsi;

süni intellekt sənayesində işləmək üçün lazımi bilik və bacarıqlara malik ixtisaslı işçi qüvvəsinin hazırlanması;

dəqiq qərar qəbulu ilə səmərəliliyi və şəffaflığı artırmaq, vətəndaşlara daha keyfiyyətli xidmətlər göstərmək və daxili idarəetmə proseslərini optimallaşdırmaq üçün süni intellektin dövlət idarəetməsində tətbiq edilməsi;

yerli, regional və beynəlxalq bazar ehtiyaclarına xidmət edən regional süni intellekt təlimi və istedad mərkəzlərinin yaradılması;

süni intellekt sistemlərinin yerləşdirilməsi, böyükhəcmli məlumatların emalı və analitik təhlili üçün hesablama maşınlarının və məlumat mərkəzlərinin artırılması;

mürəkkəb riyazi əməliyyatları yerinə yetirmək və sistemləri simulyasiya etmək, nümunələri yenidən yaratmaq və digər yüksək hesablama tələb edən işləri yerinə yetirmək üçün yüksəksəviyyəli hesablama infrastrukturunun inkişaf etdirilməsi;

ölkə qanunvericiliyində süni intellektin əsaslarının və normalarının işlənilməsi və süni intellektdən istifadə üçün etik prinsiplər və qaydaların formalaşdırılması;

süni intellekt sistemlərinin yaradılmasında və davamlı təkmilləşdirilməsində süni intellekt üzrə qlobal standartların tətbiq edilməsi;

süni intellektin tədqiqatını həyata keçirmək və süni intellekt sistemlərini hazırlamaq üçün sektorlar arasında əməkdaşlığın təşviq edilməsi;

süni intellektdən məsuliyyətli istifadənin təmin edilməsi və vətəndaşların hüquqlarının və məlumatların məxfiliyinin qorunması;

süni intellektin məlumat qərəzi törətməməsi, ondan dövlətin, cəmiyyətin və vətəndaşların maraqlarına zidd məqsədlər üçün istifadənin qarşısının alınması;

innovasiyalı həllərin tətbiqi zamanı yaranan risklərin və dəyən ziyanın azaldılmasının təmin edilməsi;

milli təhlükəsizliyin, o cümlədən informasiya təhlükəsizliyinin, informasiyanın manipulyasiyasının, habelə dezinformasiya hücumlarının qarşısının alınması və süni intellekt sistemlərinin mühafizəsinin təmin edilməsi üçün süni intellekt üzrə rəqəmsal alətlərin etimadlılıq səviyyələrinin gücləndirilməsi və süni intellektin tətbiqinin genişləndirilməsi.

## 6. Strategiyanın prioritet istiqamətləri

6.1. Strategiya çərçivəsində aşağıdakı prioritet istiqamətlər üzrə tədbirlər həyata keçiriləcəkdir:

6.1.1. Süni intellektin idarə edilməsinin inkişafı və təkmilləşdirilməsi:

6.1.1.1. **Əsaslandırma**: innovasiyaları təşviq edən, sərmayələri cəlb edən, cəmiyyətin maraqlarını və dəyərlərini qoruyan süni intellekt üzrə idarəetmə sisteminin yaradılması və dünyada süni intellektin məsuliyyətli inkişafı üçün beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edilməsi Strategiyanın prioritet istiqamətlərindən biridir. Beləliklə, innovatorları, tədqiqatçıları və sahibkarları effektiv şəkildə dəstəkləyən, fəaliyyətləri stimullaşdıran, eyni zamanda əhalinin süni intellekt texnologiyalarına inamını təmin edən idarəetmə sistemi formalaşdırılacaqdır;

6.1.1.2. **Görüləcək tədbirlər:**

6.1.1.2.1. süni intellektin inkişafı üçün milli prioritet sektorların və sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) müəyyən edilməsi;

6.1.1.2.2. süni intellekt üzrə sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi;

6.1.1.2.3. məsuliyyətli və etik süni intellekt üzrə normativ hüquqi bazanın yaradılması;

6.1.1.2.4. süni intellekt sistemlərinin dizaynı, tətbiqi və istifadəsi zamanı fərdi məlumatların mühafizəsi ilə bağlı risklərin müəyyən edilməsi və qarşısının alınması qaydalarının təsdiq edilməsi;

6.1.1.2.5. süni intellekt üzrə standartlaşdırmanın tətbiq edilməsi;

6.1.1.3. **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.3.1. innovasiyaları təşviq edən, investisiyaları cəlb edən və cəmiyyətin maraqlarını qoruyan süni intellekt idarəetmə sisteminin qurulması;

6.1.1.3.2. süni intellektin təsirini artırmaq və resurslardan daha səmərəli istifadəni təmin etmək üçün kənd təsərrüfatı, səhiyyə, nəqliyyat, təhsil və digər prioritet sektorların müəyyən edilməsi;

6.1.1.3.3. süni intellekt tətbiqlərində şəffaflığı, ədalətliliyi və etik prinsiplərə uyğunluğu təmin etmək üçün hüquqi çərçivənin hazırlanması və beynəlxalq standartlara uyğun milli normativ hüquqi bazanın işlənilməsi və tətbiqi;

6.1.1.3.4. süni intellekt ekosistemində qlobal səviyyədə Azərbaycan Respublikasının mövqeyini gücləndirmək məqsədilə regional və beynəlxalq tərəfdaşlıqların inkişaf etdirilməsi;

6.1.1.4. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.1.4.1. milli prioritet sektorların müəyyən edilməsi zamanı sektorların müəyyən edilməsində mübahisələr və ya resursların qeyri-bərabər bölgüsü baş verə bilər ki, bu da bəzi sahələrin digər sahələrə nisbətən daha az dəstək almasına və inkişafın qeyri-bərabər olmasına səbəb ola bilər.

Bu riski neytrallaşdırmaq üçün süni intellektin tətbiqi potensialı və tələblərini nəzərə alaraq, hər bir sektorda ətraflı təhlillər aparılacaq, mütəxəssislərin və ekspertlərin fikirləri, təklifləri əsasında prioritet sektorlar müəyyənləşdiriləcək, pilot layihələr həyata keçiriləcək və resurslar balanslı şəkildə bölüşdürüləcəkdir;

6.1.2. Məlumat idarəetməsinin və infrastrukturunun təkmilləşdirilməsi:

6.1.2.1. **Əsaslandırma:** məlumat idarəetməsinin və infrastrukturunun təkmilləşdirilməsi rəqəmsal transformasiyanın əsasını təşkil edərək, dövlət orqanları (qurumları) və özəl sektor üçün etibarlı, səmərəli və innovativ həllərin inkişafını təmin edəcəkdir. Məlumatların effektiv idarə olunması, açıq məlumatların genişləndirilməsi, yüksəksəviyyəli hesablama imkanlarının artırılması və Təbii Dil Emalı (bundan sonra – TDE) texnologiyalarının gücləndirilməsi süni intellektin və data əsaslı qərar qəbuletmənin inkişafına töhfə verəcəkdir;

6.1.2.2. **Görüləcək tədbirlər:**

6.1.2.2.1. yüksəksəviyyəli hesablama infrastrukturunun inkişafı;

6.1.2.2.2. TDE üzrə istiqamətlərin gücləndirilməsi;

6.1.2.2.3. məlumatlardan səmərəli və effektiv istifadə, onların təhlükəsizliyinin və fərdi məlumatların mühafizəsinin təmin edilməsi, məlumatyönümlü idarəetməyə keçidin təşkili;

6.1.2.3. **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. Azərbaycan dilində TDE texnologiyalarının inkişaf etdirilməsi və dilin qlobal rəqəmsal məkanda mövqeyinin gücləndirilməsi;

6.1.2.3.2. süni intellekt alqoritmlərinin öyrədilməsi, modellərinin və nümunələrinin təlimi və tətbiqi üçün yüksəksəviyyəli hesablama infrastrukturunun inkişaf etdirilməsi;

**(ardı 9-cu səhifədə)**

# Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası

**(əvvəli 8-ci səhifədə)**

6.1.2.3.3. ictimaiyyətin süni intellekt mövzusunda bilik səviyyəsinin artırılması;

4 **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

4 yüksəksəviyyəli hesablama infrastrukturu və TDE texnologiyalarının inkişafı zamanı maliyyə və texniki resurs çatışmazlığı yarana bilər. Bu resursların kifayət qədər ayrılmaması infrastrukturun təkmilləşdirilməsini məhdudlaşdıra, layihələrin gecikməsinə və ya məhdud miqyasda icrasına səbəb ola bilər.

Bu riskin qarşısını almaq üçün investisiya imkanlarının genişləndirilməsi, beynəlxalq və yerli donorlar, eləcə də innovasiya və texnologiya fondlarından maliyyə cəlb edilməsi nəzərdə tutulur;

6.1.2.4.2. TDE sistemləri şəxsi və həssas məlumatlarla işləyə bilər, bu isə məxfiliyin pozulmasına gətirib çıxarar.

Bu problemin aradan qaldırılması üçün məlumatların anonimləşdirilməsi, tənzimləyici qaydalara uyğun məlumat emalı, şifrələmə texnologiyalarının tətbiqi nəzərdə tutulur;

6 Süni intellekt üzrə istedad və bacarıqların təkmilləşdirilməsi:

6 **Əsaslandırma:** süni intellekt sahəsində ölkədə yüksəkixtisaslı kadr potensialının inkişafı və təkmilləşdirilməsi, prioritet sektorların tələblərinə uyğun şəkildə dövlət orqanlarının (qurumlarının) rəhbər heyəti və mütəxəssisləri üçün təlimlərin keçirilməsi, həmçinin süni intellekt və məlumat idarəetməsi üzrə tədqiqatların təşviq edilməsi ölkənin rəqəmsal inkişafının gücləndirilməsinə töhfə verəcəkdir. Bununla yanaşı, məsuliyyətli və etik süni intellekt tətbiqlərinin genişləndirilməsi və fərdi məlumatların qorunması ilə bağlı təlimlərin keçirilməsi ictimaiyyətin məlumatlılığını artıracaq, süni intellekt texnologiyaları ilə bağlı maariflənmə səviyyəsini möhkəmləndirəcək və müvafiq sahədə yerli bacarıqların inkişafını sürətləndirəcəkdir;

6 2 **Görüləcək tədbirlər:**

6.1.3.2.1. ölkədə müəyyən edilmiş prioritet sektorlar üzrə dövlət orqanlarının (qurumlarının) rəhbər heyəti üçün süni intellekt və data təliminin təşkil edilməsi;

6.1.3.2.2. süni intellekt və məlumat idarəetməsi üzrə kadr potensialının gücləndirilməsi;

6.1.3.2.3. süni intellekt və məlumat idarəetməsi üzrə təlimlərin təşkili və keçirilməsi üçün müvafiq təlimçilərin hazırlanması, eləcə də cəlb edilməsi;

6.1.3.2.4. süni intellekt, xüsusilə məsuliyyətli və etik süni intellekt, süni intellekt sistemlərinin tətbiqi zamanı fərdi məlumatların mühafizəsi ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılması;

6.1.3.2.5. süni intellekt üzrə tədqiqatların təşviq edilməsi;

6 3 **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. akademik və praktiki səviyyədə süni intellekt və data elminə dair biliklərin artırılması və müvafiq təhsil proqramlarının genişləndirilməsi;

6.1.3.3.2. süni intellekt sahəsində mütəxəssislər hazırlanması və qeyri-texniki rollar üçün səriştə standartlarının müəyyən edilməsi;

6.1.3.3.3. süni intellekt texnologiyalarının imkanları, riskləri və faydaları barədə əhalinin məlumatlandırılması və texnologiyaya inamın artırılması;

6 4 **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.3.4.1. süni intellekt və məlumat idarəetməsi sahəsində mütəxəssislərin hazırlanması, həmçinin dövlət orqanlarının (qurumlarının) rəhbər heyətinin bu sahədə biliklərinin təkmilləşdirilməsi üçün təşkil olunan təlim və inkişaf proqramlarında təlimçilərin məhdud sayda olması və ya kifayət qədər hazırlıqlı olmaması yerli kadrların bilik səviyyəsinin yüksəlməsinə mane ola və sahəyə marağı azalda bilər.

Bu riskin neytrallaşdırılması və proqramların keyfiyyətinin artırılması məqsədilə Süni İntellekt Akademiyasının yaradılması və nüfuzlu xarici təhsil müəssisələri ilə əməkdaşlıq nəzərdə tutulur. Həmin tədbirlər yerli kadr potensialını gücləndirəcək, sahəyə olan marağı artıracaq və inkişafı sürətləndirəcəkdir;

6.1.3.4.2. sənaye ilə dövlət orqanları (qurumları) arasında əməkdaşlıq və əlaqələndirmənin zəif olması, sənaye sektorunun süni intellekt texnologiyalarına maraq göstərməməsi nəticəsində peşəkar kadrların bilik və bacarıqlarını real mühitdə tətbiq etmək imkanları məhdudlaşa bilər ki, beləliklə də kadrların formalaşması və inkişafı ləngiyər. Bundan əlavə, süni intellektdən biznesdə real istifadəyə dair praktiki nümunələrin azlığı gənc mütəxəssislərin bu sahəyə marağının azalmasına səbəb ola bilər.

Bu riskin aradan qaldırılması üçün yaradılması nəzərdə tutulan Süni İntellekt Akademiyası, sənaye və dövlət orqanları (qurumları) arasında sıx əməkdaşlığın qurulması və süni intellektin biznes üçün yaratdığı imkanlar barədə geniş məlumatlandırma aparılması planlaşdırılır;

6.1.3.4.3. texnoloji infrastrukturun qeyri-kafi olması və innovasiya üçün əlverişli mühitin yaradılmaması süni intellekt üzrə istedad və bacarıqların təkmilləşdirilməsi qarşısında dayanan çox ciddi risklərdən biridir. Süni intellektin effektiv tətbiqi üçün güclü və müasir texnoloji infrastruktura ehtiyac vardır. Bu infrastrukturun olmaması və ya zəif olması layihələrin uğurla icrasını çətinləşdirə bilər.

Bu riski neytrallaşdırmaq üçün süni intellektə uyğun yüksəksəviyyəli hesablama infrastrukturunun inkişaf etdirilməsi və müasirləşdirilməsi üçün əlavə sərmayələr qoyulması nəzərdə tutulur. Həmçinin, texnoloji mühitin inkişafı məqsədilə pilot layihələrin sənaye infrastrukturlarında real olaraq tətbiq edilməsi, innovasiya mərkəzlərinin, Süni İntellekt Akademiyasının və laboratoriyaların inkişaf etdirilməsi, startaplara dəstək proqramlarının təşkil olunması planlaşdırılır;

6.1.4. Əlverişli biznes mühitinin yaradılması:

4 **Əsaslandırma:** əlverişli biznes mühitinin yaradılması sahəsində süni intellekt texnologiyalarının tətbiqi üzrə yerli və xarici investisiyaların cəlb edilməsi, sahibkarlıq subyektlərinə dəstək mexanizmlərinin genişləndirilməsi və texnologiya parklarında fəaliyyət göstərən rezidentlərin artırılması ölkənin rəqəmsal iqtisadiyyatını gücləndirəcəkdir. Bu tədbirlər süni intellekt sahəsində innovativ təşəbbüsləri stimullaşdıraraq iqtisadi mühitin inkişafına və işgüzar mühitin yaxşılaşdırılmasına töhfə verəcək, həm yerli, həm də xarici investorların marağını artıracaqdır. Beləliklə, ölkə üzrə süni intellekt texnologiyalarının istehsalı və tətbiqi sahəsində əhəmiyyətli irəliləyişə nail olunacaqdır;

4 **Görüləcək tədbirlər:**

4 ölkə üzrə süni intellekt texnologiyalarının tətbiqi ilə bağlı yerli və xarici investisiyaların cəlb edilməsi üçün tədbirlər görülməsi;

4 ölkə üzrə süni intellekt texnologiyalarının tətbiqi ilə bağlı sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi, zəmanət və digər dəstək mexanizmlərinin tətbiq dairəsinin genişləndirilməsi;

6.1.4.2.3. ölkə üzrə texnologiya parklarına və sənaye zonalarına süni intellekt texnologiyalarının istehsalı ilə bağlı fəaliyyət göstərən rezidentlərin cəlb edilməsi;

4 **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. süni intellekt texnologiyalarına əsaslanan innovativ startapların inkişaf etdirilməsi, mövcud innovasiya ekosisteminin gücləndirilməsi və yeni iş yerlərinin yaradılması;

6.1.4.3.2. Azərbaycanın süni intellekt sahəsində regional lider mövqeyinin möhkəmləndirilməsi və qlobal rəqəmsal ekosistemdə tanınması ilə bağlı fəaliyyətin gücləndirilməsi;

4 **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.4.4.1. daxili bazarın kiçik olması və bu sahədə fəaliyyət göstərən şirkətlərin yeni olması xarici investisiya marağını azaldır.

Bu riskin neytrallaşdırılması məqsədilə beynəlxalq partnyorluqların genişləndirilməsi və xarici şirkətlərlə əməkdaşlığın təşviqi nəzərdə tutulur;

6.1.4.4.2. texnologiya parklarına və sənaye zonalarına süni intellekt texnologiyalarının istehsalı üzrə fəaliyyət göstərən rezidentlərin cəlb edilməsi zamanı uyğun biznes mühiti və infrastrukturun olmaması süni intellektin inkişafını və tətbiqini ləngidə bilər.

Bu riskin qarşısını almaq üçün texnologiya şirkətləri ilə əməkdaşlıq imkanlarının genişləndirilməsi nəzərdə tutulur.

## 7. Maliyyələşdirmə mexanizmləri

Strategiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planında qeyd olunan tədbirlərin maliyyələşdirilməsi büdcə təşkilatları tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulan vəsait və qanunla qadağan olunmayan digər mənbələr hesabına, habelə dövlət–özəl tərəfdaşlığı layihələri vasitəsilə təmin olunur.

## 8. Strategiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planı

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı quruml fəaliyyət istiqamətlərinə uyğun olaraq | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **8.1. Süni intellektin idarə edilməsinin inkişafı və təkmilləşdirilməsi** | | | | | | | |
| 8 | Süni intellektin inkişafı üçün milli prioritet sektorların və sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) müəyyən edilməsi | NK | RİNN, XRİTDX, DTX və aidiyyəti dövlət orqanları (qurumları) | 2025–2026 | Ölkənin strateji hədəflərinin, qlobal tendensiyaların ilkin təhlili və bazar araşdırmasının aparılması | Süni intellekt üzrə prioritet sektorların və müvafiq sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) siyahısının hazırlanması | Süni intellekt üzrə prioritet sektorların və müvafiq sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) siyahısının təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi |
| 8 | Süni intellekt üçün sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi | NK | RİNN, XRİTDX, DTX və aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Dövlət orqanlarının (qurumlarının) süni intellekt sahəsində potensialının və resurslarının qiymətləndirilməsi | Müəyyən edilmiş hər bir prioritet sektor üzrə dövlət orqanları (qurumları) tərəfindən fəaliyyət planlarının hazırlanması | Hazırlanmış fəaliyyət planlarının əlaqələndirilmiş şəkildə icra edilməsi |
| 8 | Məsuliyyətli və etik süni intellekt üzrə normativ hüquqi bazanın yaradılması | NK | RİNN, İN, DTX, XRİTDX | 2025–2027 | Normativ hüquqi baza yaradılması məqsədilə təhlillər aparılması | Məsuliyyətli və etik süni intellekt üzrə normativ hüquqi aktların layihələrinin hazırlanması və təqdim edilməsi | Məsuliyyətli və etik süni intellekt üzrə normativ hüquqi aktların qəbul edilməsi |
| 8 | Süni intellekt sistemlərinin dizaynı, tətbiqi və istifadəsi zamanı fərdi məlumatların mühafizəsi ilə bağlı risklərin müəyyən edilməsi və qarşısının alınması qaydalarının təsdiq edilməsi | NK | RİNN, aidiyyəti dövlət orqanları (qurumları) | 2025–2027 | Beynəlxalq təcrübənin araşdırılması və yerli normativ hüquqi bazanın təhlil olunması | Fərdi məlumatların mühafizəsi ilə bağlı risklərin müəyyən edilməsi və qarşısının alınması qaydalarının hazırlanması və təsdiq üçün təqdim olunması | Fərdi məlumatların mühafizəsi ilə bağlı risklərin müəyyən edilməsi və qarşısının alınması qaydalarının təsdiq olunması |
| 8 | Süni intellekt üzrə standartlaşdırmanın tətbiq edilməsi | RİNN | AİBNDA, DTX, XRİTDX | 2025–2028 | Standartlaşdırma üzrə beynəlxalq təşkilatın süni intellekt standartlarının araşdırılması | Süni intellekt üzrə ən azı 3 dövlət standartının hazırlanması, standartlaşdırma üzrə dövlət fonduna və dövlət reyestrinə daxil edilmək üçün təqdim olunması | Süni intellekt üzrə təsdiq olunmuş dövlət standartları haqqında geniş ictimai maarifləndirmə və məlumatlandırma tədbirlərinin görülməsi |
| **8.2. Məlumatların idarəedilməsinin və infrastrukturunun təkmilləşdirilməsi** | | | | | | | |
| 8 | Yüksəksəviyyəli hesablama infrastrukturunun inkişafı | RİNN | ETN, İN | 2026–2028 | Yüksəksəviyyəli hesablama infrastrukturu üçün tələblərin müəyyən edilməsi | Qrafik Prosessor Modullarının alınaraq Data Mərkəzlərində qurulması | İctimai istifadə üçün seqmentlərin müəyyən edilməsi və istifadəyə verilməsi |
| 8 | TDE üzrə istiqamətlərin gücləndirilməsi | RİNN | VXSİDA, aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Azərbaycan dilində böyük verilənlər bazalarının yaradılması | Yüksəkdəqiqlikli TDE modellərinin hazırlanması | Pilot 5 dövlət xidmətində TDE texnologiyalarının tətbiq edilməsi |
| **8.3. Süni intellekt sahəsində istedad və bacarıqların təkmilləşdirilməsi** | | | | | | | |
| 8 | Ölkədə müəyyən edilmiş prioritet sektorlar üzrə dövlət orqanlarının (qurumlarının) rəhbər heyəti üçün süni intellekt və data təliminin təşkil edilməsi | RİNN | ETN, İN, MN, XRİTDX, DTX | 2026–2027 | Süni İntellekt Akademiyasının fəaliyyətə başlaması<br>İnteraktiv tədris platformasının istifadəyə verilməsi<br>Yarışma platformasının istifadəyə verilməsi<br>İctimaiyyətin<br>süni intellekt mövzusunda bilik səviyyəsini artırmaq məqsədilə ehtiyacların müəyyən edilməsi | Süni İntellekt Akademiyasının fəaliyyəti çərçivəsində ən azı 2 nüfuzlu xarici universitetlə (dünya reytinqində ilk 10 pillədə qərarlaşan) süni intellektin tədrisi sahəsində əməkdaşlığın təmin edilməsi<br>Süni intellektlə bağlı məlumat və resurslar üçün platformanın yaradılması | Süni intellekt sahəsində 500 mühəndisin yetişdirilməsi<br>3000 nəfərlik süni intellekt icmasının formalaşdırılması<br>Müxtəlif dövlət orqanlarından (qurumlarından)<br>500 əməkdaşın “Menecerlər üçün süni intellekt” təlimlərindən məzun olması<br>İnteraktiv tədris platformasında istifadəçilərin sayının 10000-ə çatdırılması<br>Yarışma platformasında ümumilikdə 1000 istifadəçi ilə<br>10 yarışmanın keçirilməsi<br>Süni intellektin təsiri və faydaları (o cümlədən fərdi məlumatların işlənilməsi və mühafizəsi) ilə bağlı məlumatların yerli mediada<br>işıqlandırılması və ictimai müzakirələrin təşviqi |
| 8 | Süni intellekt və məlumat idarəetməsi üzrə kadr potensialının gücləndirilməsi | RİNN, ETN | İN, ƏƏSMN, XRİTDX | 2026–2028 | | | |
| 8 | Süni intellekt və məlumatların idarəedilməsi üzrə təlimlərin təşkili və keçirilməsi üçün müvafiq təlimçilərin hazırlanması, eləcə də cəlb edilməsi | RİNN, ETN | İN ƏƏSMN, XRİTDX, DTX | 2026–2028 | | | |
| 8 | Süni intellekt, xüsusilə məsuliyyətli və etik süni intellekt, süni intellekt sistemlərinin tətbiqi zamanı fərdi məlumatların mühafizəsi ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılması | RİNN | ETN, İN | 2025–2027 | | | |
| 8 | Süni intellekt üzrə tədqiqatların təşviq edilməsi | ETN | RİNN, İN, MN | 2025–2028 | Yerli və beynəlxalq maliyyə institutları vasitəsilə süni intellektlə bağlı tədqiqatların maliyyələşdirilməsi istiqamətində əməkdaşlığın qurulması və ən azı 10 elmi tədqiqata maliyyə vəsaitinin cəlb edilməsi | Tədqiqatçıları, təcrübəçiləri və sənaye liderlərini ideyalarını bölüşmək və yeni həllər hazırlamaq üçün bir araya gətirmək üçün ən azı 20 konfrans, seminar və hakaton kimi tədbirlərin təşkil edilməsi | Ən son tədqiqatların praktiki tətbiqlərə çevrilməsini təmin etmək üçün akademiyalar, sənaye və dövlət orqanları (qurumları) arasında ən azı 10 əməkdaşlığın qurulması |
| **8.4. Əlverişli biznes mühitinin yaradılması** | | | | | | | |
| 8 | Ölkə üzrə süni intellekt texnologiyalarının tətbiqi ilə bağlı yerli və xarici investisiyaların cəlb edilməsi məqsədilə tədbirlərin görülməsi | RİNN, İN | | 2025–2028 | Yerli və xarici investisiyaların müəyyən edilmiş prioritet sektorlara cəlb olunması | | Müəyyən edilmiş prioritet sektorlar üzrə azı 3 pilot layihənin həyata keçirilməsi |
| 8 | Ölkədə süni intellekt texnologiyalarının tətbiqi ilə bağlı sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi, zəmanət və digər dəstək mexanizmlərinin tətbiq dairəsinin genişləndirilməsi | İN | RİNN, MN | 2025–2028 | Sahibkarlıq subyektlərinin süni intellektin tətbiqi ilə bağlı üzləşdikləri maliyyə çatışmazlığının tədqiq olunması | Sahibkarlıq subyektlərinə dəstək mexanizmlərinin tətbiqi ilə bağlı normativ hüquqi akt layihələrinin hazırlanması və təsdiq üçün təqdim olunması | Güzəştli maliyyə resurslarına çıxış imkanlarının artırılması məqsədilə təşviqat tədbirlərinin həyata keçirilməsi<br>Azı 50 sahibkarlıq subyektinə güzəştli kredit verilməsi |
| 8 | Ölkənin texnologiya parklarına və sənaye zonalarına süni intellekt texnologiyalarının istehsalı ilə bağlı fəaliyyət göstərən rezidentlərin cəlb edilməsi | RİNN, İN | | 2025–2028 | Süni intellekt texnologiyalarının istehsalı məqsədilə rezidentlərin cəlb edilməsi ilə bağlı araşdırmalar aparılması | Texnologiya parklarına və sənaye zonalarına süni intellekt texnologiyalarını istehsal edən rezidentlərin<br>cəlb edilməsi | Ölkə üzrə texnologiya parklarında və sənaye zonalarında<br>süni intellekt texnologiyalarının istehsalı |

**Akronimlər**

**NK – Azərbaycan Respublikasının Nazirlər Kabineti**
**RİNN – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi**
**İN – Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi**
**ƏƏSMN – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**MN – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**
**ETN – Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi**
**DTX – Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti**
**XRİTDX – Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti**
**AİBNDA – Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi**
**VXSİDA – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 75** **Bakı şəhəri, 12 mart 2025-ci il**

**"Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 37.1-37.4-cü maddələri ilə müəyyən edilmiş tələblərə uyğun yerinə yetirilməsinə nəzarətin və həmin Qanunun 37.3-37.5-ci maddələrində nəzərdə tutulmuş uçuş əməliyyatlarının, o cümlədən xüsusi şəraitlərdə uçuş əməliyyatlarının həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.20-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 37.1-37.4-cü maddələri ilə müəyyən edilmiş tələblərə uyğun yerinə yetirilməsinə nəzarətin və həmin Qanunun 37.3-37.5-ci maddələrində nəzərdə tutulmuş uçuş əməliyyatlarının, o cümlədən xüsusi şəraitlərdə uçuş əməliyyatlarının həyata keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 76** **Bakı şəhəri, 12 mart 2025-ci il**

**"Dəmiryol nəqliyyatında qatarların hərəkətinə və manevr işinə dair Təlimat"ın təsdiq edilməsi haqqında**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol nəqliyyatında qatarların hərəkətinə və manevr işinə dair Təlimat" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 79** **Bakı şəhəri, 14 mart 2025-ci il**

**"Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə maaşlarına xüsusi rütbəyə görə əlavə haqqın məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin vəzifə (tarif) maaşlarının məbləğlərinin müəyyən edilməsi haqqında" 2018-ci il 12 aprel tarixli 146-9 nömrəli və "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan işçilərinin vəzifə maaşlarına xüsusi rütbəyə görə əlavə haqqın məbləği"nin təsdiq edilməsi haqqında" 2010-cu il 4 iyun tarixli 106-6 nömrəli qərarlarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 sentyabr tarixli 403 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 300 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 sentyabr tarixli 403 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1557 (Cild I); 2024, № 2, maddə 238) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**3.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 80** **Bakı şəhəri, 14 mart 2025-ci il**

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının, dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 308 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (1 nömrəli əlavə)*.

**2.** "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (2 nömrəli əlavə)*.

**3.** "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğləri" təsdiq edilsin (3 nömrəli əlavə)*.

**4.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması ilə əlaqədar cari ilin sonunadək tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2025-ci ilin dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirsin.

**5.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla, bu Qərarın əlavəsində nəzərdə tutulmayan vəzifələr üzrə aylıq vəzifə (tarif) maaşlarını müəyyən etsin.

**6.** Bu Qərarın 5-ci hissəsində qeyd olunmuş tədbirin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla, yeni mühafizə xidməti tariflərinin təsdiq edilməsi ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**7.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin büdcədən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərini müəyyən etsin.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 387 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1541 (Cild I) 1-ci, 2-ci və 3-cü hissələri ləğv edilsin.

**9.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

*Əlavələr dərc edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 81** **Bakı şəhəri, 14 mart 2025-ci il**

**"Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləği"nin təsdiq edilməsi barədə" 2012-ci il 11 may tarixli 112-12 nömrəli və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 321-16 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2018-ci il 27 aprel tarixli 179-14 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 390 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 297 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 390 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1544 (Cild I); 2024, № 1, maddə 103) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi);

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

**3.** Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin aprel ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Kürdəmir** | Kürdəmir, Ucar, Zərdab, Ağsu | **01** |
| 2. | **Mədəniyyət naziri** Adil Kərimli | **Saatlı** | Saatlı, Sabirabad, İmişli, Beyləqan, Hacıqabul | **03** |
| 3. | **Ədliyyə naziri** Fərid Əhmədov | **Şəki** | Şəki, Oğuz, Qəbələ, Qax, Zaqatala, Balakən | **04** |
| 4. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Zərdab** | Zərdab, Göyçay, Kürdəmir, Ucar | **08** |
| 5. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Şəki** | Şəki, Oğuz, Qəbələ, Qax, Zaqatala, Balakən | **9** |
| 6. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Şəki** | Şəki, Qax | **10** |
| 7. | **Baş prokuror** Kamran Əliyev | **Yevlax** | Yevlax, Mingəçevir, Ağdam, Goranboy, Naftalan, Tərtər | **11** |
| 8. | **Energetika naziri** Pərviz Şahbazov | **Ucar** | Ucar, Zərdab, Kürdəmir, Göyçay, Ağdaş | **11** |
| 9. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Ağcabədi** | Ağcabədi, Ağdam, Laçın | **11** |
| 10. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Astara** | Astara, Lənkəran, Lerik | **11** |
| 11. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Şəmkir** | Şəmkir, Gədəbəy | **11** |
| 12. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Oğuz** | Oğuz, Qəbələ | **11** |
| 13. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli, Beyləqan, Xocavənd | **17** |
| 14. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli, Beyləqan, Xocavənd | **18** |
| 15. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Tovuz** | Tovuz, Şəmkir, Ağstafa, Qazax, Gədəbəy | **18** |
| 16. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Ucar** | Ucar, Zərdab, Kürdəmir, Ağdaş, Göyçay | **18** |
| 17. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Bərdə** | Bərdə, Tərtər | **18** |
| 18. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **21** |
| 19. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Ağstafa** | Ağstafa, Qazax, Tovuz, Şəmkir | **21** |
| 20. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Yevlax** | Yevlax, Ağdaş | **21** |
| 21. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Oğuz** | Oğuz, Şəki, Qəbələ | **23** |
| 22. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **Ağstafa** | Ağstafa, Qazax | **25** |
| 23. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Gəncə** | Gəncə, Samux, Daşkəsən | **25** |
| 24. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Ağcabədi** | Ağcabədi, Ağdam, Laçın | **25** |
| 25. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Ağsu** | Ağsu, İsmayıllı, Qobustan, Şamaxı | **25** |
| 26. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Neftçala** | Neftçala, Salyan | **29** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 82** **Bakı şəhəri, 17 mart 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 823 (Cild I); 2024, № 1, maddə 77, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.4-cü bəndə "gömrük yığımları" sözlərindən sonra "(bu Sənədin 2.1-1-ci bəndində nəzərdə tutulan gömrük yığımları istisna olmaqla)" sözləri əlavə edilsin;

1.2. 2.1-ci bənddə "Malların" sözü "Bu Sənədin 2.1-1-ci bəndi nəzərə alınmaqla, malların" sözləri ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Bu Sənədin 2.1-ci bəndi ilə müəyyən olunmuş gömrük yığımlarına əlavə olaraq, aşağıdakı malların sərbəst dövriyyəyə buraxılış gömrük proseduru altında yerləşdirilməsinə görə müvafiq məbləğlərdə gömrük yığımları alınır:

2.1-1.1. xarici iqtisadi fəaliyyətin mal nomenklaturunun 7213 və 7214 mal mövqeyində təsnifləşdirilən "dəmirdən və ya aşqarlanmamış poladdan çubuqlar"ın

1 tonu üçün - 150 manat;

2.1-1.2. xarici iqtisadi fəaliyyətin mal nomenklaturunun 7010 90 100 0,

7010 90 310 0, 7010 90 410 0, 7010 90 430 0, 7010 90 450 0, 7010 90 470 0,

7010 90 510 0, 7010 90 530 0, 7010 90 550 0, 7010 90 570 0, 7010 90 610 0,

7010 90 670 0 alt yarımmövqelərində təsnifləşdirilən şüşə məmulatlarının 1 tonu üçün - 100 manat;

2.1-1.3. xarici iqtisadi fəaliyyətin mal nomenklaturunun 7005 10 050 0,

7005 10 250 0, 7005 10 300 0, 7005 10 800 0, 7005 21 250 0, 7005 21 300 0,

7005 21 800 0, 7005 29 250 0, 7005 29 350 0, 7005 29 800 0 alt yarımmövqelərində təsnifləşdirilən armaturlaşdırılmamış şüşələrin 1 tonu üçün - 100 manat.".

**2.** Bu Qərar 2025-ci il 1 aprel tarixindən qüvvəyə minir və 2026-cı il 1 yanvar tarixinədək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 83** **Bakı şəhəri, 17 mart 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 431 nömrəli Sərəncamının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469, № 7, maddələr 895, 915, № 8, maddə 996, № 12 (I kitab), maddə 1326 (II kitab), maddə 1428; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 6 mart tarixli 62 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın 13-cü hissəsinin beşinci abzası ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Neft-qaz sektoru ilin 2 ayında

## *Ötən dövrdə 4,5 milyon ton neft, 6,3 milyard kubmetr qaz çıxarılıb*

**Bu ilin yanvar–fevral aylarında Azərbaycanda əmtəəlik neft hasilatı 4 milyon 467,6 min ton (kondensatla birlikdə), əmtəəlik təbii qaz hasilatı isə 6 milyard 309,6 milyon kubmetr təşkil edib. Neft hasilatı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,2 faiz azalsa da, qaz hasilatı 0,1 faiz artıb. Bu barədə XQ-ya Energetika Nazirliyindən məlumat verilib.**

ton kondensat çıxarılıb. Ötən müddətdə Azərbaycanın yeni neft strategiyası çərçivəsində hasil edilmiş xam neftin və təbii qazın müvafiq olaraq 651,5 milyon tonu və 172,8 milyard kubmetri alternativ kəmərlər vasitəsilə ixraca nəql olunub.



Bildirilib ki, ümumi neft hasilatının 2,6 milyon tonu “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun, 0,6 milyon tonu (kondensat) “Şahdəniz” və 0,1 milyon tonu (kondensat) “Abşeron” yataqlarının payına düşüb. Hesabat dövründə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) üzrə neft hasilatı (kondensatla birlikdə) 1,2 milyon ton təşkil edib. Cari ilin fevral ayında gündəlik neft hasilatı (kondensatla birlikdə) 77,5 min ton (584 min barel) olub. Bunun 63,1 min tonunu (465 min barel) xam neft, 14,4 min tonunu (119 min barel) isə kondensat təşkil edib.

2025- ci ilin ilk 2 ayında 3,7 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun da 3,2 milyon tonu ölkədə fəaliyyət göstərən konsorsiumların, 0,4 milyon tonu SOCAR-ın, 0,1 milyon tonu isə “Abşeron” yatağının payına düşüb. Yeri gəlmişkən, cari ilin yanvar-fevral aylarında bu yataqda kondensat hasilatı əvvəlki ilin müvafiq dövrünə nisbətən 4 min ton və ya 4,2 faiz çox olub.

Ölkə üzrə neftin nəqli bu ilin ötən dövründə də ahəngdar rejimdə davam etdirilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-fevral aylarında Azərbaycanın magistral neft kəmərləri ilə 6 milyon 48,7 min ton “qara qızıl” nəql edilib. Nəqletmənin 4 milyon 429,5 min tonu və ya 73,2 faizi Bakı – Tbilisi – Ceyhan (BTC) əsas ixrac neft kəmərinin payına düşüb. Hesabat dövründə BTC kəməri ilə nəql edilmiş neftin 3 milyon 718 min tonunu və ya 83,9 faizini Azərbaycanda hasil edilən neft, 711,5 min tonunu və ya 16,1 faizini isə Türkmənistan və Qazaxıstandan daxil olan neft təşkil edib.

Energetika Nazirliyinin məlumatına görə, bu ilin ilk 2 ayında ölkədə 8,1 milyard kubmetr təbii qaz hasil edilib. Bunun da 2,2 milyard kubmetri “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun, 4,3 milyard kubmetri “Şahdəniz” və 0,3 milyard kubmetri “Abşeron” yataqlarının payına düşüb. Hesabat dövründə SOCAR-ın tabeliyində olan neftqazçıxarma müəssisələri tərəfindən 1,3 milyard kubmetr qaz çıxarılıb.

Yanvar-fevral aylarında ölkəmizdən 3,8 milyard kubmetr “mavi yanacaq” ixrac olunub. Bunun isə 1,9 milyard kubmetri Avropaya, 1,4 milyard kubmetri Türkiyəyə (o cümlədən TANAP-la 0,9 milyard kubmetr), 0,5 milyard kubmetri isə Gürcüstana satılıb. Yeri gəlmişkən, ölkəmizdən “köhnə qitə”yə qaz tədarükü 2020-ci il dekabrın 31-də Trans-Adriatik Qaz Boru Kəmərinin istismara verilməsi ilə başlanıb. Bununla da, Azərbaycanın Avropa İttifaqının təbbi qaz idxalındakı payı sürətlə artmağa başlayıb. Belə ki, 2021-ci ildə ölkəmizdən Avropanın qaz bazarlarına 8 milyard kubmetr “mavi yanacaq” ixrac edilib ki, bu da ümumi idxalın 3 faizinə bərabər olub. Hazırda isə bu göstərici 7 faizə yüksəlib.

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, cari ilin ötən dövründə ölkəmiz təbii qaz ixracından 1,55 milyard ABŞ dolları gəlir əldə edib. Ümumilikdə isə, qaz ixracı ötən ilin eyni dövrü ilə müqayisədə həcm ifadəsi ilə 234 milyon kubmetr və ya 5,9 faiz, dəyər ifadəsi ilə 91 milyon dollar və ya 6,2 faiz artıb.

Bir məqamı da qeyd edək ki, 1997-ci ilin noyabr ayında “Çıraq” yatağından ilkin neftin hasilatına başlanıldığı vaxtdan bu il martin 1-dək “Əsrin müqaviləsi” çərçivəsində 604,2 milyon ton neft və 232 milyard kubmetr səmt qazı hasil olunub. “Şahdəniz” yatağından hasilata başlanıldığı 2006-cı ilin sonlarından isə indiyədək 241 milyard kubmetr qaz və 49,3 milyon ton kondensat çıxarılıb.

Qeyd edək ki, hazırda Azərbaycandan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri ilə “Azəri–Çıraq–Günəşli” yataqlar blokundan hasil edilən neft və “Şahdəniz” yatağından çıxarılan kondensat nəql olunur. Bundan əlavə, sözügedən boru kəməri ilə Türkmənistan və Qazaxıstan nefti də daşınır. Azərbaycanın təbii qaz həcmləri isə Cənubi Qafqaz Boru Kəməri (Bakı–Tbilisi–Ərzurum) və Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) vasitəsilə Türkiyə bazarına çatdırılır. Bakı–Tbilisi–Ərzurum kəməri ilə ilk qaz Türkiyə bazarına 2007-ci ildə daxil olub. TANAP vasitəsilə Türkiyəyə kommersiya qazının nəqlinə isə 2018-ci il iyunun 30-da başlanıb. Türkiyəyə Azərbaycanın “Şahdəniz” yatağından hasil edilən təbii qaz nəql olunur.

Bununla yanaşı, cari ilin yanvar-fevral aylarında Azərbaycandan xaricə 111 min ton neft məhsulları (xam məhsullardan başqa, bitumlu süxurlardan alınmış neft və neft məhsulları; tərkibində neft və ya neft məhsullarının miqdarı 70 kütlə faiz və ya daha çox olan məhsullar) satılıb. Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, bu miqdarda məhsulun ixracından əldə olunan gəlir 49,6 milyon ABŞ dolları olub. Neft məhsullarnın ixracı ötən ilin eyni dövrü ilə müqayisədə miqdar ifadəsi ilə 51 min ton və ya 84,2 faiz, dəyər ifadəsi ilə 14,1 milyon dollar artıb. Xatırladaq ki, ötən ilin eyni dövründə Azərbaycandan xaricə 35,5 milyon dollar dəyərində 60 min ton neft məhsulları satılıb.

İlin ötən dövründə neft sənayesinin emal kompleksi də uğurlu fəaliyyətini davam etdirib. Energetika Nazirliyinin məlumatına əsasən, yanvar-fevral aylarında ölkədə 1,2 milyon ton xam neft emal edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 100 min ton və ya 9,1 faiz çoxdur.

# ABŞ-ın neft nəhəngi ilə yeni əməkdaşlıq müzakirəsi




**Energetika naziri Pərviz Şahbazov və “ExxonMobil” şirkətinin vitse-prezidenti John Ardill arasında görüş keçirilib. Söhbət zamanı ABŞ şirkəti ilə “Azəri–Çıraq–Günəşli” və Bakı–Tbilisi–Ceyhan layihələri üzrə uzunmüddətli əməkdaşlıq əlaqələrindən məmnunluq ifadə edilib. Yeni əməkdaşlıq imkanları, şirkətin qlobal təcrübəsi və planları ilə bağlı məsələlər də nəzərdən keçirilib.**

Vitse-prezident John Ardill metan emissiyalarının, əməliyyat xərclərinin azaldılması, hasilatın artırılmasını təmin edən müasir texnologiyaların tətbiqi ilə həyata keçirilən layihələr, eləcə də karbohidrogen sektorunda enerji təchizatının elektrikləşdirilməsi və hidrogenin inkişafı istiqamətində görülən işlər barədə məlumat verib.

Pərviz Şahbazov ölkəmizin enerji balansında neft, qaz, bərpaolunan enerjinin yer almasını təşviq edən enerji siyasətindən söhbət açıb. Nazir müxtəlif marşrutları əhatə edən “yaşıl” enerji dəhlizləri və ümumi istehsalda bərpaolunan enerjinin payının 2030-cu ildə 35,5 faizə çatdırmağı hədəfləyən layihələrindən bəhs edib. Bildirilib ki, Xəzər dənizinin Azərbaycan seqmentindəki külək enerjisi potensialı Avropa ölkələrinin enerji ehtiyaclarını qarşılamaq üçün alternativ bir mənbə kimi təklif olunur. Bərpaolunan enerjinin daha da inkişaf etdirilməsi məqsədilə batareya sistemləri və saxlama texnologiyalarına diqqət yetirilir. Həmçinin hidroakkumulyasiya sistemləri üzərində işlər aparılır.

Görüş zamanı müasir enerji reallıqları və enerji təhlükəsizliyi ilə bağlı qlobal çağırışlar barədə də fikir mübadiləsi aparılıb.

# Zəngəzur dəhlizi – dünyaya qapı

## *Bu yol Orta Dəhlizdə daşımaları 10-12 milyon ton artıracaq*



**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nəqliyyat siyasəti şöbəsinin aparıcı məsləhətçisi Aytən Turabova “Azərbaycan – transkontinental meqa marşrutların “Şərq–Qərb” və “Şimal–Cənub” kəsişmə nöqtəsində” mövzusunda keçirilən dəyirmi masada bildirib ki, Orta Dəhlizlə (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, TBNM) yük daşımalarının həcmini 11 milyon tona çatdırmaq üçün həm infrastrukturun modernləşdirilməsini, həm də logistika proseslərinin səmərəliliyinin artırılmasını əhatə edən tədbirlər kompleksi həyata keçirilməlidir.**

Mütəxəssis qeyd edib ki, Şərq–Qərb və Şimal–Cənub dəhlizlərinin inkişafı Azərbaycanın qarşısında duran strateji vəzifələrdən biridir. 2030-cu ilə qədər Orta Dəhlizlə yük daşımalarının həcmi 11 milyon tona çata bilər. Bunun üçün fiziki infrastrukturun yaxşılaşdırılması və logistika proseslərinin səmərəliliyinin artırılması da daxil olmaqla həm “sərt”, həm də “yumşaq” infrastrukturun inkişafı üzrə tədbirlər görmək zəruridir. Aparıcı məsləhətçi daha sonra vurğulayıb ki, Azərbaycan nəqliyyat marşrutlarının strateji önəmini yüksək dəyərləndirərək, 20 ildən artıq bir müddətdə sözügedən infrastrukturun inkişafına ardıcıl surətdə sərmayə qoyur.

Nazirlik əməkdaşı onu da bildirib ki, hazırda Horadiz–Ağbənd dəmir yolu layihəsinin ikinci mərhələsi həyata keçirilir. Bu dəmir yolu xüsusi əhəmiyyət kəsb edir, çünki birbaşa Zəngəzur dəhlizi ilə əlaqəli olacaq və Naxçıvan Muxtar Respublikasının Türkiyə ilə birbaşa bağlantısını təmin edəcək. Hesablamalara görə, Zəngəzur dəhlizinin açılması Orta Dəhlizin ötürmə qabiliyyətini 10-12 milyon ton artırmağa imkan verəcək.

Yeri gəlmişkən, yuxarıda adıçəkilən dəyirmi masada ötən il ölkə ərazisində tranzit yükdaşımaların həcmində artım müşahidə edildiyi tranzit yükdaşımaların həcminin 14,5 milyon tona çatdığı (baza ili hesab edilən 2019-cu illə müqayisədə 2,5 dəfə çox) yüksək qiymətləndirilib. Bu göstəricinin 4,5 milyon tonu Orta Dəhliz üzərindən daşınıb ki, burada da, 7 faizlik artım müşahidə olunub.

Qeyd edək ki, Orta Dəhliz regionun bir neçə ölkəsindən keçən, Asiya ilə Avropanı birləşdirən nəqliyyat və ticarət yoludur. Bu, ənənəvi Şimal və Cənub dəhlizlərinə alternativ yoldur.

Marşrut Çindən başlayır və Qazaxıstan, Özbəkistan və Türkmənistan kimi Mərkəzi Asiya ölkələrindən keçir. Daha sonra Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyəni keçərək Avropaya çatır. Orta Dəhliz Asiyanın şərq hissələrini, o cümlədən, Çini Avropa ilə birləşdirən, daha uzun dəniz yollarından yan keçən quru marşrutu təmin edir.

# Sumqayıt Sənaye Parkında 6,4 min iş yeri yaradılıb



**İqtisadi Zonaların İnkişafı Agentliyin məlumatına görə, Cənubi Qafqazın ən böyük sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkında 2015–2024-cü illər ərzində 13,2 milyard manatlıq məhsul istehsal edilib və dünyanın 70-dən artıq ölkəsinə 4,6 milyard manatlıq ixrac həyata keçirilib.**

Bildirilib ki, Sumqayıt Kimya Sənaye Parkı fəaliyyətə başlayandan indiyədək parkın daxilindəki müəssisələrə 5,5 milyard manatdan çox investisiya yatırılıb, 6400 daimi iş yeri yaradılıb. Bu il sənaye parkında 5-dən çox müəssisənin fəaliyyətə başlaması nəzərdə tutulub. Fəaliyyətə başlayacaq müəssisələrdə elektrik mühərrikli avtobusların, yüngül, orta və ağır tonnajlı yük avtomobillərinin, tikinti kimyəvilərin, inşaat materiallarının və aqrosənaye məhsullarının qablaşdırılması üzrə karton kağızın və s. məhsulların istehsalının reallaşdırılması planlaşdırılıb. Qeyd edək ki, 613 hektar ərazini əhatə edən Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Prezidentinin 2011-ci il 21 dekabr tarixli fərmanı ilə yaradılıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən vacib istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafıdır. İqtisadiyyatın inkişaf vektorlarının dayanıqlı mənbələr hesabına qlobal çağırışlara uyğunlaşdırılması qeyri-neft sənayesinin gücləndirilməsinin önəmini artırır. Buna görə də mövcud təbii və iqtisadi resurslardan səmərəli istifadə olunması, innovativ metodların cəlb edilməsi ilə sənaye istehsalının artırılması, yeni sənaye sahələrinin yaradılması, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli məhsul istehsalı, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli layihələr gerçəkləşdirilir.

Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi məqsədilə uğurlu sənayeləşmə siyasəti həyata keçirilir. Bu məqsədlə ölkənin müxtəlif bölgələrində sənaye parkları və məhəllələri yaradılır. Sənaye zonaları sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, biznesin innovativliyinin və səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsul istehsalında, qeyri-neft sektorunun inkişafında və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm amilə çevrilir.

Hazırda ölkədə 8 sənaye parkı fəaliyyət göstərir. Bunlar Sumqayıt kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Hacıqabul, Ağdam və Cəbrayıl rayonunda yerləşən “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarıdır. Bunlarla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərurda 4 sənaye məhəlləsi də fəaliyyət göstərir.

Sənaye zonalarında sahibkarlığın inkişafına əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlərin tətbiqi diqqətdə saxlanılıb. Belə ki, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla – qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilir. Onlar qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunur.

Bundan başqa, işğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma aiddir.

# Sənaye zonalarına yatırım artır

**İqtisadiyyat naziri Mikayıl Cabbarov “X” sosial şəbəkəsindəki hesabında 2021–2024-cü illər ərzində ölkənin sənaye zonalarına 748 milyon manata yaxın investisiya yatırıldığını bildirib.**

Nazir qeyd edib ki, bu illər ərzində 865 daimi iş yeri yaradılıb. İndiyədək 11,68 milyard manatlıq məhsul satılıb, bunun 4,08 milyard manatlıq hissəsi ixracdır.

Sənaye zonalarının fəaliyyəti ölkə iqtisadiyyatının şaxələndirilməsinə, investisiyaların cəlb edilməsinə, yeni iş yerlərinin yaradılmasına, yerli istehsalın və ixracın artmasına, eləcə də innovasiyaların təşviqinə töhfələr verir.




*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Qərbi Azərbaycan məsələsi tarixi yaddaş və aktual geosiyasi faktor kimi



## Tarixi ədalətsizlik nümunəsi

Müasir dönəmdə Qərbi Azərbaycan məsələsini dövlət səviyyəsində gündəmə ilk olaraq ulu öndər Heydər Əliyev gətirmişdir. Əlbəttə, Qərbi azərbaycanlılar həmişə o diyarı Vətən, yurd saymışlar və buna tam haqları da vardır. Çünki məhz Azərbaycan türkləri indi "Ermənistan" adlanan torpaqlarda aborigendirlər. O yurdun əsl tarixi sahibləri azərbaycanlılardır. Ancaq müasir tarixi şəraitdə xüsusi əhəmiyyətli məsələləri dövlət səviyyəsində həll etmək mümkün olur. Qərbi Azərbaycan məsələsi isə öncə çar Rusiyası, sonra isə sovetlər tərəfindən tam tərsinə təqdim edilmişdir – guya oraların əsl sahibləri ermənilərdir və azərbaycanlıları oradan didərgin salmaq "qanunidir", "hüquqidir".

İki yüz ildən çox Qərbi Azərbaycan və oranın əsl sahibləri bu tarixi ədalətsizliyin sıxıntıları və problemləri içində yaşamalı oldular. Lakin bu cəsur və mübariz türklər (azərbaycanlılar) mənəviyyatlarında və mədəniyyət nümunələrində Qərbi Azərbaycanı Vətən, yurd, əbədi məskunlaşma yeri kimi hər zaman yaşatdılar. Keçən əsrin 90-cı illərinin əvvəllərində isə SSRİ-nin dağılması, bir tərəfdən, yüzminlərlə Qərbi azərbaycanlı üçün fəlakət oldu, digər tərəfdən isə Azərbaycanın şimal hissəsində müstəqil Azərbaycan dövlətinin yaranması ilə özünü təsdiqləməsi üçün tarixi şans əldə etdi.

Əlbəttə, bu, çox həssas məsələ idi. Dünyanın və regionun çox qarışıq bir durumunda incə diplomatiya ilə Qərbi Azərbaycan məsələsini aktuallaşdırmaq lazım idi. Bu işi Ulu öndər addım-addım həyata keçirməyə başladı.

Öncə, Qərbi azərbaycanlıların Azərbaycanda normal vətəndaş kimi yaşaması şərtləri ödənildi. Buna paralel olaraq, onların yurdlarına qayıdışının ardıcıl həyata keçirilməsi prosesinə start verildi. Bunun üçün, təbii ki, Azərbaycan ərazi bütövlüyünü tam bərpa etməli və suverenliyinə nail olmalı idi.

2020-ci ilin və 2023-cü ilin payızı bu tarixi müjdəni bütün Türk dünyasına bəyan etdi. Azərbaycan Respublikasının ərazisi tam bərpa olundu və eyni zamanda, suverenliyini də tam təmin etdi. Bununla əsası Ulu öndər tərəfindən qoyulan Qərbi Azərbaycan siyasəti özünün yeni səviyyəsinə yüksəldi. Onun tarixi, siyasi, geosiyasi, sosial, demoqrafik, ərazi, milli-mənəvi dəyəri böyükdür. Onları bir yazıda əhatə etmək imkansızdır. Lakin dövlət siyasətinin mühüm prioriteti kimi siyasi-diplomatik xüsusiyyətləri nəzərə almaqla əsas məqamlar üzərində dayanmaq olar.

## Yeni dönəmdə ilk mərhələ

2020-2023-cü illərdə Qərbi Azərbaycan məsələsi yeni tarixi mərhələdə Azərbaycanın dövlət siyasətinin prioritet faktorlarından biri kimi yeni məzmun çalarları almağa başladı. Prezident İlham Əliyev bu prosesi milli maraqlara söykənən siyasi kurs çərçivəsində bir neçə istiqamətdə reallaşdırmağa başladı. Politoloji baxımdan onun bir sıra əsas xüsusiyyətlərini vurğulamaq yerinə düşərdi.

Hər şeydən öncə, Prezident İlham Əliyev Qərbi Azərbaycan məsələsini müasir dövlətçilik tariximizdə ilk dəfə olaraq dövlət quruculuğu kontekstində tarixi ədalət naminə ərazi bütövlüyünün, suverenlik və təhlükəsizliyin təmini ilə vahid sistemdə birləşdirdi. Bu keçidin tarixi əhəmiyyəti çox böyükdür. Onun tam dərki zamanla baş verəcəkdir. Lakin indidən aydındır ki, həmin proses mürəkkəb və çoxşaxəlidir. Məhz bu nöqteyi-nəzərdən Qərbi Azərbaycan məsələsi bir neçə istiqamətdə prioritet məzmun və mənaya malikdir.

Həmin kontekstdə ikinci xüsusiyyət Qərbi Azərbaycan məsələsinin dövlət siyasəti səviyyəsində Qayıdış Konsepsiyasının tərkib hissəsi kimi təqdimatının aktuallaşmasından ibarətdir. Onun da bir sıra rəmzi mənaları vardır. Bura hüquqi, siyasi, ideoloji, sosial, tarixi və geosiyasi aspektlər daxildir. Belə ki, Qərbi Azərbaycana qayıdış müasir beynəlxalq hüquq normaları müstəvisində rəmzi mahiyyətlidir. Yəni Azərbaycan sivil və hüquqi dövlət kimi beynəlxalq miqyasda tanınmış hər hansı ərazini zəbt etmək üçün çalışmır.

Bununla yanaşı, Azərbaycan xalqı öz tarixini yaxşı bilir. Və məsələyə tarixi rakursdan nəzər saldıqda, "İrəvan qədim Azərbaycan torpağıdır", "Göyçə Azərbaycandır" və digər tezislər səsləndirilə bilər. Bu, Qərbi Azərbaycan məsələsinin azərbaycanlı və milli dövlətçilik üçün xüsusi incə məna daşıdığını ifadə edir. Daha konkret desək, hər bir azərbaycanlı şüurunda, duyğusunda, emosiyasında və dünyagörüşündə "Qərbi Azərbaycan əbədi Vətəndir" məqamını gerçəklik kimi daşımalıdır! Gələcək nəsillər məhz bu ruhda tərbiyə edilməlidir!

Bunları azərbaycanlılar aqressiv olmaq, kimlərinsə hüququnu pozmaq naminə deyil, obyektiv Vətən obrazını ideyaya çevirmək üçün etməlidirlər. Eyni məntiqlə Azərbaycan dövləti xarici siyasətində həmin özəlliyi ciddiyyətlə nəzərə almalıdır.

Qərbi Azərbaycan məsələsinin üçüncü xüsusiyyəti dövlətçilik məsələsi olaraq siyasi, informasiya və ideologiya aspektlərinin sintezindən ibarətdir. Bu, həmin problemin sistemli və çoxşaxəli həllini daim aktual, gündəmdə saxlamaq zərurətini ortaya qoyur.

Qərbi Azərbaycan məsələsinin vurğulanan xüsusiyyətlərinin yaranması daha geniş kontekstdə baş verən proseslərlə birbaşa əlaqəlidir. Həmin proseslər İkinci Qarabağ müharibəsindən sonra regionda müşahidə edilən geosiyasi və təhlükəsizlik problemləri ilə sıx bağlıdır. Bu sırada üç vacib məqam üzərində dayanmaq istərdik.

Birinci məqam 2022-ci il dekabrın 24-də dövlət başçısı İlham Əliyevin Qərbi Azərbaycandan olan ziyalılarla tarixi görüşü ilə əlaqəlidir.

İkinci məqam 2024-cü il dekabrın 5-6-da Bakıda Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Qayıdış hüququ – Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II Beynəlxalq konfransın keçirilməsi ilə bağlıdır.

Üçüncü məqam 2024-cü ilin sonu – 2025-ci ilin əvvəllərindən qlobal və regional miqyasda özünü göstərən geosiyasi proseslərin yeni çalarlarının Azərbaycan rəhbərliyi tərəfindən qiymətləndirilməsidir. Əlamətdardır ki, həmin qiymətləndirmələrdə Qərbi Azərbaycan məsələsi çox ciddi arqument kimi yer almışdır.




## Yeni dönəmin başlanğıcı

Bu görüş müasir tariximizdə Qərbi Azərbaycan məsələsinə dövlət səviyyəsində olan münasibət baxımından dönüş məqamı oldu. Orada Prezident İlham Əliyev problemin siyasi, tarixi, hüquqi, ideoloji və dövlətçilik aspektlərini vahid yanaşma müstəvisində təqdim etmişdir.

Azərbaycan Prezidenti Qərbi Azərbaycan məsələsinin strateji əhəmiyyətini ön sıraya qoymuşdur. Dövlət başçısı Qərbi Azərbaycan İcması üçün ayrılımış binanın rəmzi məna daşıdığını ifadə etmişdir. Onun mahiyyətini Prezident belə izah etmişdir: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".

Yəni, Qərbi Azərbaycan İcmasının strateji məqsədi və hədəfi birmənalı olaraq Qərbi azərbaycanlıların öz yurdlarına qayıtmasıdır. Deməli, Qərbi Azərbaycan məsələsinin strateji hədəfi Böyük Qayıdışdır. Ancaq bu, hər şeydən öncə, ruhən, mənən, mədəniyyətcə tarixən qayıdış olsa da, həm də insanların dədə-baba torpaqlarına fiziki olaraq qayıdışı olmalıdır. Göyçədən, Zəngəzurdan, Dərələyəzdən didərgin salınmış milyonlarla soydaşımızın sivil qaydada beynəlxalq hüquq normaları çərçivəsində qayıdışına nail olunmalıdır! Qərbi azərbaycanlıların böyük coşqu və həvəslə bunu edəcəyinə dövlətin başçısı, ölkənin lideri tam əmindir!

İlham Əliyev bu əminliyin səbəbini də izah edir. Deyir ki, Qərbi Azərbaycan tarixi torpaqlarımız, doğma diyarımızdır! Və bu tezisi konkret tarixi faktlarla sübut edir!

## Qərbi Azərbaycan tarixi yaddaşdır

Prezident İlham Əliyev həmin görüşdə ifadə etmişdir: "Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır. Bu gün Zəngilan rayonunun Ağalı kəndinin nümunəsi bunu deməyə əsas verir. Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda, uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil. Yəni bu, xalqımızın xüsusiyyətidir, torpaq həmişə çəkir. Əminəm ki, Qərbi azərbaycanlılar da bu fikirlə, bu arzu ilə yaşayırlar".

Göründüyü kimi, Prezident İlham Əliyev Qərbi Azərbaycanın tarixi yaddaş olmasını xalqın qədimdən gələn başlıca mənəvi, mədəni və intellektual özəllikləri ilə ölkə, Vətən və dövlət sevgisinin sintezində təqdim edir. Nə qədər haqsızlıq və ədaləsizlik etsələr də, insanlara zülm edərək öz yurdlarından didərgin salsalar da, azərbaycanlının qan yaddaşı, öz kökünə və vətəninə bağlılığı qətiyyən azalmır. Başqa yerdə yaşasa da, daxili dünyası onu yurduna çəkir. Buna görə də Qərbi azərbaycanlılar öz yurdlarına mütləq dönəcəklər!

## ...Tarixi torpağımızdır

Azərbaycan Prezidenti tarix, siyasət və ölkə obrazının yaradılması baxımından çox əhəmiyyətli bir tezisi bəyan etmişdir: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir… XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb".

Bu gerçəkliyi Azərbaycan xalqı bilir. Azərbaycan xalqı onu da bilir ki, "ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var".

Ancaq, bu, problemin bir tərəfidir. Çünki bütün dünya ictimaiyyətinin bunları real faktlar kimi qəbul etməsi gərəkdir. Məhz bu baxımdan Qərbi Azərbaycan məsələsi həm dövlət səviyyəsində prioritet problemdir, həm də cəmiyyət üçün olduqca aktualdır. Həmin əsasda da Qərbi Azərbaycanla bağlı fəallığın artırılması çox vacibdir. Buna görə də "indi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır".

Qərbi Azərbaycan İcmasının bu prosesdə fəal iştirak edəcəyinə olan inamını dövlət başçısı, ümumiyyətlə, Azərbaycan xalqının malik olduğu mübarizlik, Vətən sevgisi, torpağa bağlılıq kimi məziyyətlərlə əsaslandırır: "Xalqımız əsrlər boyu öz hüquqlarını qorumaq üçün, öz tarixi torpaqlarında yaşamaq üçün böyük fədakarlıq göstərmişdir". Bu proses böyük faciələrin sınağından keçərək bu günə qədər cəmiyyəti möhkəmlətmiş, onu daha mübariz və məqsədyönlü etmişdir. Bizim əsas vəzifələrimizdən biri də həmin sınaqlardan lazımi ibrət dərsi çıxarmaqdır.

Nəhayət, XX əsrin son onilliyində "Qarabağın və Şərqi Zəngəzurun işğalı növbəti faciəmiz idi". Bununla Qərbi Azərbaycanın tarixi torpaqlarımız olaraq, ümumiyyətlə, siyasi və tarixi mövcudluğu böyük risk altına düşmüş oldu. Qərbi Azərbaycan müasir mərhələdə Azərbaycan dövlətçiliyinin Qarabağı da əhatə edən, Naxçıvan istiqamətində ciddi aktuallıq kəsb edən prinsipial məsələsinə çevrildi. Borçalı, Dərbənd Cənubi Qafqaz istiqamətində prinsipial məna kəsb edir. Bütün bunlara kompleks halda yanaşılması üçün Qərbi Azərbaycan məsələsi açar faktor rolunu oynayır. Qarabağ və Şərqi Zəngəzurun davamlı inkişafı və təhlükəsizliyini təmin etmək üçün Qərbi Azərbaycan məsələsi həll edilməlidir. Oradan Naxçıvana çıxış görünür. Bunların fonunda isə Türk dünyasının birliyi üçün geniş imkanlar açılır.

Qərbi Azərbaycanın tarixi torpaqlarımız olması kontekstində dövlət başçısı bir mühüm məqamı aşağıdakı kimi xarakterizə etmişdir: "Hesab edirəm ki, icmanın bundan az əhəmiyyət kəsb etməyən beynəlxalq müstəvidə fəaliyyəti olmalıdır". Bu göstəriş icmanın məsələ ilə bağlı fəaliyyətinin mühüm bir cəhətini formalaşdırmışdır.

## Beynəlxalq fəaliyyət

Yuxarıda vurğulanan əsas məsələlərin fonunda "Qayıdış hüququ – Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II Beynəlxalq konfransın keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyev konfrans iştirakçılarına ünvanladığı müraciətdə Qərbi Azərbaycan məsələsinin beynəlxalq kontekstdə aktuallığını əsaslandırmışdır: "Hazırda dünyada 120 milyondan çox insan məcburi köçürülmə problemi ilə qarşılaşmışdır və beynəlxalq ictimaiyyətin birgə səyləri olmadan bu problemin effektiv həlli mümkünsüzdür".

Buradan Qərbi Azərbaycandan deportasiya edilənlərə beynəlxalq dəstəyin zəruriliyi tam aydın olur və bu, mübahisəsiz qəbul olunmalıdır. Çünki "Azərbaycan xalqı da ötən əsrin əvvəllərindən başlayaraq köçkünlük problemi ilə üzləşmişdir. Qərbi Azərbaycanda – indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq tarixi vətənlərindən mərhələli şəkildə zorla çıxarılmışlar. 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə daha dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınmışdır. Bu dəhşətli deportasiyalardan sonra Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamış və Ermənistan monoetnik dövlətə çevrilmişdir".

İndiki Ermənistanın bu gerçəkliyə münasibətinin iki əlamətini dövlət başçısı xüsusi vurğulamışdır. Onlardan biri Ermənistanın "Azərbaycan xalqının əsrlər boyu öz dədə-baba torpaqlarında yaşaması və zəngin mədəni irs yaratması faktını hər vəchlə danması"dır. Digəri isə "Qərbi Azərbaycanda xalqımızın min illər ərzində yaratdığı mədəni irsi – tarixi abidələri, qəbiristanlıqları, məscidləri, tarixi yaşayış yerlərini dağıtmasıdır". Eyni zamanda, Ermənistan qədim Azərbaycan toponimlərini dəyişərək tarixin izlərini itirməyə çalışmaqda davam edir.

Bütün bunlar Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdış hüququnun təbii olduğunu göstərir. Qərbi Azərbaycan İcması, bütövlükdə, bu istiqamətdə fəaliyyətini genişləndirir. Müxtəlif kontekstlərdə Qərbi Azərbaycan məsələsini qlobal gündəmə gətirir. Təsir dairəsi getdikcə genişlənən bu proses dinamik inkişaf edir. Onun 2025-ci ildən başlayaraq yeni vüsət aldığı müşahidə edilir.

## Yeni qlobal geosiyasi proseslər və Qərbi Azərbaycan məsələsi

Donald Trampın yenidən Prezident seçilməsindən sonra dünya miqyasında bütün regionlara təsir edən proseslər başlanmışdır. Burada ziddiyyətlər çoxdur. Məsələn, ABŞ-la Avropa arasında fikir ayrılığının dərinləşməsi, Amerika–Rusiya münasibətlərində gözlənilməz məqamların özünü göstərməsi, Cənubi Qafqaz istiqamətində dünya güclərinin daha da fəallaşması və digər proseslər ümumi mənzərəyə ciddi təsir etməkdədir. Bunun fonunda isə Azərbaycan–Ermənistan münasibətlərində yeni məqamların meydana gəlməsi istisna edilmir. Əlbəttə, Qərbi Azərbaycan məsələsi kontekstində də bu gedişat diqqət çəkir.

Artıq Azərbaycan rəhbərliyi bütövlükdə yeni geosiyasi mənzərəyə qiymət vermişdir. Prezident İlham Əliyev martın 13-də Bakıda keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" Forumundakı nitqində müasir geosiyasi mənzərəni dəqiqliklə qiymətləndirərək yeni vəziyyətin formalaşdığını bəyan etmişdir. Rəsmi Bakı, hər şeydən öncə, qütbləşmənin artdığın vurğulayır. Bu proses dünya miqyasında böyük güclərin qarşıdurmasını dərinləşdirir və yeni risklər yaradır. Bunun fonunda "parçalanma meyilləri və Şərq-Qərb qarşıdurmasının dərinləşməsi nəzərə çarpır" (Hikmət Hacıyev). Bu, Azərbaycan da daxil olmaqla, region dövlətlərinin maraqlarına zidd olan situasiya yarada bilər. Bütövlükdə isə "Qlobal güclər arasında parçalanmanın dərinləşməsi çoxqütblülüyü zəiflədir" (Ceyhun Bayramov).

Beləliklə, son geosiyasi hadisələr həm dünya, həm də region miqyasında vəziyyəti daha həssas etməkdədir. Gözlənilməz proseslərin meydana çıxması istisna edilmir. Cənubi Qafqaz da istisna deyildir. Lakin nə olursa-olsun, Azərbaycan iki fəaliyyət istiqamətindən imtina etmək fikrində deyildir.

**Birincisi,** Cənubi Qafqazda sülh quruculuğuna davam edəcək.

**İkincisi,** "Ermənistanın işğalı və təcavüzü nəticəsində Azərbaycan xalqının çəkdiyi əzab-əziyyətləri yaddan çıxara bilmərik və çıxarmayacağıq... 65 məscid dağıdılıb və nəinki azərbaycanlıların, o cümlədən bütün dünya müsəlmanlarının hisslərini təhqir etmək üçün orada donuz və mal saxlayıblar. Biz bunu yaddan çıxarmayacağıq".

Deməli, Qərbi Azərbaycan məsələsi də bütün aktuallığı ilə Azərbaycan dövlətinin diqqət mərkəzində qalmaqda davam edəcək. Qərbi azərbaycanlıların öz yurdlarına qayıtması dövlətin prioritetlərindən biri olaraq qalacaq. Bunun fonunda son zamanlar Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinn imzalanması ehtimalının artması ümidvericidir. Azərbaycan tarixi ədaləti və tarixi faktları rəhbər tutaraq addım-addım Zəngəzur dəhlizinin açılışna yaxınlaşır. Eyni zamanda, Qərbi azərbaycancanlıların yurdlarına dönməsi məqamı da üfüqdə görünməkdədir.

*Kamal ADIGÖZƏLOV*

# Novruz gəlir, yaz gəlir – yurda xoş avaz gəlir

## Bayram şənlikləri paytaxta bol sevinc, yeni gözəllik gətirib

**Neçə gündür ki, Bakının hər yerində xalqımızın ən əziz və sevimli bayramı olan Novruz geniş və coşqu ilə qeyd edilir. Bu münasibətlə Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Bizim həyat" layihəsi çərçivəsində yaradılan məhəllələrdə şənliklər keçirilib.**



Dünən Bakıda metronun "Gənclik" stansiyasının yaxınlığında Vaqif prospekti, Ceyhun Hacıbəyli, Şəmsi Rəhimov və Nəsib bəy Yusifbəyli küçələrinin kəsişməsində bu yaxınlarda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən açılışı həyata keçirilən yeni istirahət parkında bu parkın rəhbərliyi və "Regional İnkişaf" İctimai Birliyi ilə birgə Bakı sakinləri və şəhərimizin çoxsaylı qonaqları, həmçinin uşaq evlərinin balaca sakinləri üçün möhtəşəm Novruz şənliyi təşkil edilib.

Paytaxtın ayrı-ayrı rayonlarında, idarə və təşkilatlarda, ali təhsil ocaqlarında da bayram təntənələri olub.

### Binəqədi rayonu



**Novruz ərəfəsində Binəqədi rayonunun bütün ərazilərində parklar bayramsayağı bəzədilib, səmənilər quraşdırılıb.**

Şənliklər silsiləsinin yekun tədbiri 7-ci mikrorayon, Abay Kunanbayev, 66 ünvanında Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Bizim həyat" layihəsi çərçivəsində yaradılan məhəllədə keçirilib. Bayram tədbirində rayon rəsmiləri, YAP fəalları, deputatlar, hüquq-mühafizə orqanlarının əməkdaşları, məhəllə sakinləri iştirak ediblər. Xüsusi olaraq ayrılmış sahədə Novruz adət-ənənələri nümayiş etdirilib. İştirakçılar bayramı yüksək sevinc hissi ilə qeyd ediblər. Müğənnilərin ifasında müxtəlif mahnılar səslənib, Novruzun əsas personajları olan Kosa, Keçəl və Bahar qızı toplaşanları şənləndirib və bayram tonqalının ətrafında sakinlərlə birgə rəqs ediblər.

Qədim ənənələrimizin canlandırıldığı şənlikdə ululuq və ağsaqqallıq rəmzi sayılan Dədə Qorqud bayram tonqalını qalamaqla bu şad gündə el-obanı birliyə, həmrəyliyə səsləyib. Hazırlanan müxtəlif növ bayram şirniyyatları tədbir iştirakçılarına təklif olunub.

### Milli Oftalmologiya Mərkəzi



**Səhiyyə Nazirliyi və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin birgə təşəbbüsü ilə mərkəzin avtomobil səyyar klinikası İlaxır çərşənbə günü Mərdəkan qəsəbəsindəki 1 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün Sosial Xidmət Müəssisəsində tibbi aksiya keçiriblər.**

Aksiya çərçivəsində 50-yə yaxın uşaq oftalmoloji müayinəyə cəlb olunub. Uşaqlarda miopik astiqmatizm, allergik konyunktivit və digər göz xəstəlikləri aşkarlanıb. Müayinə zamanı ehtiyacı olan uşaqlar üçün dərman vasitələri verilib.

Novruz bayramı münasibətilə uşaqlar üçün şənlik təşkil edilib, bayram süfrəsi açılıb və onlara sovqatlar çatdırılıb. Keçəl və Kosa personajlarının iştirakı ilə keçirilən bu şənlik uşaqlara sevinc bəxş edib və bayramın ənənəvi ruhunu yaşadıb. Rəngarəng dekorasiyalar, bayram mahnıları və əyləncəli oyunlarla müşayiət olunan bu şənlik uşaqlar üçün unudulmaz anlar yaşadıb. Onlar Novruzun əsas atributları olan səməni, boyanmış yumurtalar və şirniyyatlarla bəzədilmiş süfrə ətrafında toplaşaraq bayramın ruhunu hiss ediblər.

Müəssisənin direktoru Sevinc Məlikova göstərilən tibbi dəstəyə, eyni zamanda, təşkil edilən bayram şənliyinə görə təşəkkürünü bildirib.

### PAŞA Holdinq

**Xeyriyyəçilik ənənəsini davam etdirən "PAŞA Holding" və "Bravo" supermarketlər şəbəkəsi "Vətən əmanətlərin keşiyindədir" layihəsi çərçivəsində şəhid ailələrinə Novruz bayramı münasibətilə sovqatlar çatdırıb.**

2023-cü ildən etibarən "PAŞA Holding" 44 günlük Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın 18 yaşadək olan övladları üçün sosial dəstək proqramı həyata keçirir. Proqram çərçivəsində Yeni il, Novruz, Qurban və Ramazan bayramları, eləcə də Zəfər Günü münasibətilə şəhid övladı olan ailələrə eyni qaydada bayram sovqatları təqdim olunur.

Novruz bayramı münasibətilə təqdim edilən sov-



qatlar mart ayının əvvəlindən "Bravo" supermarketlər şəbəkəsi tərəfindən sözügedən şəhid ailələrinə çatdırılmaqdadır. Bayram sovqatlarına müxtəlif ərzaq məhsulları daxildir.

Qeyd edək ki, 2024-cü ildən cari proqrama antiterror tədbirləri zamanı şəhid olan şəxslərin övladları da əlavə edilib. Hazırda layihə 44 günlük Vətən müharibəsində, zəfərdən sonra və sentyabr təxribatları, antiterror tədbirləri zamanı şəhid olan şəxslərin, ümumilikdə, 1000-dən çox ailəsini, 2 mindən çox övladını əhatə edir.

### "Nargis" Fondu

**Artıq bir neçə gündür ki, "Nargis" Fondunun təşkilatçılığı ilə baharın gəlişini müjdələyən "Torpaq əlimdə, bahar ürəyimdə" xeyriyyə yarmarkası yenidən Bakı sakinləri və qonaqları üçün qapılarını açıb.**

2019-cu ildən etibarən keçirilən bu yarmarka paytaxtın mərkəzində bayram ab-havası yaratmaqla yanaşı, eyni zamanda, yardıma ehtiyac duyan ailələrə ümid işığı olur. Belə ki, yarmarka sponsorlarının maliyyə dəstəyi və yarmarkada qurulan evlərin kirayəsindən toplanan bütün vəsait müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicə və əməliyyat xərclərinin qarşılanmasına sərf edilir.

Tədbirin rəsmi tərəfdaşları Bakı Şəhər İcra Hakimiyyəti, "Azərişıq" ASC, Bakı Abadlıq Xidməti, Azərbaycan Dövlət Reklam Agentliyi, "Azərbaycan Hava Yolları" QSC, "Strafor Kəsim" və "E Point"dir. Yarmarka 36 böyük və 20 kiçik ev, 3 ədəd ikimərtəbəli restoran, Novruz bayramına aid peşəkarlar tərəfindən hazırlanmış dekorativ konstruksiyalar, balaca köşklər, oyun zonaları, fotozonalardan ibarətdir. Həmçinin yarmarka konseptinə yeniliklər edilərək şəhər sakinlərinin marağına səbəb olacaq yeni tematik guşələr istifadəyə verilib. Hər il olduğu kimi, internat məktəbləri, uşaq evləri, sığınacaqlar və sosial xidmət müəssisələrinin himayəsində olan uşaqlar yarmarkanın özəl qonaqlarıdır.

"Torpaq əlimdə, bahar ürəyimdə" xeyriyyə yarmarkası aprelin 15-dək fəaliyyət göstərəcək.

### Bakı Slavyan Universiteti



**Bu qabaqcıl ali təhsil ocağında "Yeni dövrün Azərbaycanı: Qərbi Azərbaycan irsi və milli-mədəni dəyərlər" mövzusunda mərasim başdan-başa Novruz ruhunda düzənlənib.**

Öncə mərasim iştirakçıları universitetin foyesində fakültələr tərəfindən hazırlanmış və Novruzun adət-ənənələrini əks etdirən guşələrlə tanış olublar. BSU-nun rektoru Anar Nağıyev çıxışında deyib: "Biz Novruz tonqallarının bütün Azərbaycan ərazisində alovlanmasının şahidi olmaqdan qürur duyuruq. Prezident İlham Əliyevin Şuşada, Xankəndidə, Ağdamda, Xocalıda və digər bölgələrdə Novruz tonqalı yandırması hər birimizin qürur mənbəyidir. Biz çox xoşbəxtik ki, dövlətimizin başçısının qurduğu yeni dövrün Azərbaycanında yaşayırıq. Bugünümüzün Novruz tonqalları zəfərimizin, suverenliyimizin, eləcə də bütövlüyümüzün rəmzinə çevrilib".

AMEA-nın akademiki, Qərbi Azərbaycan İcmasının üzvü Abel Məhərrəmov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) beynəlxalq əlaqələr üzrə prorektoru, Qərbi Azərbaycan İcmasının üzvü professor Mahirə Nağıqızı, ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının müdiri akademik Muxtar İmanov, AMEA Folklor üzrə Elmi Şurasının sədr müavini Mahmud Allahmanlı Novruz bayramının milli-mənəvi dəyərlər sistemindəki əhəmiyyətindən bəhs edərək onun xalqımızın tarixi yaddaşındakı yerindən söz açıblar. Eyni zamanda, Prezident İlham Əliyevin Qərbi Azərbaycana dair apardığı siyasətin tarixi ədalətin bərpasına yönəldiyini vurğulayıblar. Böyük Qayıdışın sülh, elm və əmin-amanlıq yolları ilə həyata keçiriləcəyinə inam ifadə olunub. Natiqlər Novruz bayramı münasibətilə iştirakçıları təbrik ediblər. Tədbir bayram konserti ilə yekunlaşıb.

### Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğu



**Möhtəşəm "Bahar sədası" Novruz şənliyi Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğu ərazisində yaddaqalan görüşlərlə əlamətdar olub.**

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Xəzər Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşan bayram tədbirində qurumun və rayon icra hakimiyyətinin rəhbərliyi, şəhid ailələri, qazilər və rayon ağsaqqalları iştirak ediblər. Şənliyə Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi, Bakı Şəhər Gənclər və İdman İdarəsi, peşə məktəbləri də qoşulublar.

Gün boyunca peşə məktəblərinin nümayəndələri öz bacarıqlarını sərgiləyib, sənətkarlar bazarında əl işləri təqdim olunub, açıq səma altında yerləşən Arxeoloji-Etnoqrafik Muzey Kompleksində dulusçuluq, xalçaçılıq, daşoyma kimi qədim sənət nümunələri nümayiş olunub.

Qala Qoruğunun meydançasında qurulmuş səhnədə tanınmış xalq artistlərinin rəngarəng musiqi nömrələri, rəqs qruplarının, nağara ansambllarının, qarmon ifaçılarının çıxışları könülləri oxşayıb. Qonaqlar üçün milli boyama dərsləri, taxıl pannosu, amulet və talisman hazırlanması, parçadan kuklalar, kətan üzərində rəsm çəkmə, kukla teatrı və kitab məclisi kimi maraqlı ustad dərsləri təşkil olunub. Şənlik boyu qonaqlar milli şirniyyatların hazırlanmasını izləyərək dadına baxıblar, meydanı bəzəyən tonqalların alovu, xalq oyunlarının şən səsləri və rəngarəng tədbirlər Novruzun əsl ruhunu yaşadıb.

### Bakı Metropoliteni



**Novruz bayramı ilə əlaqədar "Bakı Metropoliteni" QSC ötən günlərdə "İçərişəhər" stansiyasında sərnişinlər üçün ənənəvi şənliklərini təşkil edib.**

Zəngin şou-proqrama bayramın əsas qəhrəmanları – Bahar qızı, Keçəl və Kosa ilə yanaşı, sirk ustaları da qatılıblar. Əsas şou zamanı nəhəng oyuncaqlarla əyləncələr keçirilib, azyaşlı sərnişinlərə bol hədiyyələr verilib, uşaqlar üçün kitablar təqdim olunub. Bundan əlavə, daha 4 stansiyada konsertlər olub.

"İçərişəhər" stansiyasında retro vaqonlardan ibarət qatar nümayiş etdirilir. Metropolitenin iş rejimində də müvafiq dəyişikliklər var. Şəhər mərkəzinə, bayram gəzintisi və müxtəlif tədbirlərin keçirildiyi məkanlara yaxın stansiyalarda sərnişin axınının tənzimlənməsi məqsədilə əlavə işçi qüvvəsi cəlb edilməklə növbətçilik cədvəli tərtib olunub, xətlərə ehtiyat qatarlar buraxılıb.

### Azərbaycan Dövlət Neft və Sənaye Universiteti



**ADNSU-da Novruz bayramına həsr olunmuş şənlikdə tələbələrin hazırladıqları Novruz xonçaları və milli adət-ənənələrimizi əks etdirən bayram şirniyyatları nümayiş olunub.**

Təbrik nitqi ilə çıxış edən rektor Rüfət Əzizov universitetin professor-müəllim heyətini və tələbələri milli bayram münasibətilə təbrik edib. Rektor bu gün Novruz bayramının Azərbaycanın bütün ərazilərində yüksək təmtəraqla qeyd olunduğunu vurğulayıb.

Tədbir ADNSU-nun "Gənclik" mahnı və rəqs ansamblının çıxışı, Novruz bayramının məşhur personajları - Kosa ilə Keçəlin təqdimatında maraqlı səhnəciklər, müxtəlif oyunlar və "Dərviş bənd" qrupunun maraqlı musiqi nömrələri ilə davam edib.

### DSX-nin Xüsusi Məktəbi



**Məktəblilər hərbi vətənpərvərlik ruhunun və sərhədçi peşəsinə marağın artırılması məqsədilə Novruz bayramı ərəfəsində Dövlət Sərhəd Xidmətinin (DSX) Xüsusi Məktəbində keçirilən görüşə dəvət olunublar.**

Əvvəlcə şagirdlərə məktəbin fəaliyyəti və burada kursantlar üçün yaradılan şərait barədə ətraflı məlumat verilib. Maddi-texniki baza, təlim-tədris prosesi, kursantların gündəlik rejimi və sərhədçi kimi formalaşmaları üçün həyata keçirilən tədbirlərdən, Vətənin müdafiəsində onların rolundan danışılıb. Dövlət sərhədinin mühafizəsi işini şərəflə yerinə yetirən peşəkar kadrların hazırlanmasında məktəbin əhəmiyyəti vurğulanıb.

Sonra məktəblilər və kursantlar birgə nahar edib, bayram tədbiri keçiriblər. Məclisdə Xüsusi Məktəbin şəxsi heyətinə DSX-nin rəisi general-polkovnik Elçin Quliyevin Novruz bayramı münasibətilə təbriki çatdırılıb, kursantlar və qonaqlar üçün maraqlı konsert proqramı təşkil olunub, müxtəlif musiqi nömrələri, şeirlər, səhnəciklər təqdim edilib.

*Hazırladılar:*
***Əli ƏLİYEV,***
***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Novruz gəlir ellərə, nəğmə axır dillərə

## *Bayram tonqalları bölgələrimizə yeni xeyir-bərəkət nuru yayır*

**Novruz xalqımızın qədim tarixinə, zəngin mədəni irsinə və mənəvi dəyərlərinə dərin köklərlə bağlı olan ənənəvi əziz bayramlarımızdan biridir. Bu bayram həm də milli birliyimizin, həmrəyliyimizin rəmzidir. Bugünlərdə Novruz şənlik və mərasimləri Azərbaycanın hər yerində böyük sevinc və yüksək ruh yüksəkliyi ilə qeyd olunur. Hörmətli oxuculara bölgələrimizdə böyük coşqu və təmtəraqla keçirilən bayram şənlikləri ilə bağlı bəzi xəbərləri təqdim edirik.**

### NAXÇIVAN



**Naxçıvan Dövlət Milli Dram Teatrında şəhid və qazi övladları, sosial qayğıya ehtiyacı olan uşaqlar üçün bayram şənliyi keçirilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli məclisdə çıxış edərək bildirib ki, Novruz bayramı xalqımızın ən qədim bayramlarından biridir. Min illərdir, Azərbaycan xalqı adət-ənənələrini Novruz ətrafında birləşdirir. O, balacalara bayram təbriklərini və xoş arzularını çatdırıb.

Uşaqlar səhnəyə dəvət olunub, onlara bayram hədiyyələri verilib, xatirə şəkilləri çəkdirilib.

Teatrın kollektivi uşaqlara "Cırtdan nağıllar aləmində" tamaşasını təqdim edib.

### AĞSTAFA

**Şəhərin Heydər Əliyev parkında təşkil olunan ümumrayon bayram tədbirində RİH başçısı Seymur Orucov, rayon rəhbərləri, şəhid ailələrinin üzvləri, müharibə veteranları, məsul şəxslər və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

İştirakçılar əvvəlcə parkın ərazisində Novruz atributları, milli ornamentlərlə bəzədilmiş istedadlı ağstafalıların əl işlərindən ibarət müxtəlif stendlərlə tanış olublar. Onlar Novruzun personajları olan Bahar qız, Kosa və Keçəlin məzəli zarafatları ilə xalqımızın milli adət-ənənələrini, mənəvi dəyərlərini ehtiva edən ədəbi-bədii kompozisiyalara, eləcə də, idmanın müxtəlif növləri üzrə gənclərin nümunəvi çıxışlarına tamaşa ediblər. İştirakçılar milli geyimli xanımların təqdim etdikləri bayram xonçalarındakı təamlardan dadıb, sacda bişirilən qutaba, fəsəliyə qonaq olublar.

Mədəniyyət və incəsənət nümayəndələrinin təqdim etdikləri geniş konsert proqramı, şair Cığatel İsaqızının çıxışı ağstafalılar tərəfindən rəğbətlə qarşılanıb.

### ŞƏMKİR

**Rayon rəhbərliyi Novruz bayramının sonuncu çərşənbəsi olan Torpaq çərşənbəsini Dəllər qəsəbə sakinləri ilə birgə qeyd edib.**

Bütün milli atributlar – xalçalar, tarixi və Novruz adət-ənənələrimizə aid guşələr, boyanmış yumurta, şəkərbura, paxlavaların sərgiləndiyi meydanda RİH başçısı Rəşad Tağıyev tonqalı alovlandırıb, milli varlığımızı və ulu babalarımızın mənəvi aləminin zənginliyini özündə cəmləşdirən Novruz bayramı münasibətilə sakinləri təbrik edib, ən xoş arzularını çatdırıb.

Məktəblilər Novruzun ruhuna uyğun müxtəlif əyləncəli səhnəciklər, rəqslər və musiqili ədəbi-bədii kompozisiyalar ilə bayrama təntənə gətiriblər.

### TOVUZ

**Heydər Əliyev meydanında Novruz bayramı münasibətilə ümumrayon şənliyi keçirilib. Dədə Qorqud, Bahar qız, Kosa və Keçəl faytonda meydana daxil olub və bayram iştirakçılarını salamlayıblar.**

Meydanın mərkəzində tonqal qalanıb, idmançıların ifasında tamaşalar nümayiş etdirilib. Milli oyunlar, Novruz adət-ənənələri, milli xörəklər və şirniyyatlardan ibarət "Novruz" sərgisi iştirakçılara təqdim olunub.

Rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov, YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov, hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri sərgi ilə tanış olub, şəhid ailələrini, qazilərini və sakinləri bayram münasibətilə təbrik ediblər.

Bayram şənliyi rayon mədəniyyət və incəsənət işçilərinin təqdimatında geniş konsert proqramı ilə davam etdirilib.

### GORANBOY

**Goranboyun Xan Qərvənd kəndində İlaxır-Torpaq çərşənbəsi – Novruz şənliyi keçirilib.**

Rayon icra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatı Anar Məmmədov, Goranboy, Tərtər və Ağdərə rayonlarından olan şəhid ailələri, qazilər, ağsaqqallar və ziyalılar şənlikdə iştirak ediblər.

Mərasimdə mədəniyyət işçilərinin ifasında bədii proqram, folklor nümunələri, milli mətbəximizi və qədim adət-ənənələrimizi özündə əks etdirən səhnələr nümayiş etdirilib, bayram tonqalı yandırılıb.

### MİNGƏÇEVİR



**Mingəçevir şəhərində Novruz bayramı münasibətilə ümumşəhər mərasimi keçirilib.**

Tədbirdə şəhər ictimaiyyətinin nümayəndələri, ziyalılar, şəhid və qazi ailələri iştirak ediblər. Şəhər mədəniyyət işçilərinin təqdim etdiyi mahnı sovqatı, Uşaq Gənclər İnkişaf Mərkəzinin şagirdlərinin rəngarəng rəqsləri, idmançıların yarışmaları, Novruzun özəlliyi olan Dədə Qorduqun Bahar qızla birgə səhnəyə gəlişi və tövsiyələri, el bayramının atributları olan Keçəl və Kosanın məzhəkələri, yumurta döyüşləri buraya toplaşanlara böyük sevinc bəxş edib.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov bildirib ki, Novruz bayramı həyatımıza qədəm qoyur. Novruzun gəlişi hər kəsin qəlbində xoş hisslər oyadır. Fərəhli haldır ki, builki Novruz bayramımız əlamətdar günlərdə, müqəddəs Ramazan ayı ilə eyni vaxtda həyatımıza qədəm qoyur. Ulu babalarımızdan bizə yadigar qalmış bu bayram xalqımızın ən qədim adət-ənənələrini özündə əks etdirir. Xalqımız bu gözəl adət-ənənələri daim yaşatmaq əzmindədir.

Bayram tonqalı alovlandırıldıqdan sonra təhsil ocaqlarının hazırladıqları sərgiyə baxış keçirilib.

### ŞAMAXI



**Şamaxı şəhərində də baharın gəlişi yüksək əhvali-ruhiyyə və rəngarəng tədbirlərlə qarşılanıb. Novruz şənlikləri rayonun Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında təşkil olunub.**

Parkda bayrama xüsusi ab-hava qatmaq üçün qədim məişət əşyaları və xalq sənəti nümunələri nümayiş etdirilib. Məktəb şagirdlərinin əl işlərindən ibarət sərgi maraqla qarşılanıb. Novruz süfrəsinin ayrılmaz hissəsi olan müxtəlif çeşidli milli yeməklər və şirniyyatlar qonaqlara təqdim olunub. Corab toxuyan, yun darayan, cəhrə əyirən, nehrə çalxalayan, sac üzərində yuxa bişirən milli geyimli xanımlar qədim el sənətlərimizi bir daha canlandırıblar.

Bayramın əsas rəmzlərindən olan tonqal ənənəyə uyğun olaraq alovlandırılıb.

Şənlikdə incəsənət ustaları və bədii özfəaliyyət kollektivləri maraqlı çıxışlar ediblər. Uşaq və gənclərin ifasında səslənən Novruz mahnıları, şeirlər, eləcə də xalq oyunları bayram şənliyinə xüsusi rəng qatıb.

### QƏBƏLƏ

**Xalqımızın ən əziz bayramı Novruz Qəbələ rayonunda böyük coşqu ilə qeyd olunub. Qəbələlilər baharın gəlişini böyük sevinc və ruh yüksəkliyi ilə qarşılayırlar. Ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda ümumrayon şənliyi keçirilib.**

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev qəbələliləri bayram münasibətilə təbrik edib, qədim adət-ənənələrimizdən olan Novruzun xalqımız tərəfindən həmişə böyük sevinc və coşqu ilə qarşılandığını bildirib. O vurğulayıb ki, artıq xalqımız Novruz bayramını ikiqat sevinc hissi, Qələbə əhval-ruhiyyəsi ilə qeyd edir.

Bayram təntənəsinə faytonla gələn ululuq və ağsaqqallıq rəmzi sayılan Dədə Qorqud və yazın müjdəçisi olan Bahar qızı bayram tonqalını alovlandırıblar. Onlar xalqımıza bol ruzi-bərəkət və əmin-amanlıq arzulayıb, bu şad gündə el-obanı birliyə, həmrəyliyə çağırıblar.

### CƏBRAYIL

**İşğaldan azad edilmiş Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında da Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin və Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Cəbrayıl şəhəri Mehdi Mehdizadə adına tam orta məktəbində Novruz şənliyi keçirilib.**



Təntənəli mərasimdə Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin və Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin əməkdaşları, müəllimlər, şagirdlər və valideynlər iştirak ediblər.

Adət-ənənələrimizin nümayiş olunduğu guşəni Novruz bayramının rəmzi olan səməni, müxtəlif şirniyyat və mətbəx nümunələri süfrələri bəzəyib. Məktəbin şagirdləri baharın gəlişinin müjdəçisi olan Novruz bayramına aid şeirlər səsləndirib, mahnılar ifa edib, maraqlı səhnəciklər göstəriblər. Şagirdlərin ifasında rəqslər, xalq oyunları, Keçəl və Kosanın məzəli əhvalatları bayram şənliyinə əlvanlıq gətirib.

Sonda məktəbin həyətində bayram tonqalı qalanıb, qonaqlar, müəllimlər və şagirdlər "Cəngi" sədaları altında rəqs ediblər.

*Səbuhi HƏSƏNOV,*
*Hamlet QASIMOV,*
*İlqar HƏSƏNOV,*
*Məsaim ABDULLAYEV*
*XQ*

# Qarabağın Novruz təntənəsi

**Baharın gəlişi ilə Qarabağda çöllər-çəmənlər rəngbərəng don geyinir, ağaclar qış yuxusundan oyanıb yaşıllaşır, kol dibindən boynubükük bənövşələr, qar yükündən qurtularaq Vətən torpaqları kimi azadlığına qovuşmuş qarçiçəkləri, nərgizlər sevinclə ətrafa ətir saçır. İlıq səhər günəşi doğar-doğmaz qayğısız quşların xoş avazı könülləri oxşayır. Özünəməxsus adət-ənənələri, Kosa və Keçəli ilə hamımızın sevimli bayramı olan Novruzda keçirilən şənliklər isə bütün bu gözəlliklərə daha bir həyəcan qatır.**



Axşam olanda gecəquşuların oxuduğu, adaxlı qızların bəy corabı toxuduğu Novruz bayramının bu il Azərbaycan xalqı üçün başqa bir sevinci, qürurverici məqamı da var: İllər boyu həsrətindən qovurğa kimi qovrulduğumuz, uğrunda can alıb, can verərək mənfur yağı tapdağından azad etdiyimiz Qarabağımızın, Şərqi Zəngəzurumuzun neçə-neçə şəhər və kəndlərində Novruz tonqalları qalanır. Əsl sahiblərinin, əzəli sakinlərinin qayıdışı ilə yenidən canlanan, gündən-günə gözəlləşən Laçında, rayonun Zabux və Sus kəndlərində, Cəbrayılda, Füzulidə, Zəngilanın Ağalısında, Xocalı şəhərində və Ballıca kəndində, Xankəndidə, Şuşada, Ağdərənin Talış, Suqovuşan, Həsənriz kəndlərində bayram sevinci yaşanır.

Cıdır düzündə, üçrəngli bayrağımızın dalğalandığı meydanlarda insanlar yallı çöhrələrini təbəssüm bəzəmişdi. Hamı tanıdı-tanımadı, öz doğması kimi salamlaşır, mehribanlıqla bir-birilərinə gözaydınlığı verir, bayramını təbrik edirdi. Zəfər meydanındakı xoş ab-havaya gözəllik qatan həm də valideynləri ilə bayram konsertinə gələn uşaqların sevinci, onların şən gülüşləri idi. Novruz tonqalının istisinə, işığına yığışan sakinlərin bir neçəsi ilə həmsöhbət olduq, onların duyğularını öyrəndik.

**Telli Həşimova (Xankəndi sakini):**

Hər şeydən öncə, qəzetiniz vasitəsilə Xankəndidən xalqımızı gözəl Novruz bayramı münasibətilə təbrik etmək istəyirəm. Mən burada doğulmuşam. Qarabağda erməni separatizmi baş qaldıranda doğma şəhərimizdən məcburi köçkün düşmüşdük. Möhtərəm Prezidentimizin müdrik siyasəti, qətiyyəti, sarsılmaz iradəsi sayəsində bütün torpaqlarımız işğal-



dan azad edilib və çox xoşbəxtəm ki, bu gün Xankəndidə bayram şənliyində iştirak edirəm. Bütün Azərbaycanın gözü aydın olsun!

**Eşqin İmanov (tələbə):**

Qarabağ Universitetinin tələbəsi kimi Xankəndidə Novruzu qarşılamaq, bu gözəl bayram əhval-ruhiyyəsini yaşamaq çox möhtəşəm hisslərdir. Fəxr edirəm ki, Prezidentimizin bizə ərmağanı olan Qarabağ Universitetinin ilk tələbələri sırasında mən də varam. Bu, bizim üçün həm də böyük məsuliyyətdir. Allahdan xalqımıza, millətimizə hər zaman zəfər sədalı illər, xoş bayramlar arzulayıram!

**İlkin Abdurahmanlı (tələbə):**

Mən də Qarabağ Universitetinin I kursunda oxuyuram. Bu sözləri eşitmək insana şirin yuxu kimi gəlir. Əvvəllər Xankəndini, ümumiyyətlə, Qarabağı heç görməmişdim. Ancaq indi özümü bura çox bağlı hiss edirəm. Havası, suyu, təbiəti o qədər gözəldir ki, sevməmək mümkün deyil. Allah bizə bu günləri nəsib edən şəhidlərimizə rəhmət eləsin! Allah Prezidentimizi qorusun, ordumuzu hər zaman müzəffər etsin! Hər kəsin Novruz bayramını Xankəndidəki tələbələr adından ürəkdən təbrik edirəm!

gedir, Qarabağ şikəstəsi göylərə yüksəlir. Vətən göylərində dolaşan şəhid ruhları hüzura qovuşur!

"Xalq qəzeti"nin Qarabağ bürosu olaraq biz də bu şənliklərindən birinə – Xankəndi şəhərindəki Zəfər meydanında keçirilən "Xankəndinin bahar nəğməsi" adlı bayram konsertinə qatıldıq, Novruz tonqalının başına yığışmış sakinlərin böyük coşqusunu onlarla birlikdə yaşadıq. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin təşkil etdiyi maraqlı şənlikdə məsul şəxslər, şəhid ailələrinin üzvləri, müharibə veteranları, hüquq-mühafizə orqanlarının əməkdaşları, mətbuat nümayəndələri və Xankəndinin çoxsaylı sakinləri iştirak edirdilər.

Meydanda Novruz atributları, milli ornamentlərlə bəzədilmiş stendlər, Xankəndidə hazırlanan şirniyyatlar və əl işlərindən ibarət müxtəlif sərgilər bura axışan insanlar tərəfindən maraqla qarşılanır, tədbirə xüsusi rəng qatırdı. Konsertdən əvvəl bayram təbrikləri səsləndirildi.

Bildirildi ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımız qədim Novruz bayramını müstəqil, suveren Azərbaycanın hər yerində, o cümlədən işğaldan azad olunmuş torpaqlarımızda böyük qürur və ruh yüksəkliyi ilə qeyd edir. Artıq 5-ci dəfədir ki, Prezident bayram tonqalını azad edilmiş Qarabağ torpağında qalayır. Dövlət başçısı 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, 2023-cü ildə Talış kəndində, 2024-cü ildə Xankəndi şəhərində, 2025-ci il mart ayının 18-də isə Ağdərə rayonunun Həsənriz kəndində bayram tonqalını alovlandırıb. Bu, böyük xoşbəxtlikdir!

El şənliyinə yığışanların hamısının üzündən sevinc, xoşbəxtlik yağır,

Zəfər meydanında gecə saatlarına qədər davam edən Novruz şənliyində ölkənin tanınmış incəsənət xadimlərinin, rəqs kollektivlərinin çıxışları gurultulu alqışlarla qarşılandı.

...Kandardan nazlana-nazlana içəri boylanan Bahara "xoş gəldin" deyək! Elimizə, obamıza, azad Qarabağımıza xoş gəldin, əziz Novruz, yurdumun gözəl bayramı! Bahar bayramın mübarək, Azərbaycan!

*Mahir RƏSULOĞLU,*
*"XQ"nin Qarabağ müxbiri,*

**Xankəndi**

# Ulu öndərin bu gün ruhu şaddır

## ...arzuları həyata keçdi

**Novruz bayramı Azərbaycan xalqının ən mühüm və sevimli bayramlarından biridir. Qədim tarixi olan Novruz bayramı Azərbaycanla yanaşı, Şərqdə geniş qeyd olunur. Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə əks etdirən bu bayram insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam bir təməl yaratmışdır. Novruz bayramı ulularımızdan bizə yadigar qalan, xalqımızın mədəniyyətini, milli mənəvi dəyərlərini özündə əks etdirən, dünyaya tanıtdıran qədim el bayramıdır. Bu bayram Azərbaycan xalqının çoxçalarlı incəsənətinin güzgüsüdür, habelə milli mədəniyyətimizdə sülh, mehriban qonşuluq və tolerantlıq kimi ümumbəşəri dəyərlərə sadiqliyinin tarixi təcəssümüdür.**



Sovet dövründə Novruz bayramının keçirilməsinə sərt qadağalar qoyulsa da, xalqımız onu həmişə qeyd etməyə can atıb. Milli adət-ənənələrimizə, o cümlədən Novruz bayramına yüksək qiymət verən Ulu öndər deyib: "Novruz xalqımızın əsrlərdən bəri qoruyub saxladığı və bütün dövrlərdə həmişə əziz tutduğu bayramlardan biridir. Onun tarixi də Azərbaycan xalqının tarixi kimi keşməkeşli, enişli-yoxuşlu olmuşdur. Bu ulu bayramın müstəqil respublikamızda dövlət səviyyəsində qeyd edilməsi öz milli köklərimizə, adət-ənənələrimizə, tarixi keçmişimizə dərin ehtiram bəslədiyimizi və sarsılmaz tellərlə bağlı olduğumuzu nümayiş etdirir".

1998-ci il martın 20-də məcburi köçkünlər üçün keçirilən Novruz şənliyində ümummilli lider Heydər Əliyev demişdi: "Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır".

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş və qətiyyətli siyasət, 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbəmiz xalqımızın arzusunu və Ulu öndərin vəsiyyətini tam reallaşdırdı. Bu gün Ulu öndərin ruhu şaddır. Onun arzuları həyata keçdi. 2023-cü ildəki lokal antiterror tədbirlərindən sonra isə işğal altındakı qalan torpaqlar da azad edildi. Bu gün müstəqil Azərbaycan dövlətinin milli bayramı olan Novruz ölkəmizin bütün ərazisində, o cümlədən azad edilən Xankəndi, Xocalı, Ağdərə, Xocavənddə daha böyük coşqu və təmtəraqla qeyd olunur.

Adət-ənənələrinə hər zaman sadiq qalan xalqımız milli birlik bayramımız olan Novruzu qoruyaraq əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə ötürüb. Ölkəmizdə insanları daim sevgiyə, yoldaşlığa, paylaşmağa çağıran Novruz bayramı ümumxalq şənliyi səviyyəsində qeyd olunur. Milli kökə və adət-ənənələrə qırılmaz tellərlə bağlı olan xalqımız bu Novruzda həm də ölkəmizin ərazi bütövlüyünün tamamilə bərpa olunmasının, tarixi Qələbənin sevincini yaşayır. Bu Qələbədə Vətən uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalan, xalqımızı öz halal torpaqlarına qovuşduran igid, qəhrəman oğullarımızın əziz xatirəsi ehtiramla yad olunur, onların məzarları ziyarət edilir, doğmalarına baş çəkilir, ehsanlar verilir.

Xalqımızın qədim adət-ənənələrini özündə ehtiva edən Novruz bayramı milli bayram kimi artıq bütün dünyada geniş təbliğ olunur. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın böyük səyi nəticəsində Novruz bayramı UNESCO tərəfindən Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilib. Belə ki, 28 sentyabr – 2 oktyabr 2009-cu ildə Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin IV Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, Azərbaycan, Hindistan, İran, Qırğızıstan, Pakistan, Türkiyə, Özbəkistan və başqa ölkələrin xalqlarının xüsusi təntənə ilə qeyd etdikləri Novruz çoxmillətli nominasiya kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ siyahısına salınıb. Eyni zamanda, 23 fevral 2010-cu ildə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında martın 21-i "Beynəlxalq Novruz Günü" elan olunub. 28 noyabr–2 dekabr 2016-cı il tarixlərində Efiopiyanın Əddis-Əbəbə şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 11-ci sessiyasında İraq, Qazaxıstan, Tacikistan, Türkmənistan və Əfqanıstan da Novruz bayramı nominasiyasına qoşulmuşlar.

Təbiətin, həyatın oyanması Novruzdan başlanır. Azərbaycan xalqı bunu həm də Yeni ilin, yeni günün – Novruzun gəlişini dörd həftə əvvəldən çox təntənəli şəkildə qeyd etməyə başlayır. Xalq deyimlərinə görə, ilk çərşənbədə su və su mənbələri yenilənir, ikinci çərşənbədə odun, üçüncü çərşənbədə küləyin köməyi ilə təbiət oyanır, dördüncü çərşənbədə isə torpaq dirçəlir, ağaclarda tumurcuqlar cücərir və bütün bunlar yazın gəlişindən xəbər verir. Novruzda bayram masasının üzərində mərkəzində səməni olan xonçanın olması vacibdir. Səməninin ətrafına milli şirniyyatlar: paxlava – Yer kürəsinin 4 istiqamətini, qoğal – Günəşi, şəkərbura – Ayı, rənglənmiş yumurta – həyatı simvolizə edir. Novruz bayramı qonşuları, dostları xonçaya yığılmış şirniyyatlara qonaq edir.

Bu bayramın özünəməxsus adət-ənənələri də var: qurşaq atmaq, papaq atmaq, qulaq falına çıxmaq, tonqalın üzərindən tullanmaq, səməni yetişdirmək, xonça bəzəmək, yumurta döyüşdürmək, qonaq getmək, şam yandırmaq, yallı və digər Novruz oyunları oynamaq ... bunlar Azərbaycan xalqının tarixini, onun zəngin folklorunu və fəlsəfəsini özündə ehtiva edir.

Bu gün Novruz bayramı Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, Qarabağda, suveren Azərbaycanın hər yerində qeyd olunur. Cıdır düzündə alovlanan bayram tonqalı bu torpaqların qədim sahiblərinin şanlı keçmişinə, parlaq gələcəyinə işıq tutur, tarixi ədalətin bərpa edilməsinə şövqlə parlayır. Ali Baş Komandanın Qarabağda alışdırdığı Novruz tonqallarımız daha gur olsun, Odlar yurdunun sönməz tonqalları kimi əbədi yansın.

*Gülxarə TARVERDİYEVA,*
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

# EAPCA lobbiçilik hərəkatıdır

## *Bu qurum Avropadakı Azərbaycan və Türkiyə diaspor təşkilatlarını birləşdirir*

**Mətbuatdan məlum olduğu kimi, 2024-cü il fevralın 24-də "Avropanın paytaxtı" Brüssel şəhərində Azərbaycanın Avropa İttifaqı və Belçika Krallığındakı səfirliyinin binasında yeni beynəlxalq transmilli lobbi təşkilatı təsis edilmişdi. Bildirilirdi ki, adı Avro-Atlantika Azərbaycanlılar Tərəfdaşlıq Şurası olan (ingiliscə "Euro-Atlantic Partnership Council of Azerbaijanis") bu qurumun abreviaturası EAPCA kimi qəbul edilmişdir.**



O da bildirilirdi ki, yeni qurum bu bölgədə fəaliyyət göstərən onlarca ölkənin, o cümlədən, Almaniya, Finlandiya, Niderland, Türkiyə, İsveç və Azərbaycanın diaspor təşkilatlarının birgə müraciəti ilə Avropanın rəsmi dairələrində qeydiyyatdan keçmişdir.

Həmin təsisatın bir yaşının tamam olduğu günlərdə qurumun baş katibi Sahil Qasımova bir neçə sualla müraciət etdik.

**– Sahil müəllim, belə bir təsisatın formalaşdırılmasını hansı məsələlər zəruri edirdi?**

– Məlum olduğu kimi, uzun illərdir ki, Avropanın, az qala, bütün ölkələrində çoxsaylı Azərbaycan və türk diaspor təşkilatları fəaliyyət göstərir. Ancaq zaman bu təşkilatların fəaliyyətini stimullaşdırmaq üçün yeni çağırışlar irəli sürür. Odur ki, bu qurumun yaradılmasında əsas məqsəd Avro-Atlantik coğrafiyasında mövcud olan bir çox Azərbaycan və Türkiyə təşkilatlarının fəaliyyətinin koordinasiyasını təmin etmək idi. Eləcə də, son zamanlar Qərb ölkələrində Azərbaycan və Türkiyəyə qarşı intensivləşən hücumlar, ölkəmizin ərazi bütövlüyünün şübhə altına alınması, Ermənistanın silahlandırılması, Avropa Parlamenti, AŞPA və ABŞ tərəfindən artan təzyiqlər bizi narahat etməyə bilməzdi. Odur ki, bütün bunlara qarşı birgə mübarizə aparmaq, Azərbaycan həqiqətlərini dünyaya dolğun və doğru şəkildə çatdırmaq, yəni lobbiçilik fəaliyyətini gücləndirmək istədik və bu təsisatı yaratdıq.

**– Məqsəd aydındır. Bəs geridə qalan bir ildə nə işlər görülüb?**

– EAPCA bir il ərzində bəzi ölkələrdə rəsmi görüşlər keçirmiş, müxtəlif beynəlxalq məsələlərlə əlaqədar birgə bəyanatlarla çıxış etmişdir. Qurumun idarə heyətinin üzvləri 2024-cü ilin may ayında ilk rəsmi səfərini Avro-Atlantikanın önəmli ölkəsi olan qardaş Türkiyəyə etmiş və Ankarada bir sıra yüksək səviyyəli görüşlər keçirmişdir. Nümayəndə heyətimizin, həmçinin Türkiyə Respublikasının vitse-prezidenti, Böyük Millət Məclisinin baş katibi, komitə və parlamentlərarası dostluq qrupunun rəhbərləri, bir neçə nazir və nazir müavinləri ilə görüşləri olmuşdur.

**– Bəs Azərbaycan və Türkiyəyə qarşı haqsızlıq edən, əsassız iddialar irəli sürən ölkələrlə münasibətdə hansı variantlardan istifadə edirsiniz?**

– Nümayəndə heyətimiz Niderlandın baş naziri Dick Schoofa və koalisiya hökumətinə rəsmi müraciət göndərərək hökumətin qəbul etdiyi antitürk xarakterli proqrama etirazını bildirmişdir. Bu məsələ ilə əlaqədar olaraq 2024-cü ilin noyabr ayında Niderland Krallığı Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Cənubi Qafqaz İdarəsinin rəhbərliyi ilə görüşlər keçirilmişdir.

**– Erməni faşizminin vəhşiliklərinin dünya ictimaiyyətinə çatdırılması barədə necə, susursunuz?**

– Xeyr, bu, fəaliyyətimizin əsas istiqamətlərindən biridir. Ötən ilin fevral ayında EAPCA tərəfindən Xocalı soyqırımı ilə əlaqədar Belçika Krallığının rəsmi mərasimlərinin keçirildiyi Konqres Sütununun (Colonne Du Congre) tərkibində olan "Əbədi məşəl" Kompleksi önündə anım tədbiri keçirilmişdir. Tədbirdə Azərbaycanın Brüsseldə və Avropa İttifaqı yanında səfirliyinin rəhbərliyi və diplomatlar, Azərbaycanın NATO yanındakı nümayəndəliyinin əməkdaşları, Belçika Müdafiə Nazirliyinin və Belçika Veteranlar Şurasının təmsilçiləri də iştirak etmişdilər.

Eləcə də, bu ilin fevral ayında Belçika koalisiya hökumətinin Azərbaycanla bağlı qəbul etdiyi sənədə etiraz olaraq baş nazir Baart de Veverə və Federal Parlamentə etiraz məktubu ünvanlamışdır. Bundan başqa, EAPCA Avropa Parlamentinin ötən il aprelin 25-də qəbul etdiyi anti-Türkiyə və anti-Azərbaycan xarakterli qətnaməyə etiraz əlaməti olaraq, rəsmi bəyanat vermişdir.

**– Yəqin ki, Fransanı da unutmursunuz…**

– Ümumiyyətlə, Azərbaycan və Türk dünyasına qarşı qərəzli addımlar atan heç kəsi cavabsız qoymuruq. Məsələn, ötən il ərzində Fransa prezidenti Emmanuel Makrona Ermənistana silah satışı ilə bağlı, Polşa prezidentinin Ermənistan – Azərbaycan sərhədinə səfərinə qarşı bəyanatla çıxış etmişik. EAPCA, həmçinin ötən il Avropa Parlamentinə keçirilən seçkilərdə fəal iştirak edərək qitə ölkələrindəki türk əsilli namizədlərə dəstək vermişdir.

Ancaq sakini olduğumuz ölkələrdə hər şey qara rəngdə deyil. Ona görə də EAPCA Belçikanın Milli Günü münasibətilə Kral Filippə, Niderlandin Kralı Aleksandra və digər ölkələrin rəhbərliyinə təbrik məktubları göndərmişdir. Təbrik məktubumuza cavab olaraq Belçika kralı Filipp EAPCA-ya məktub göndərərək dərin təşəkkürlərini bildirmişdir. Bu il isə bir çox Avropa ölkələrinin rəhbərliyi ilə rəsmi görüşlərimiz planlaşdırılır.

Sonda onu da xatırladım ki, fəaliyyətimizi Azərbaycan dövlətinin siyasətinə uyğun, Milli Məclis və Diaspor üzrə Dövlət Komitəsi ilə sıx əlaqədə qururuq.

*Hazırladı:*
*İttifaq QAÇAYEV*

# Daşkənddə Novruz konserti



**Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi Novruz bayramı münasibətilə "Novruz- Milli dəyərlərin və mədəni əlaqələrin bayramı" adlı konsert keçirib.**

Mədəniyyət mərkəzinin geniş həyətində keçirilən bayram tədbirində Özbəkistanın elm, mədəniyyət, ədəbiyyat və incəsənət xadimləri, ali məktəblərin professor-müəllim heyəti, tələbələr, Daşkənddəki soydaşlarımız və jurnalistlər iştirak ediblər.

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev Novruz bayramının tarixi haqqında məlumat verib. Səfir Novruzun əhəmiyyətindən danışıb, hamıya firavanlıq arzulayıb. O bildirib ki, bu bayram türkdilli xalqların və Novruz arealında yerləşən digər xalqların əziz milli bayramıdır. Qədimdən Novruz sülh, humanizm, əmin-amanlıq rəmzi kimi tanınır. Səfir deyib ki, 2010-cu ildə Azərbaycan, Albaniya, Türkiyə, Əfqanıstan, Hindistan, İran, Makedoniya, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkmənistanın təşəbbüsü ilə BMT Baş Məclisi yekdilliklə martın 21-nin Beynəlxalq Novruz Günü kimi tanınması ilə əlaqədar qətnamə qəbul edib.

Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli bildirib ki, Novruz bayramı da qədimdən bolluq, bərəkət, xoşbəxtlik və paklıq rəmzi olub. Novruz həm də sülhə, əmin-amanlığa, etibar və sədaqətə çağırış bayramıdır. O bildirib ki, prezident İlham Əliyevin milli-mədəni irsimizin qorunması sahəsində apardığı siyasət nəticəsində Novruz bayramı UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. Bu bizim ortaq dəyərlərimizin beynəlxalq miqyasda tanınmasının və qorunmasının mühüm göstəricisidir. A.Marifli həmçinin Novruzun Özbəkistanda da yüksək səviyyədə qeyd olunduğunu bildirib.

Sonra Azərbaycandan xüsusi olaraq dəvət olunan Xalq artisti Zabit Nəbizadə, tanınmış müğənnilər Orxan Cəlilov və Ayşən Mehdiyeva muğam, xalq və bəstəkar mahnılarını ifa ediblər. Onları Əməkdar artist, Səmərqənddə keçirilən "Şərq təranələri" Beynəlxalq Musiqi Festivalının qalibi Sahib Paşazadə (tar) və Əməkdar artist Xəyyam Məmmədov (kamança) müşayiət ediblər. Azərbaycan Mədəniyyət Mərkəzinin "Azərbaycan" rəqs ansamblının üzvləri milli rəqslərimizi ifa edib, Özbəkistanda tanınmış azərbaycanlı saz ustası İlham Abdullayev qədim el havalarını səsləndirib.



Tədbirdə Azərbaycan Mədəniyyət Mərkəzinin teatr dərnəyinin ifasında "O olmasın, bu olsun" tamaşasından səhnələr göstərilib, qonaqlar tərəfindən alqışlarla qarşılanıb. Şənlikdə tədbir iştirakçılarına Novruz şirniyyatları paylanılıb. İlaxır çərşənbəni simvolizə edən yumurta döyüşdürməsi nümayiş etdirilib. Sonda Novruzun simvolu tonqal çatılıb, gənc ifaçılar tonqalın ətrafında dövrə vuraraq oynayıblar.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan üzrə xüsusi müxbiri,*

**Daşkənd**

21 Mart Dünya Poeziya Günüdür

# Bahar nə xoş gəlir, ruha dad verir...

Ölkəmizə baharın gəlişi Dünya Poeziya Gününə təsadüf edir. Artıq 18 ildir ki, Azərbaycanda bu beynəlxalq gün qeyd olunur, necə deyərlər, bayram bayrama qarışır, Novruz ruhlu şeir gecələri, söz-sənət məclisləri keçirilir. UNESCO-nun şeir ifadəsi ilə dil müxtəlifliyini dəstəkləmək məqsədilə elan etdiyi Poeziya Günündən məqsəd şeirin oxunmasını, yazılmasını, nəşrini və tədrisini bütün dünyada təbliğ etməkdir.

Ulu öndər Heydər Əliyev ədəbiyyata hər zaman yüksək dəyər verib. Hələ sovetlər dönəmində yazıçıların qurultaylarında iştirak edib. Qələm sahiblərinin yaradıcılıq uğurlarını təqdir edib, onların dövlət səviyyəsində yubileylərini keçirib, fəxri adlara, dövlət təltiflərinə layiq görüb. Ölkəmiz müstəqillik qazandıqdan sonra isə bədii ədəbiyyata və yazarlara, həm də ədəbiyyatşünaslıq elminə, alimlərə dövlət qayğısı sözün qüdrətini daha da artırıb. Prezident İlham Əliyev hakimiyyətə gəldikdən sonra bu tarixi ənənə – ədəbi prosesin stimullaşdırılması uğurla davam etdirilir. Söz adamlarına ən böyük etimadlardan biri illik Dövlət mükafatlarının ədəbiyyat sahəsi üzrə də verilməsidir. Heydər Əliyev Fondu da bu yöndə çox iş görür.

Prezident İlham Əliyev ötən il dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530, görkəmli ictimai-siyasi xadim, AXC banilərindən biri, publisist Məhəmməd Əmin Rəsulzadənin 140, Nəbi Xəzrinin 100



illiyi ilə bağlı sərəncamlar imzalayıb və il boyu bir sıra digər yubileylər, xatirə gecələri də keçirilib. Həmçinin Azərbaycan Yazıçılar Birliyinin 90 illiyi təntənə ilə qeyd olunub. Akademik Rafael Hüseynov, şair Baba Vəziroğlu, publisist Ramiz Əsgərov, şair-jurnalistlər Telli Əliyeva, Rəşad Məcid ordenlərlə təltif ediliblər. Dövlət başçısı Bakıda dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun abidəsinin açılışını edib.

Bu il isə unudulmaz Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyi ilə əlaqədar sərəncam verilib. Bir ay əvvəl, Ankaradakı Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) Baş katibliyinin binasında "Bəxtiyar Vahabzadənin Anım İli" proqramının açılış mərasimi keçirilib. Görkəmli Azərbaycan şairinin kitablarından ibarət sərgi açılıb. AMEA-nın Ədəbiyyat İnstitutunda isə bugünlərdə "Ədəbiyyatımızın Bəxtiyarı" adlı elmi sessiya keçirilib. Ölkəmizdə ədəbiyyata qayğının daha bir təzahürü də bu yaxınlarda yazıçı Afaq Məsuda Prezidentin fərdi təqaüdünün verilməsi barədə sərəncamın imzalanmasıdır.

Minillik tariximizi, adət-ənənələrimizi özündə əks etdirən Novruz bayramı maraqlı mövzulardan biri olaraq bütün sənət adamları kimi, yazıçı və şairlərin də diqqətini çəkir. Elə buna görə də Dünya Poeziya Gününə həsr olunan bu səhifədə məhz Novruz ruhlu poetik nümunələrə üstünlük vermişik.

### Bahar və mən

*Səməd VURĞUN, Xalq şairi*



Bahar nə xoş gəlir, ruha dad verir,
Xəyala, duyğuya qol-qanad verir;
Var olsun şerimiz, şairlərimiz! –
Hər gülə, çiçəyə təzə ad verir.

Çıxır dağ döşünə körpə quzular,
Tərlanın səsini əks edir sular.
Səhər yuxusundan ayıldır məni
Sinəmə sığmayan böyük duyğular.

Könül dinc durmayır, oynayır yenə,
Əzəldən aşiqəm həyat şerinə;
İlk dəfə oğlumun əlindən tutub
Çıxmışam şəhərin tərlan seyrinə.

Ölümə can verməz ölsən baharda,
Könül müqəddəsdir, qalmasın darda;
Baharın eşqiylə çıxır yuvadan
Balası dalında qarışqalar da.

Yaşıl köynəyini geyinir meşə,
Yaxama quş kimi qonur bənövşə;
Qoy məndən dərs alsın qoca təbiət,
O da könlüm kimi gülsün həmişə.

Bahar nə xoş gəlir, ruha dad verir,
Xəyala, duyğuya qol-qanad verir;
Var olsun şerimiz, şairlərimiz! –
Hər gülə, çiçəyə təzə ad verir.

### Heydərbabaya salam

*Məhəmmədhüseyn ŞƏHRİYAR*
(Bir parça)



Heydərbaba, kəndin toyun tutanda,
Qız-gəlinlər həna, piltə satanda,
Bəy gəlinə damnan alma atanda,
Mənim də o qızlarında gözüm var,
Aşıqların sazlarında sözüm var.

Heydərbaba, bulaqların yarpızı,
Bostanların gülbəsəri, qarpızı,
Çərçilərin ağ nabatı, saqqızı
İndi də var damağımda, dad verər,
İtkin gedən günlərimdən yad verər.

Bayram idi gecəquşu oxurdu,
Adaxlı qız bəy corabın toxurdu,
Hər kəs şalın bir bacadan soxurdu,
Ay nə gözəl qaydadı şal sallamaq,
Bəy şalına bayramlığın bağlamaq.

Şal istədim mən də, evdə ağladım,
Bir şal alıb tez belimə bağladım,
Qulamgilə qaçdım, şalı salladım,
Fatma xala mənə corab bağladı,
Xan nənəmi yada salıb ağladı.

Bayram olub, qızıl palçıq əzərlər,
Naxış vurub otaqları bəzərlər,
Taxçalarda düzmələri düzərlər,
Qız-gəlinin fındıqçası, hənası,
Həvəslənər anası, qaynanası.

Bakıçının sözü, sovu, kağızı,
İnəklərin bulaması, ağızı,
Çərşənbənin girdəkanı, mövizi,
Qızlar deyər: "Atıl-matıl, çərşənbə,
Ayna təkin bəxtim açıl, çərşənbə"

### Bu yaz gecəsində sevməyə nə var?

*Ramiz RÖVŞƏN, Xalq şairi*



Çiçəklər doğulur bu yaz gecəsi,
bu yaz gecəsində sevməyə nə var?!
Dərsəm güllərini bu gələn yazın,
Sallanıb yellənsəm budaqlarından,
Eşitsəm adımı sevən bir qızın,
Hələ öpülməmiş dodaqlarından, –
bu yaz gecəsində ölməyə nə var?!..

...Çiçəklər doğulur bu yaz gecəsi,
uzaq xəstəxana otaqlarında.
Başını dipçəkdən uzadıb baxır
yatan xəstələrin hər birisinə.

Hələ qorxaq ətri, utancaq ətri
qarışır otağın yad iyisinə,
dərman iyisinə, yod iyisinə...
Çiçəklər doğulur bu yaz gecəsi,
çiçəklər açılır güllə səsinə.
Güllə açılır;
Ağ-ağ köynəklərin yaxalığında,
Sağ-sağ ürəklərin yaxınlığında
güllər açılır,
Güllələr açılır, güllər açılır,
çiçəklər açılır bu yaz gecəsi...

Çiçəklər doğulur bu yaz gecəsi,
Parisdə, Təbrizdə, həyətimizdə.
Bu yaz gecəsində çiçəkləyəcək,
bəlkə dərdimiz də, həsrətimiz də.

Çıxacaq yollara çiçəkli qızlar,
Nə baxmağa güc var, nə göz yummağa.
Nə çiçək verməyə bir kimsəmiz var,
Nə bir kimsəmiz var çiçək ummağa...

...Dərsəm güllərini bu gələn yazın,
Sallanıb yellənsəm budaqlarından,
Eşitsəm adımı sevən bir qızın,
Hələ öpülməmiş dodaqlarından, –
bu yaz gecəsində ölməyə nə var?!.

### Quşlara heç zaman daş atmadım mən

*Ayaz ARABAÇI*



Kömək istəmədim şər allahından,
Qəlbimdə pisliklər yaşatmadım mən.
Kövrək qanadların qorxdum ahından,
Quşlara heç zaman daş atmadım mən.

Könlümdə yazlanıb, baharlandılar,
Göylər sevincimlə bahalandılar,
Özləri ucdular- buxarlandılar,
Quşlara heç zaman daş atmadım mən.

İçimdə od hansı, su hansı, bildim,
Quşları anamın duası bildim,
Qəlbimi quşların yuvası bildim,
Quşlara heç zaman daş atmadım mən.

Məğribdən məşriqə ta bəsimiydi,
Körpə çağlarımın təbəssümüydü,
Quşlar hər arzumun təcəssümüydü,
Quşlara heç zaman daş atmadım mən.

Tale dəyişilməz, qədər qaçılmaz,
Haqdan kin püskürməz, nifrət saçılmaz,
Qorxudum ki, gün çıxmaz, səhər açılmaz,
Quşlara heç zaman daş atmadım mən.

Başımdan min bəla adlatdım amma,
Çox şeyin daşını mən atdım amma,
Çörək ovxaladım, dən atdım amma,
Quşlara heç zaman daş atmadım mən.

### BU YAZ...

*Ələsgər ƏLİOĞLU*



Bu yazın yolunu gözləmişəm çox,
Bu yazın ucundan sızlamışam çox.
Kolların dibini izləmişəm çox, -
Bu yazın nazını çəkəsiyəm mən.

Bu yazın yaxından gördüm üzünü,
Bu yazın dilindən nəğmə süzülür.
Qışın ağlığından doyan gözümü,
Bu yazın gözünə dikəsiyəm mən.

Bu yazın önündə durmaq çətindir,
Bu yazın hənrindən qar da çəkindi...
Çılğın hisslərimi noğultək indi,
Bu yazın başından tökəsiyəm mən.

Bu yazın eşqindən köksüm qabarır, -
Bu yazın ilhamı haray qoparır.
Payızdan qəlbimdə qalan qubarı,
Bir yaşıl yarpağa bükəsiyəm mən, -
Bu yazın nazını çəkəsiyəm mən...

### SEVGİ DƏRSİ

*Əlizadə NURİ*



Sevgi yazdırmasa, qələm də yazmaz,
Nə olsun yazmağa bir az təbim var.
Səni unutmaqçün tək bir səbəb de,
Səni sevmək üçün yüz səbəbim var.

Eşq elə yaradı, yeri qalmalı...
Biri sağalanda, biri qalmalı.
Min dəfə ölsən də, diri qalmalı-
Mənim də sevgidə belə dəbim var.

Qoymaram o mizrab hər simə gəlsin,
Kim dedi bu gələn tərsinə gəlsin?
Sevmək istəyənlər dərsimə gəlsin-
Haçandı mənim də bir məktəbim var.

### Həmişəyaşıl bir ağacdır insan

*Şahin HƏMİDİ*



Qaranlıq gecənin dodaqlarında
Səhər açılmamış dan çiçəkləyir.
Zaman ağacının budaqlarında
Tumurcuq-tumurcuq an çiçəkləyir.

Adama ruh verir ilk bahar kimi
Arzunu, istəyi yemləyir ömür.
Pıqhapıq qaynayir samovar kimi
Günləri, ayları dəmləyir ömür.

Suvarıb becərir dərdi-sərini,
Həyat tarlasını biçirdir bizə.
Həm sevinc, həm də qəm badələrini
Dünya öz əliylə içirdir bizə.

Ürəyi tamahla çətin ovunar,
Uca dağlardan da bu uca dünya.

Çıxır çəkinmədəm insan ovuna
Gah cavan aparır, gah qoca dünya.

Özü öz başında br tacdır insan
Ömrünü yaşayır ənənə kimi.
Həmişəyaşıl bir ağacdır insan
İstəyi saralmır ölənə kimi.

Yeni kitab

## Yaz ətirli, poetik fəlsəfə

**Baharın ılıq nəfəsli bir günündə dağlar diyarı Yardımlıda dünyaya göz açan Rafiq Ələkbər hüquqşünas olsa da, ana təbiətin verdiyi ilhamla gözəl şeirlər yazır. Təsadüfi deyil ki, tənqidçi Hikmət Məlikzadə onun haqqında yazdığı monoqrafiyada Rafiq Ələkbər yaradıcılığını ədəbi zərurət adlandırıb.**






Bu yaxınlarda şairin "Mənim fəlsəfəm" adlı sayca 10-cu şeirlər kitabı "Mütərcim" nəşriyyatında işıq üzü görüb. Daha öncə onun "Mən Tanrı yolçusuyam", "Ruhum əbədiyyətim","Eşq qəlbin ruhudur", "İlahi nur", "İrfan və eşq görüşləri", "Savalanla üz-üzə" və sair kitabları oxucu marağına səbəb olub. Şair həyatı idrak məsamələrində axtarır və oxucularına Tanrının verdiyi vaxt fürsətindən yetərincə bəhrələnmək barədə bədii çağırışlar edir.

Onun şeirlərində həyat fəlsəfəsi ilə yanaşı, təbiət təsvirləri, yurdun gözəllikləri, baharın tərənnümü, Novruz ruhlu düşüncələr də diqqət çəkir:

**Elə ki başladı Novruz bayramı,**
**Elata qayıdan, yurda qayıdan...**
**Üzünü gizlədən gəlinlər, qızlar**
**Qıyqacı baxardı kəlağayıdan.**

Bu misralar kimləri, nələri yada salmır! Elimizdə, obamızda bayram tədarükü görən analar, Aya baxanda yaşmaqlanan qızlar, yar sonalayan igidlər, küsülülərin barışması...

**Pozular sözünün əhdi-peymanı,**
**Eşqdə məhəbbətdə doğru olmasan.**
**– O qız gəlməyəcək sənə, – deyirlər,**
**Əgər saqqızını oğurlamasan.**

Ölkəmizin hər yanında bayram tonqalları şölələnən bir vaxtda bu qeydləri yaza-yaza yadıma şairin oda sitayiş edən bir qövmün övladı olması ilə bağlı iblisə dediyi misralar düşür:

**Oddan yaranmaqla öyünmə çox da,**
**Mən də od yurdunun oğluyam, şeytan.**

Rafiq Ələkbərin, demək olar ki, bütün şeirləri, bax, belə, ovqatca duru, mənaca düşündürücü və müfəssəldir. Şair sanki baharın gəlişi ilə tonqal üstündən tullanaraq "ağırlığını-uğurluğunu" yandıran bir gəncin duyğularını qələmə alır:

**İşıq düşdü ağrı-acıma indi,**
**Keçdiyin yola ta acıma indi.**
**Baxıram ağaran saçıma indi,**
**Bir az yüngülləşir dünyanın dərdi.**

Ardınca isə yaz güllərindən beçə balı yığan arıların nizamlı çalışmalarını təqdir edərək deyir:

**Bəlkə də arıya bənzəyək bir az,**
**Günah əməllərin onda sonu var.**
**Arı pətəyində İlahi nizam,**
**Arı dünyasının öz qanunu var.**

Özü də arı kimi sözün şəhdini-şirəsini yığıb ballı misraları, şeirləri ilə ruh oxşayan şair Rafiq Ələkbər yorulmadan qələm çalır, yazıb-yaradır. Ankara şəhərində fəaliyyət göstərən Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən "İlin ziyalısı" fəxri adına layiq görülən və "Avropa Şərəf Ordeni" ilə təltif edilən şairə daha böyük uğurlar arzulayırıq.

*Səhifəni hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*




## Türk dünyasında elmi diplomatiyanın gücləndirilməsinə dəstək

**Xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayevlə görüşüb.**

Görüş zamanı akademik əməkdaşlıq, Türk dünyasında elmi əlaqələrin genişləndirilməsi və Azərbaycan alimləri ilə yeni tərəfdaşlıq imkanları müzakirə edilib.

Şahin Mustafayev bu il Türk Akademiyasının 15 illik yubileyini qeyd etdiyini bildirərək qurumun 2025-ci il üçün fəaliyyəti və həyata keçirdiyi mühüm layihələr barədə məlumat verib. O, akademiyanın fundamental elmi tədqiqatların aparılması, beynəlxalq konfransların təşkili kimi gördüyü işlərdən də bəhs edib.

Görüşdə Azərbaycan Milli Elmlər Akademiyası və azərbaycanlı tədqiqatçılar ilə əməkdaşlığa xüsusi diqqət yetirilib.

Xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Türk Akademiyasının fəaliyyətini yüksək qiymətləndirdiyini bildirib və Türk dünyasında elmi diplomatiyanın gücləndirilməsində akademiyanın mühüm roluna diqqət çəkib. O, həmçinin iki tərəf arasında əməkdaşlığın daha da inkişafına dəstək verməyə hazır olduğunu bildirib.

***Qabil YUSİFOĞLU***
***XQ***

**Natəvan Şeyxova – 80**

# Zamana "Dayan!" deyən vokalçı

**Üzündən xoş ifadə və təbəssüm əskik olmayan Xalq artisti Natəvan Şeyxova musiqimizin sevilən ifaçılarındandır. Çıxışları, konsertləri illər uzunu böyük maraq kəsb edib. Xaricdə Azərbaycanın 4 Mədəniyyət və İncəsənət dekadasında iştirak edib. Hər zaman ətrafında işıqlı aura yaradan sənətkarlardandır.**

Bakı Musiqi Məktəbinin professoru Natəvan Şeyxova orada klassik vokaldan dərs deyir. İstedadlı tələbələri ilə fəxr edir. Onlardan Opera Teatrında, Akademik Musiqili Teatrda, Kapellada işləyənlər var. Bir neçə metodik tövsiyə nəşrlərinin müəllifidir. Kiyevdə keçirilən "Böyük səhnə", Dağıstanda təşkil olunmuş "Sənin və mənim mahnım" müsabiqələrində, "Eurovision 2012"-nin milli seçim turunda münsif heyətində yer alıb. Eləcə də Rusiya mədəni-informasiya mərkəzində Natəvan Seyidzadə-Şeyxovanın möhtəşəm yaradıcılıq axşamı keçirilib. 2015-ci ildən Prezidentin fərdi təqaüdçüsüdür.

O, 1945-ci il martın 18-də Bakıda dünyaya göz açıb. Yeniyetmə qızcığaz olan vaxtlarından kinoaktrisalığa həvəslənib, hətta "Onun böyük ürəyi" filmində Lalə roluna çəkilib. Ardınca "Arşın mal alan"ın kastinqlərində Asya rolu üçün yoxlanılıb, amma sınaqdan keçməyib. Beləliklə, onu gələcəyin kino ulduzu kimi itirsək də, əvəzində Azərbaycan mədəniyyəti gözəl bir müğənni qazanıb.

Natəvan xanım deyir ki, evdə, məktəbdə mahnılar oxuyardı. Atası onu Xalq artisti Rauf Atakişiyevin yanına aparanda 20 yaşında uzun hörükləri olan bir qız idi. Tenor səsli pedaqoq, pianoçu Natəvanın ifalarını dinləyib və rektor, bəstəkar Cövdət Hacıyevin rəhbərliyi ilə mötəbər komissiyanın qarşısında imtahan verməyi məsləhət görüb. Qəbul imtahanından uğurla çıxan Natəvan konservatoriyanın tələbəsi olub.

Rauf Hacıyevin rəhbərlik etdiyi estrada orkestrində gələcək həyat yoldaşı, saksofonçu Rafiq Seyidzadə ilə bir-birinə könül veriblər. Elçiliyi isə əvvəlcə orkestr heyətinin, demək olar ki, yarısı ilə edilib, sonra oğlanın ailəsi xonçalarla Natəvangilin qapısına gələrək razılıq alıb. Gənclərin toyu isə Natəvanın yeniyetməlikdən sevimli ünvanı olan kinostudiyada keçirilib. O gün-bu gün, düz 60 ildir ki, təməli möhkəm bir ailə olublar. Şeirlər yazan, mahnılar bəstələyən Əməkdar incəsənət xadimi Rafiq Seyidzadə və səhnədə hər zaman göz oxşayan, gözəl səsli Xalq artisti Natəvan Şeyxova.



Yubilyar sənətçi xanım vaxtilə çox populyar olub. Qazandığı hörmət, rəğbət, məhəbbət zərrə qədər də azalmayıb. Çünki o, qulağayatan səs tembri, ürəyəyatan görkəmi və davranışları, səmimiyyəti ilə seçilib. Şövkət Ələkbərova, Sara Qədimova, Gülağa Məmmədov, Rəşid Behbudov, Lütfiyar İmanov, məşhur "Qaya" ansamblı, Oqtay Ağayevlə birgə işləyib. "Sən ürəyimsən", "Könül nəğməsi", "Mehribanım", "Ürəyimi verdim sənə" kimi mahnılarını xanımlar daim zümzümə edirdilər.

Həyat yoldaşı filarmoniyanın direktoru olanda Natəvan xanım həmkarları ilə daha çox ünsiyyət bağlayıb: "Konsert bölməsində kimlərlə işləməmişəm? Şövkət, Sara, Tükəzban, Əbülfət, Rübabə, Lütfiyar, Mirzə, Nəzakət (Məmmədova), tarzən Hacı Məmmədov... O zaman mən, Akif İslamzadə, İlhamə Quliyeva gənc idik. Tez-tez bayram konsertləri keçirilirdi. Zavod və fabriklərdə, rayonlarda əməkçi insanlar qarşısında konsertlər təşkil olunurdu. "Təşviqat qatarı" vardı. Mədəniyyət və incəsənət adamları bu tədbirlərdə iştirak edirdilər. Biz hamımız o səfərlərdə iştirak edirdik. Bir rayonda konsert verdikdən sonra qatarla digər bir rayona gedirdik. Onda yaşlı nəsil bizə çox diqqət və sevgi ilə yanaşırdı. Biz də onlara hörmət edirdik. Nəsillər arasında ünsiyyət vardı".

Sevimli sənətçimiz nəsillərin müqayisəsini də özünəməxsus şəkildə aparır: "Biz o zaman geniş auditoriya üçün oxuyurduq. Hər yerə afişalar vurulurdu. Konsertlər böyük anşlaqla keçirdi. Biz Azərbaycanı hər yerdə layiqincə təmsil edirdik. İndi elə bir tendensiya yaranıb ki, institutu qurtarandan sonra şou bizneslə məşğul olmaq istəyirlər. Sənəti daim ucada tutmalısan ki, özün də ucalasan".

Bu yaxınlarda bir konsertdə gözəl sənətkar "Dayan, zaman, dayan" deyə səhnədə yenə də performans göstərdi. Arxadakı fonda gənclik illərinin videosu ilə müşayiət olunurdu. Bu gün və dünən, sanki, üz-üzə gəlmişdi. Natəvan xanım isə arada etibarlı bir körpü idi. Ruhoxşayan səsi salonu bahalı ətir kimi bürüdü. Bir daha əmin olduq ki, özü demişkən, müğənni, ana, həyat yoldaşı kimi xoşbəxtdir. Biz də bu xoşbəxtliyin daha uzun sürməsini arzu edirik!

***Əli NƏCƏFXANLI***
***XQ***

# Kinomuzun "sənət alpinisti"

**Kinorejissor, təsvir rejissoru, ssenarist, kinoprodüser, Əməkdar incəsənət xadimi, Azərbaycan Professional Kinorejissorlar Gildiyası İdarə Heyətinin sədri, Avropa Kino Akademiyasının üzvü Hüseyn Mehdiyev ömrünün 80-ci ilinin zirvəsində "sənət alpinisti" kimi məğrur görünür.**



Hüseyn Mahmud oğlu Mehdiyev 1945-ci il martın 19-da anadan olub. Moskvada Ali Ssenaristlər Kurslarının ilk məzunlarından olan böyük qardaşı Tofiq Mahmudun təsiri ilə kinoya könül verən Hüseyn bu barədə kitabları əlindən yerə qoymur, filmlərə baxmaqdan doymurdu. Rəssam qardaşı Rafiq Mehdiyevin isə onun vizual aləminin və estetikasının formalaşmasında böyük rolu olub. Beləcə, gələcək tale yolu müəyyənləşib. Yaşadıqları Bakı mühiti də onu sənətə ömürlük bağlayıb. Azərbaycan Politexnik İnstitutunda və Moskva Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda təhsil alıb. Əvvəlcə ölkənin qəzet və jurnallarında, əsasən "Qobustan" və "Ulduz" dərgilərində fotojurnalistika ilə məşğul olub. "Fotopoeziya" və "Musiqi etüdləri" adlı fotokitabları nəşr edilib.

Sonra Hüseyn Mehdiyev "Azərbaycanfilm" kinostudiyasında təsvir rejissoru kimi fəaliyyətə başlayır. 1984-cü ildən həm də rejissor kimi fəaliyyət göstərir. Onun yaratdığı filmlər bir çox beynəlxalq kinofestivallarda (Berlin, Madrid, Sankt-Peterburq, Moskva, Ankara, Vankuver, Daşkənd, Qahirə və s.) iştirak edir.

Bakının həndbolçu qızları haqqında 1978-ci ildə çəkilmiş "Dissonans" sənədli filminin dinamik kadrları, qələbə uğrunda gərgin mübarizənin özəl anları indi də gözlərim önündə canlanır. Ekrandan bir anlıq belə göz çəkmək, hətta nəfəs dərmək belə mümkün deyildi. Azərbaycanın idman şərəfini layiqincə qoruyan qızlar bu film-reportajda əsl fədakarlar kimi təqdim edilirdi. Müəlliflərin kimlər olduğunu bilmək üçün səbirsizliklə sonluq titrlərini gözlədim. Nəhayət, imzalar yazıldı: rejissor Teymur Bəkirzadə, ssenari müəllifi Fərəməz Səfiyev və operator Hüseyn Mehdiyev. 20 il sonra dövlət televiziyasının "İdman proqramları" baş redaksiyasında çalışdığım vaxt verilişlərimin birini məhz "Dissonans"a həsr etdim.

Kinofestivallarda "Dissonans" qızıl və bürünc medallar alıb, eləcə də "Ancaq adanı özünlə apara bilməzsən" filmi baş mükafat, "Özgə vaxt" filmi "Ən yaxşı rejissor" və "Ən yaxşı gənc aktyor" nominasiyalarında mükafatlara layiq görülüb.

Hüseyn Mehdiyevin filmoqrafiyası "Şuşa", "Babamızın babasının babası", "İşgüzar səfər", "Qəm pəncərəsi", "Qoca palıdın nağılı", "Şəhərli biçinçilər", "Səhnədə keçən həyat", "Mirzə Fətəli Axundov", "Süni bənövşələr", "Şahid qız", "Özgə vaxt", "Məkanın melodiyası" kimi sənədli və bədii filmlərlə də zəngindir. O, 1993-cü ildən 2001-ci ilə qədər kinematoqrafiya sahəsini idarə edən "Azərkinovideo" İB-də baş direktor müavini vəzifəsində çalışıb. Bu zaman kinomuz üçün vacib olan iki qurumun: Dövlət Film Fondu və Kinorejissorlar Gildiyasının yaradılmasının təşəbbüskarı olub. "Beynəlxalq Audiovizual Festival" və "Qızıl Pəri" Peşə mükafatı layihələrinin müəllifi və rəhbəri olub.

Bu gün Hüseyn Mehdiyevin 80 yaşı tamam olur. Onu təbrik edir və haqqında yazdığımız qeydləri öz sözləri ilə bitiririk: "Kino adamının bir günü də kinosuz keçmir, ən azı, filmlərə baxır. Yaradıcılıq həmişə var. Bu, yaradıcı insanın, sənətkarın təbii varlığıdır".

***Ə.DOSTƏLİ***
***XQ***

**Əşrəf Abbasov – 105**

# Üzeyir məktəbinin yetirməsi

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Qara Qarayev adına konfrans zalında "Üzeyir Hacıbəyli - 140" yubiley ili çərçivəsində, Xalq artisti, professor, görkəmli bəstəkar Əşrəf Abbasovun anadan olmasının 105 illiyinə həsr olunmuş elmi-praktiki seminar keçirilib.**



**Xalq artisti, professor Fərhad Bədəlbəyli açılış nitqi ilə çıxış edərək bəstəkarın yaradıcılığını yüksək qiymətləndirib:**

– Çox xoşbəxtəm ki, bu böyük bəstəkarın tələbəsi olmuşam. Atamla bir yerdə "Qaraçı qız" baletinin üzərində işləyib. Əşrəf müəllim elə bir insan idi ki, öz sahəsində çox dərin elmi bilikləri var idi. Azərbaycan musiqisinin nəzəri problemlərini araşdıran tədqiqatçı-alim idi.

Məclisdə Əşrəf Abbasova həsr olunmuş "İlmələrin sədası" adlı sənədli film nümayiş olunub. Ardınca akademiyanın tələbələri Fidan İbrahimova, Nigar Əsgərova, Neftçala Uşaq İncəsənət Məktəbinin 4-cü sinif şagirdi Fəxriyyə Novruzlu və digərlərinin ifasında bəstəkarın musiqiləri səsləndirilib.

Daha sonra Ü.Hacıbəyli adına BMA-nın prorektoru, Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru Gülnaz Abdullazadə "Azərbaycan bəstəkarlıq məktəbində Əşrəf Abbasovun rolu", Əməkdar mədəniyyət işçisi, fəlsəfə doktoru Səadət Təhmirazqızı "Əşrəf Abbasovun elmi fəaliyyətində Üzeyir Hacıbəyli irsi" mövzusunda məruzə ilə çıxış ediblər.

**Əməkdar incəsənət xadimi, bəstəkar Cəlal Abbasov XQ-yə atası ilə bağlı xatirələrini söyləyib:**

– 5 yaşım olardı. Atam məni filarmoniyaya simfonik konsertə apardı. 6 yaşım olanda isə piano dərslərinə yazıldım. 10-cu sinifdən musiqilər bəstələməyə başladım. Lakin çox utanırdım. Bəstələdiyim musiqiləri atamdan gizlətməyə çalışırdım.

Hərdən atama qonşular deyirdilər ki, sizin evdən musiqi səsləri gəlir, amma bu sənin üslubun deyil. Anamdan soruşdu bu barədə. O da dedi ki, uşaq nə isə etməyə çalışır. Atam məndən soruşdu ki, nə bəstələmisən, gətir baxım. Göstərdim. İfa etdim. Və beləcə bəstələrimlə tanış oldu.

***Fidan SALMANOVA***
***XQ***

# Poetik duyğuların söz zərgəri



**Sumqayıtda Əli Kərim adına Poeziya evinin və Azərbaycan Yazıçılar Birliyi (AYB) şəhər bölməsinin təşkilatçılığı ilə tanınmış şair Məmməd İlqarın 75 illik yubileyi keçirilib.**

Məclisi giriş sözü ilə AYB poeziya sektorunun rəhbəri İbrahim İlyaslı açaraq Məmməd İlqarın Azərbaycan dilinin bütün incəliklərinə dərindən bələd olan, poetik duyğuların söz zərgəri kimi, incəliklə çatdıran şair kimi təqdim edib.

Elçin Hüseynbəyli AYB rəhbərliyi, Gülnarə Cəmaləddin birliyin Sumqayıt bölməsi, Fərman Kazımov Sumqayıt Şəhər İcra Hakimiyyəti adından yubilyarı təbrik ediblər.

Məclisdə Məmməd İlqara "Dədə Ələsgər" medalı və "Qazax" Xeyriyyə İctimai Birliyi İdarə Heyətinin mükafatı təqdim edilib.

***XQ***

**Azərbaycan Milli Mətbuatı –150**

# Jurnalistlərin unudulmaz müəllimi

## *Professor Nurəddin Babayev publisistika nəzəriyyəçisi və parlaq qələm sahibi idi*

**Sevilən yazar olmaq hər qələm sahibinə qismət olmur. Bunun üçün təkcə yaxşı yazmaq bəs eləmir. Şübhəsiz, ilk növbədə, oxucunun nəbzini tutmaq, onu düşündürən problemlərdən, ana dilinin imkanlarından bacarıqla istifadə etməklə, oxunaqlı əsərlər ortaya qoymalısan. Bundan əlavə, yazdıqlarınla şəxsiyyətin bütövlük, uyğunluq təşkil etməlidir. Sonra xalqın taleyüklü problemlərinin həlli yolunda vətəndaşlıq qeyrəti göstərməli, mənəvi cəhətdən saf, səmimi insan olmalısan və sair və ilaxır.**



Baharın ilk günlərində dünyaya gələn yazıçı-jurnalist, publisist, pedaqoq, professor Nurəddin Həsən oğlu Babayev (1921–1991) belə yazar, belə bir insan idi. Azərbaycan mətbuatının və jurnalistikasının inkişafında da onun böyük xidmətləri var.

Zamanında əsərləri minlərlə insanın stolüstü kitabına çevrilmişdi və yüksək qiymətləndirilirdi. Əsərlərinin qəhrəmanları sadə, fədakar insanlar – həyata yeni atılan gənclər, halal çörəyi üçün illərini tarlada, neft mədənlərində, cəbhələrdə keçirən soydaşlarımız idilər. Onların çoxunu vətən sevgisi, mənəvi saflıq, milli dəyərlərə hörmət hissi birləşdirirdi.

N.Babayev dövrünün ən populyar yazarlarından biridir. 30-a yaxın müxtəlif səpgili kitabları nəşr edilib. Bu əsərlər faşizmə qarşı mübarizədə igidlik göstərən Azərbaycan oğullarının çoxlarına bəlli olmayan döyüş yolundan, Xəzər neftçilərinin fədakar əməyindən, gəncliyin mənəvi dünyasından bəhs edir. Əsərlərinin bir çoxunun sənədli olması onların bədii dəyərini azaltmayıb. Sənətşünaslıq doktoru Mehdi Məmmədov Nurəddin Babayevin "Oğluma məktublar" kitabına yazdığı ön sözdə qeyd edir ki, atalardan oğullara irs qalan təkcə həyatın nemətləri, maddi sərvətləri deyil. Tərbiyə, əxlaq, yüksək mənəviyyat da zəngin bir irsdir. Bu irsiyyət olmasa, tərbiyə və mərifətin, əxlaqın, zehniyyətin gözəl ənənələri qorunmasa və inkişaf etdirilməsə, varislər ruhən qüvvətli və həqiqətən, xoşbəxt ola bilməzlər. Övladlarını xoşbəxt görmək istəyənlər bunu unutmamalıdırlar!

Bu fikir Nurəddin Babayevin bütün əsərlərinin əsas ideya xəttini təşkil edir. Həmin əsərlər ("Ulduzlar sönmür", "Əgər sən olmasaydın", "Ürəklər bir olanda", "Səni unutmuruq", "İşıq və məhəbbət", "Qızlar, sözüm sizədir", "Oğluma məktublar" və sair) öz dövründə həvəslə oxunub, bəzən bir neçə dəfə çap edilib, geniş müzakirələrə səbəb olub və milyonların stolüstü kitabına çevrilib. Onun bir sıra əsərləri, nəinki əski Sovetlər İttifaqında, eyni zamanda, Avropanın ondan çox ölkəsində nəşr edilib.

Bir vaxtlar Babayevlər nəsli Gəncədə yaxşı tanınıb. Nurəddin müəllimin böyük əmisi çar ordusunun generalı olub. Kiçik yaşlarında olarkən ailəsi Bakıya köçüb. Orta təhsilini 134 saylı məktəbdə alıb. Ədəbiyyata və sənətə marağı ilə sinif yoldaşlarından seçilib. Ədəbi yaradıcılığa çox gənc ikən başlayıb. Onun gəncliyi müharibə dövrünə düşüb. Faşizmə qarşı müharibədə ön cəbhədə vuruşub və döyüşlərin birində ağır yaralanıb. O, cəbhədən baş leytenant rütbəsi ilə qayıdıb. Elə həmin il Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olub. 1945-ci ildə "Əbədi qəhrəmanlıq" adlı ilk kitabı çap olunub.

Müharibənin son illərində "Kommunist" qəzetində şöbə müdiri, "Azərbaycan müəllimi" qəzetində redaktor müavini, "Uşaqgəncnəşr" və C.Cabbarlı adına "Azərbaycanfilm"də baş redaktor işləyib. Eyni zamanda o, "Bacarıqlı əllər" (1963), "Nizamı yurdu" (1968), "Azərbaycan elmi" (1969), "Həyatın mənası" (1979) və başqa elmi-sənədli filmlərin ssenarisini yazıb. Nurəddin müəllim Azərbaycanda bədii oçerk janrının nəzəri əsaslarını yaradıb və ilk nümunələrini yazıb.

N.Babayev Azərbaycan Yazıçılar İttifaqında oçerk və publisistika Şurasının sədri, 1954-ci ildən SSRİ Yazıçılar İttifaqının üzvü, oçerk və publisistika Şurasının üzvü, Jurnalistlər İttifaqı İdarə Heyətinin katibi, Əməkdar İncəsənət xadimi, neçə-neçə mükafatın laureatı olub. Nurəddin Babayev 1991-ci ildə, uzun sürən xəstəlikdən sonra vəfat edib.

Tanınmış heykəltəraş Görüş Babayev Nurəddin müəllimin böyük oğludur. İşlədiyi heykəllər Bakıda (Dədə Qorqudun heykəli), Gəncədə (Mirzə Şəfi Vazehin heykəli), Ərzurumda (Atatürkün abidəsi), Sankt-Peterburqda (Nizami Gəncəvinin heykəli), Sumqayıtda (Nizami Gəncəvinin heykəli) və digər şəhərlərdə meydanları bəzəyir.

Görüş bəylə bir vaxtlar Nurəddin müəllimin yaşadığı mənzildə görüşdük. Mənzildə sıxlıq idi. Diqqətimi ilk cəlb edən divardakı yağlı boya ilə işlənmiş əsərlər, müxtəlif illərin fotoları, kitab bağlamaları və Görüş bəyin böyük ölçüdə yarımçıq qalmış rəsmləri oldu. O kitabların arasında Nurəddin müəllimin də əsərləri vardı. Bu məkan mənzildən çox rəssam emalatxanasına bənzəyirdi. Kiçik dairəvi stolun üstünə kətan süfrə salınmış, oraya bayram şirniyyatı düzülmüşdü...



Görüş bəydən ötən illərə qayıtmağı, atalı-analı illərini bir yada salmağı xahiş etdim.

Müsahibim gülümsəyib dedi ki, bilməmiş olmazsan, rəssamların çoxu danışmağı sevmir, elə mən də. Amma atamın yazdığı "Oğluma məktublar"ı hər dəfə oxuyanda onun necə saf, böyük ürək sahibi olduğunu xatırlayır, xəyalən onunla həmsöhbət oluram:

– Atamla anam həm orta məktəbdə, həm də universitetdə bir oxuyublar. Sevgiləri də orta məktəbdən başlayıb. Amma anam Azərtac xanım, demək olar ki, işləməyib. Səbəb də biz – üç qardaş olmuşuq. Anamın atamızı çox sevdiyini mən böyüyəndən sonra başa düşdüm. Bizim atamıza sevgimizin çoxluğuna səbəb də anamın onun haqqında söhbətləri olub. Atam səfərlərdə çox olurdu, eyni zamanda, universitetdə dərs deyirdi. Onun gəlişini maraqla gözləyirdik. Hər səfərindən sonra maraqlı söhbətlər edirdi. Axşamlar da, adətən, biz yatandan sonra stol arxasına keçib yazırdı. Onun ilk oxucusu anam idi.

İşinin çox olmasına baxmayaraq, arabir bizi gəzməyə aparırdı. Özümüzdən xəbərsiz müəllimlərimizlə əlaqə saxlayır, necə oxuduğumuzu öyrənirdi. Atamın ən yaxın dostları yazıçı-alim Mir Cəlal Paşayev, bəstəkar Fikrət Əmirov, heykəltəraş Cəlal Qaryağdı, aktyor, sənətşünaslıq doktoru Mehdi Məmmədov olublar. Cəlal müəllim mənim yaxşı əl qabiliyyətimin olduğunu bilirdi və heykəltəraş olmağımda onun rolu çox olub. Atam bizim peşə seçimimizə mane olmayıb. Qardaşımın biri həkim, kiçiyi isə şərqşünas olub.

Görüş bəy ailə albomunu gətirmək üçün qonşu otağa keçdi. Mən yenə əyləşdiyim otağı "səyahətə" çıxdım. Otağın yuxarı başında Nurəddin müəllimin portreti asılmışdı. Mənə elə gəldi ki, o bayaqdan söhbətimizi dinləyirmiş...Sonra üzü Hökumət Evinə, dənizə açılan aynabənddən uzaqlara baxdım. Yəqin ki, bir vaxtlar Nurəddin müəllim bu balkonda dayanıb övladları, dostları, yeni yazacağı əsəri, onun qəhrəmanları haqqında düşünüb...

Görüş bəyin gətirdiyi şəkillər arasında Nurəddin müəllimin Azərtac xanımla gənc yaşlarında qoşa çəkdirdikləri bir neçə şəkil də vardı. Eyni zamanda, albomda o dövrün, belə demək olarsa, qaymaq ziyalılarının çoxunun şəkilləri vardı və o fotoların çoxu çap üzü görməyib...

Nurəddin Babayev 1953-cü ildə universiteti bitirdikdən sonra elmi-pedaqoji fəaliyyətə başlayıb və filologiya fakültəsinin nəzdindəki jurnalistika kafedrasında baş müəllim işləyib. 1958-ci ildə "Azərbaycanda bədii oçerkin inkişafı" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib.

1969-cu ildə tanınmış alim və yazıçıların, o cümlədən N.Babayevin səyləri nəticəsində Azərbaycan Dövlət Universitetində jurnalistika fakültəsi yaradılıb və o, burada ilk dekan olub.

Azərbaycan Jurnalistlər İttifaqının təşkil olunması üçün də Nürəddin müəllim çox çalışıb. Filologiya elmləri doktoru, professor Cahangir Məmmədli deyir ki, Nurəddin Babayev mənim də müəllimim olub. O, Həsən Şahgəldiyevdən sonra uzun illər mətbuat nəzəriyyəsi və təcrübəsi kafedrasına rəhbərlik edib. Yeri gəlmişkən qeyd edim ki, mən də həmin kafedranın müdiri olmuşam. Bu kafedra təkcə Bakı Dövlət Universitetində deyil, bütövlükdə, ölkə media mühitində seçilən elmi mərkəzdir.

Şahidəm ki, Nurəddin Babayev dekan işlədiyi illərdə heç bir müəllim və tələbə ondan inciməyib. Çünki o, yüksək mədəniyyətə malik idi. O, hər kəsə həssaslıqla yanaşır və onun problemini həll etməyə çalışırdı. Nurəddin müəllim doktorluq dissertasıyası yazmayıb, lakin çoxsaylı kitablarına və səmərəli pedaqoji fəaliyyətinə görə ona professor adı verilib. Vacib olan bir məsələni də qeyd etmək istəyirəm. Jurnalistika fakültəsi universitetdə mənəvi iqliminə, təmizliyinə görə daim seçilib. Çünki bu fakültənin təməlini qoyan Həsən Şahgəldiyev, sonra Nurəddin Babayev, Nəsir İmanquliyev, Şirməmməd Hüseynov onun şərəfini ləyaqətlə qoruyublar, orada saf, şəffaf atmosfer yaradıblar.

Nurəddin müəllim 2 cildlik "Jurnalistika məsələləri" dərs vəsaitinin elmi redaktoru və müəlliflərindən biridir. O, bu kitaba görə 1966-cı ildə "Qızıl qələm" mükafatına layiq görülüb.

Nurəddin müəllim öz yaradıcılıq fəaliyyətində nəzəriyyə ilə təcrübəni birləşdirən, bəlkə də, yeganə jurnalistdir. Onun qələmə aldığı çoxsaylı bədii oçerklər öz dövrünün əmək və elm adamlarının portreti olmaqla yanaşı, həm də dərs dediyi tələbə-jurnalistlərə bu janrı öyrənmək üçün gözəl nümunədir.

Biz tələbə olan illərdə Nurəddin müəllim jurnalistika fakültəsinin dekanı deyildi. O, bizə jurnalistikanın nəzəri problemlərindən mühazirələr oxuyur, eyni zamanda, peşə etikasından, jurnalist şəxsiyyətindən, şahidi olduğu maraqlı həyat hekayələrindən və sair mövzulardan bəhs edirdi. Onun dediklərini bizim üçün yalnız dəftərə yazacağımız mühazirə deyil, eyni zamanda, Vətənə, insanlara sevgi dərsi idi. Buna görə də biz onun söylədiklərinin çoxunu dəftərə yox, ürəyimizə yazırdıq. Çünki o bu söhbətləri ilə gələcək jurnalistlərə təkcə yazmağı yox, həm də insanları sevməyi öyrədirdi. Tənəffüslərdə də biz onunla həmsöhbət olmağa can atırdıq. Sonra həyat yoldaşım Səidə xanımla hər dəfə universitet illərindən söhbət edəndə, Nurəddin müəllimin digər tələbələri kimi, biz də onu minnətdarlıqla xatırlamış, qürur duymuşuq...

Nurəddin müəllimin "Ulduzlar sönmür" adlı əsəri var. Əminliklə deyə bilərəm ki, o bir müəllim və yazar kimi neçə onilliklər minlərlə insanın yaddaşında sönməyən ulduz kimi qalacaq.

**Ruhun şad olsun, Nurəddin müəllim!**

*Səməd MƏLİKZADƏ*



# İman borcu, inanc imtahanı

## *Ramazan birlik və mərhəmət bayramıdır*

**İslam aləminin bir parçası olan Azərbaycanda hər il Ramazan bayramı böyük təntənə ilə keçirilir. Qafqaz Müsəlmanları İdarəsi Şamaxı Astrofizika Rəsədxanasının məlumatına əsaslanaraq, bu il Eydül-Fitr – Ramazan bayramının hilalın görünüşünə görə 30 mart tarixinə təsadüf edəcəyini bildirir.**

On bir ayın sultanı olan Ramazan ayında insanlar oruc tutub namaz qılaraq hər cür pis əməllərdən çəkinir. Uca Rəbbimiz müqəddəs kitabımız Quranda Ramazan ayı və oruc haqqında belə buyurur: "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, bunun vasitəsilə siz pis əməllərdən çəkinəsiniz! Oruc tutmaq sayı müəyyən olan günlərdir. Bu günlərdə sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə hər günün əvəzində bir yoxsulu doyduracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə (həm oruc tutub, həm də fidyə verərsə), bu onun üçün daha yaxşı olar. Bilsəniz, oruc tutmaq sizin üçün nə qədər xeyirlidir".

İnsanlara doğru yolu göstərən, bu yolu aydınlaşdıran və haqqı batildən ayıran müqəddəs Quran Ramazan ayında nazil edilmişdir. Oruc tutmada bir müddət dünya nemətlərindən uzaq olan şəxs yenidən onları əldə etdikdə sevinir, həm də Allaha şükür etməyi öyrənir. Bu ayın həm də insanı sağlamlaşdırır. Bu mübarək ayda iftar süfrələri verməklə insanlar həm də bir-birinə yaxınlaşır, onların iradəsi möhkəmlənir, əxlaqi cəhətdən kamilləşir, dinimizin bəyənmədiyi bütün pis işlərdən çəkindirir.

Müqəddəs Ramazan ayı həm də insanları birlik və bərabərliyə, xoş əməllər həyata keçirməyə çağırır. Ramazan ayı boyunca oruc tutan müsəlmanların bayram namazından öncə yoxsul müsəlmanlara, fəqirlərə, öz kasıb qohumlarına, qonşularına "fitrə zəkatı" verməsi vacibdir.

Fitrə zəkatı Ramazan ayının son günündə, şam azanından sonra (fitr bayramı ərəfəsində) ayrılır. Ev sahibi özü və öhdəsində olan ailə üzvləri üçün fitrə zəkatı ayırıb ödəməlidir. Onun miqdarı adambaşına təqribən 3 kiloqram buğda, ya arpa, ya xurma, ya düyü, ya da kişmişdir. (Bu ərzağın ya özü, ya da pulu verilməlidir). Fitrə zəkatı mütləq maddi vəziyyəti çətin olan adamlara verilməlidir.

Rəhman və Rəhim Allahdan duamız budur ki, yeni yüksəliş dövrünü yaşayan ölkəmizi və xalqımızı, dövlətçiliyimizin təminatı olan müdrik Prezidentimizi və Müzəffər Ordumuzu bəlalardan hifz edib qorusun, bayrağımızı uca, dövlətimizi və dinimizi daimi etsin, bu mübarək ayın xeyir və bərəkətindən Vətənimizin və millətimizin nəsibini versin! Ramazan bayramınız mübarək!

*Azər MUSTAFAYEV*

# Gəncədə Çanaqqala zəfərinə ehtiram



**Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Türkiyə Respublikasının Gəncədəki Baş Konsulluğunun təşkilatçılığı ilə Qafqaz İslam Ordusu şəhidlərinin xatirəsinə ucaldılan abidənin önündə 18 Mart – Çanaqqala Zəfərinin 110-cu, Türkiyənin İstiqlal marşının qəbul edilməsinin 104-cü ildönümləri ilə əlaqədar toplantı keçirilib.**

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki baş konsulu Kaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, idarə, müəssisə və təşkilat rəhbərləri, o cümlədən şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Əvvəlcə Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib, Çanaqqala şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ruhlarına dualar oxunub. Daha sonra Qafqaz İslam Ordusu şəhidlərinin xatirəsinə ucaldılan abidənin önünə tər çiçəklər düzülüb.

Anım mərasimində çıxış edən Recep Öztop Vətən uğrunda canından keçən türk və Azərbaycan şəhidlərini yad edib, qazanılan zəfərlərin əbədi olmasını diləyib. O bildirib ki, Çanaqqala zəfəri məhv olmaq təhlükəsində olan bir ölkənin şanlı qələbəsidir. Bu zəfər türk millətinin gücünün və sarsılmazlığının ifadəsidir. O, Türkiyə ilə Azərbaycan arasında olan tarixi dostluq və qardaşlıq əlaqələrinə də toxunub. Bildirib ki, Türkiyə dövləti daim Azərbaycan xalqının yanındadır və hər bir sahədə əlindən gələni etməyə hazırdır.

Niyazi Bayramov çıxışında qeyd edib ki, Çanaqqala döyüşü türk vətəndaşlarının mübarizliyinin simvolu kimi əbədiləşib. Çanaqqala döyüşündə 3 minə yaxın azərbaycanlı iştirak edib və qardaş ölkənin müstəqilliyi uğrunda canlarından keçib. Bildirib ki, iki dövlət beynəlxalq aləmdə hər zaman bir-birinin haqlı mövqeyinin fəal dəstəkçisi kimi çıxış edir. Şəhər rəhbəri, həmçinin Türkiyənin Dövlət Himni olan "İstiqlal marşı"nın türk ordusunun qələbəsinə olan inamını, türk əsgərinin şücaətinin və fədakarlığının göstəricisi olduğunu da vurğulayıb.

Tarixçi Bəxtiyar Məhərrəmov çıxışında Çanaqqala döyüşünün tarixinə nəzər salıb və bu savaşın dünya hərb tarixinə ən böyük döyüşlərdən biri kimi daxil olduğunu qeyd edib.

**Hamlet QASIMOV,**
**XQ-nin bölgə müxbiri**




# Şəhidlər Vətən torpağına tapşırıldı

**Birinci Qarabağ müharibəsində itkin düşmüş sayılan Behbudov Daşqın Nəsrəddin oğlunun meyitinin qalıqları Göyçay rayonuna gətirilib. O, İmişli şəhər məzarlığında naməlum şəhid kimi dəfn olunmuşdu.**

Səhidin nəşi dünən rayonun Mırtı kəndində ailəsinə təhvil verilib və vida mərasimi keçirilib. Cənazə namazından sonra şəhidin nəşi kənd qəbiristanlığında torpağa tapşırılıb, dualar oxunub.

Qeyd edək ki, Behbudov Daşqın Nəsrəddin oğlu 1994-cü ildə Füzuli rayonunun Şükürbəyli kəndi ərazisində gedən döyüşlərdə itkin düşmüş sayılırdı.

*

**Birini Qarabağ müharibəsinin itkin şəhidi Atakişi Qəhrəman oğlu Atayev paytaxtın Nizami rayonunun Keşlə qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn olunub.**

Dəfn mərasimində şəhidin ailə üzvləri, Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Şəhidin ruhuna dualar oxunub, məzarının üzərinə əklil qoyulub, gül dəstələri düzülüb.

Qeyd edək ki, 1960-cı il oktyabrın 2-də Bakıda dünyaya gələn Atakişi Atayev 1992-ci il iyunun 27-də Xocalı rayonunun Naxçıvanlı kəndi ərazisində gedən döyüşlər zamanı itkin düşmüşdü.

# “Super liderlər”in dialoqu “konstruktiv”dirmi?



**ABŞ və Rusiya prezidentləri son ay yarımda ikinci telefon danışığında konkret həll planının olmamasına baxmayaraq, tərəflər Ukrayna münaqişəsinin uzunmüddətli həllinə hazır olduqlarını nümayiş etdirdilər. Moskvanın 30 günlük atəşkəs təklifi ilə bağlı sərt mövqeyinə də Vaşinqton kəskin reaksiya bildirmədi. Liderlər iqtisadiyyat və enerji sahələrində əməkdaşlığın inkişafı barədə razılaşdılar. Avropanın və Ukraynanın indiki telefon danışığına reaksiyası birmənalı olmadı.**

Rusiya və ABŞ prezidentləri arasında telefon danışığı martın18-də baş tutdu. Bu, Donald Trampın Ağ evə qayıtmasından sonra reallaşan ikinci telefon danışığı oldu. Son həftələrin təmaslarını nəzərə alsaq, iki lider arasında yeni dialoqa dünyada böyük ümidlə yanaşılırdı. Hər iki tərəf telefon danışıqlarının konstruktiv keçdiyini açıqladılar. Prezident Donald Tramp “Truth Social” sosial şəbəkəsində yazdı ki, “yekun razılaşmanın bir çox elementləri razılaşdırıldı, lakin razılaşdırılmalı olan çox məsələ var”.

Lakin Ağ ev sahibinin bu gözlənilməz etirafı bəzi suallar doğurdu: söhbət hansı razılaşmadan gedir? İnformasiya çatışmazlığına baxmayaraq, iki liderin söhbətindən sonra Kremlin yaydığı bəyanatda prezidenlərin söhbəti “Ukrayna ətrafındakı vəziyyətlə bağlı ətraflı və səmimi fikir mübadiləsi” kimi qiymətləndirildi.

Eyni zamanda, Amerikanın 30 günlük atəşkəs təklifinin həyata keçirilməsi istiqamətində hər hansı irəliləyişin əldə olunması qeydə alınmadı. Siyasi müşahidəçilər Kremlin bu məsələ ilə bağlı şərhinin əvvəlki “nüanslar haqqında” bəyanatlardan nəzərəçarpacaq dərəcədə sərt tonlarda yazıldığına diqqət çəkirlər. Moskvanın telefon danışığı barədə açıqlamasında qeyd olunur ki, Rusiya tərəfi bütün döyüş təmas xətti boyunca mümkün atəşkəsə effektiv nəzarətin təmin edilməsi, Ukraynada məcburi səfərbərliyin dayandırılması və ölkənin Silahlı Qüvvələrinin yenidən silahlanmasının zəruriliyi ilə bağlı bir sıra mühüm məqamları diqqətə çatdırdı. Bundan başqa, Kremlin bəyanatında telefon danışığında Vladimir Putinin “dəfələrlə təxribat törədən və əldə olunmuş razılaşmaları pozan Kiyev rejiminin danışıqlar apara bilməməsi ilə bağlı ciddi riskləri də qeyd etdiyi” vurğulandı. Bundan əlavə, Rusiyanın “xarici hərbi yardımın tamamilə dayandırılmasına və Kiyevə kəşfiyyat məlumatlarının verilməsinə” çağırış etdiyi də bildirildi.

Ağ evin telefon danışığı ilə bağlı bəyanatında qeyd olundu ki, “hər iki lider Ukrayna münaqişəsinin davamlı sülhlə bitməsi ilə bağlı razılığa gəldilər”. Məlumata görə, “liderlər sülhə doğru addımın enerji və infrastruktur sektorlarında atəşkəslə başlayacağı barədə razılığa gəldilər”. Bundan əlavə, “hər iki lider qeyd etdi ki, ABŞ və Rusiya arasında ikitərəfli münasibətlərin yeni səviyyəyə yüksəldiyi gələcək üçün böyük faydalar var”. Vaşinqton vurğuladı ki, “böyük faydalar” Ukraynada sülhün əldə olunmasından sonra böyük iqtisadi sövdələşmələr və geosiyasi sabitlik kimi başa düşülməlidir. Bundan başqa, ABŞ lideri Donald Tramp telefon danışığı zamanı Rusiya Prezidenti Vladimir Putinin Kiyevə hərbi yardımın dayandırılması ilə bağlı heç bir tələb irəli sürmədiyini açıqladı. O bu mövzuya, ümumiyyətlə, toxunulmadığını bildirdi.

Ancaq Avropa və Ukrayna ABŞ və Rusiya liderləri arasında keçirilən telefon danışığına münasibəti birmənalı olmadı. Avropa diplomatiyasının rəhbəri Kaya Kallas dedi ki, Rusiya Ukrayna ilə bağlı güzəştə getmək istəmir. Martın 19-da Brüsseldə jurnalistlərlə söhbətində vurğuladı ki, “Telefon danışığından sonra iki rəsmi bəyanatı oxusanız, başa düşəcəksiniz ki... Rusiya, əslində, heç bir güzəştə getmək istəmir”.

Prezident Putinlə Ağ evin sahibi Trampın söhbətindən bir neçə saat sonra Ukrayna Prezidenti Volodimir Zelenski açıqladı ki, ABŞ-ın söhbətin təfərrüatları barədə məlumatlarını gözləyir. Ukrayna ldieri Helsinkidə jurnalistlərə dedi ki, o, Rusiyanın enerji infrastrukturuna hücumların dayandırılması təklifini dəstəkləyir (Rusiyanın qarşılıqlı addımı müqabilində), lakin ABŞ və Rusiya liderləri arasında danışıqlar haqqında daha çox məlumat istəyir. Zelenski daha sonra dedi ki, Putinin Trampla danışıq zamanı sülhə hazır olması barədə bəyanatlarına baxmayaraq, Rusiya Ukraynanın mülki infrastrukturuna hücumu davam etdirir. Ukrayna tərəfinin məlumatına görə, rus qoşunları martın 19-na keçən gecə Ukrayna ərazisinə “İskəndər-M” və S-300 raketləri və “Şahdronesi” raketləri ilə hücum etdi. Rusiya KİV-i də Ukrayna dronlarının enerji obyektlərinə hücum etdiyini açıqladı.

Müəyyən şübhələrə baxmayaraq, ABŞ və Rusiya danışıqları davam etdirməkdə israrlıdırlar. Donald Trampın xüsusi nümayəndəsi Stiv Uitkoff “Fox News “telekanalına məlumat verdi ki, ABŞ və Rusiya nümayəndə heyətləri martın 23-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində görüşəcəklər. Uitkoffun sözlərinə görə, danışıqlarda Amerika nümayəndə heyətinə dövlət katibi Marko Rubio və milli təhlükəsizlik üzrə müşaviri Mayk Uolts başçılıq edəcək. Xatırladaq ki, Rusiya və ABŞ nümayəndə heyətləri sonuncu dəfə fevralın 18-də Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda görüşmüşdülər.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# ABŞ və Ukrayna prezidentlərinin telefon danışığı

**Ukrayna Prezidenti Zelenski ilə çox yaxşı telefon danışığımız oldu.**

Bu sözləri ABŞ Prezidenti Donald Tramp deyib. O, danışığın təxminən bir saat davam etdiyini bildirib.

“Müzakirə əsasən həm Rusiyanın, həm də Ukraynanın istək və tələblərini uyğunlaşdırmaq üçün idi. Danışıqlar dünən Prezident Putinlə edilən zəng əsasında aparıldı. Biz doğru yoldayıq. Mən dövlət katibi Marko Rubiodan və milli təhlükəsizlik müşaviri Maykl Valsdan müzakirə olunan məqamların dəqiq izahını vermələrini xahiş edəcəyəm. Həmin bəyanat tezliklə yayımlanacaq”, – deyə Tramp bildirib.

# Novruz ovqatlı, şən idman oyunçularımız

**Azərbaycanda ta qədimdən geniş miqyasda qeyd olunan Novruz bayramı mərasimlərinə milli idman oyunları xüsusi rəng qatıb. Təqdirəlayiq haldır ki, mədəni irsimizdə əhəmiyyətli yer tutan milli oyunların müasir dövrdə dirçəldilməsi, təbliği üçün görülən işlər öz bəhrəsini verir.**

Milli idman növləri üzrə adlı-sanlı idmançılarımızın nümunəvi çıxışları Novruz şənliklərini daha da baxımlı və möhtəşəm edir. Bayram ərəfəsində idmançılarımızın bir neçəsi ilə görüşüb “Xalq qəzeti” üçün açıqlama aldıq.

**Azərbaycanlı pəhləvan, dünya şöhrətli zorxana ustası Xəyyam Orucovun nailiyyətlərini sadalamaqla bitməz. Zorxananın “Mil səngin”, “Mil bazi” növlərində onqat Avropa çempionu, dünya çempionatının 6 qat mükafatçısı, 3 qat Dünya kubokunun sahibi, 2017-ci il IV İslam Həmrəyliyi Oyunlarının 2 gümüş, 1 bürünc mükafatçısıdır. Milli İdman Növləri Assosiasiyasının zorxana və pəhləvan güləşi üzrə böyük məşqçisidir. Tələbələrinə milli idman növlərimizin sirlərini sevə-sevə öyrədir. X.Orucov qəzetimizə açıqlamasında müasir dövrdə gənclərimizin milli idman oyunlarına böyük maraq göstərdiyini bildirdi:**

–Təqdirəlayiq haldır ki, min illər boyu tarixin yaddaşından süzülüb gələn qədim idman növlərinin inkişafı da ölkəmizdə diqqət mərkəzindədir. Əlamətdar günlərdə, el şənliklərində, o cümlədən Novruz mərasimlərində idmançılarımızın nümunəvi çıxışları, yarışlar bu idman növlərinin yayılmasına, kütləviliyinə xidmət edir. Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə metronun “Gənclik” stansiyası yaxınlığında salınmış yeni parkda keçirilən Novruz şənliyində idmançılarımızın milli, pəhləvan və kəmər güləşi, eləcə də, zorxana, nərd, mas-reslinq və digər idman növləri üzrə nümunəvi çıxışları şəhərimizin sakinləri, həmçinin qonaqlar tərəfindən böyük maraqla qarşılandı.

**X.Orucov regionlarda da milli idman növlərimizin inkişafı istiqamətində bir sıra işlərin görüldüyünü bildirdi:**



–Müxtəlif idman növləri üzrə Azərbaycan çempionatları bəzən regionlarda keçirilir. Eyni zamanda, idman klublarında, Olimpiya komplekslərində seminarlar təşkil edilir ki, burada da məşqçi və idmançılar bilik və bacarıqlarını artırırlar.

**Güləş, cüdo, MMA idman növlərində böyük uğurları olan Gözəl Zutova milli güləşdə də ad-san qoyub. Dünya Köçəri Oyunlarının kəmər güləşi üzrə ikiqat qızıl medalçısı, mas-reslinq üzrə dünya çempionudur. Milli İdman Növləri Assosiasiyasında milli güləş üzrə baş məşqçi vəzifəsində çalışır. 7 fərqli idman növündə xeyli nailiyyətlər qazanan G.Zutova hazırda tələbələri arasında qızların da çox olduğunu bildirdi:**

–Rəhbərliyim altında 12 yaşdan 18 yaşadək 14 qız milli güləşin sirlərinə yiyələnir. Mən həm də sərbəst güləş üzrə məşqçi kimi uşaqlara bu idman növünü də öyrədirəm. Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunda “Bahar sədası” adlı Novruz şənliyində idmançılarımızın nümunəvi çıxışları möhtəşəm idi. Müasir dövrdə də milli oyunlarımıza marağın böyük olması ənənələrimizə, tariximizə nə qədər bağlı olduğumuzu göstərir.

Kəmər güləşçisi Cəsur Mehdiyevin 23 yaşı var. Beyləqandandır. Yunan-Roma güləşi ilə 7-8 yaşdan məşğul olmağa başlayıb. Əsas nailiyyətlərini isə kəmər güləşi üzrə qazanıb. Bu idman növünün sirlərini ona Şahin Bəşirov öyrədib. İlk uğurunu 2023-cü ildə Avropa çempionatında 3-cü yeri tutmaqla əldə edib. Ötən il Kazanda keçirilən Dünya çempionatının qalibi olub. 2024-cü ildə “BRİCS Sports Games Kazan 2024”-də Dünya Köçəri Oyunlarında 3-cü yeri tutub.

Cəsur qəzetimizə açıqlamasında qeyd etdi ki, Novruz şənliklərində Nərimanov rayonunda – metronun “Gənclik” stansiyasının yaxınlığında salınan



yeni parkda kəmər güləşi üzrə nümunəvi çıxışlarda iştirak edib. İnsanların milli güləş növünə böyük maraq göstərməsini onda xoş təəssüratlar oyadıb.

**Ariz Hüseynov isə kəmər güləşi üzrə 2022-ci ildən məşğul olur. Əvvəlcə yunan-Roma güləşi ilə məşğul olan idmançıda bu idman növünə maraq Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil alarkən yaranıb. Şahin Bəşirovun rəhbərliyi altında məşqlərə başlayan pəhləvan ilk böyük nailiyyətini 2022-ci ildə Özbəkistanda keçirilən Dünya çempionatında bürünc medal qazanmaqla əldə edib. 2023-də Dünya çempionatında gümüş, 2024-də gümüş və bürünc medallar qazanıb. Ariz yeni parkda keçirilən Novruz şənliyində nümunəvi çıxışlarının uşaqlar və gənclər tərəfindən də maraqla qarşılandığını dedi:**

– Tədbirdən sonra bizə yaxınlaşaraq məşqlərə qoşulmaq istədiklərini deyənlər də oldu. Belə tədbirlər milli oyunlarımızın təbliği baxımından əhəmiyyətli rol oynayır.

**Milli İdman Növləri Assosiasiyasının baş katibi Seymur Qurbanov assosiasiyanın tərkibinə milli güləş, milli qurşaq güləşi, zorxana və pəhləvan güləşi, nərd, milli mütəhərrik oyunlar, atüstü milli oyunlar, kəndirlə mübarizə idman növü, dünya xalqlarının ənənəvi güləş, intellektual oyunları, oxatma növləri, Azərbaycanın, həmçinin digər xalqların ənənəvi pəhləvanlıq növləri, mas-reslinq, alpaqut, kabbadi, qalaqapı qo, eləcə də milli idman növləri üzrə yığma komandaların daxil olduğunu bildirdi:**

– Assosiasiya respublikanın şəhər və rayonlarında yeni bölmələrin yaranması və fəaliyyəti, bu idman növlərinin maddi-texniki bazasının möhkəmləndirilməsi və digər aktual məsələlərin həllində fəal iştirak edir. İdmançılarımız müxtəlif növlər üzrə dünya, Avropa birinciliklərində və çempionatlarında, dünya kuboklarında, İslam Həmrəyliyi oyunlarında, dünya köçəri oyunlarında uğurla çıxış edib, vətənə çoxlu sayda medallar və kuboklar gətiriblər.

...Milli adət-ənənələrin və dəyərlərimizin tərkib hissəsi olan, həmçinin yeniyetmə və gənclərin fiziki və mənəvi inkişafında mühüm rol oynayan milli idman oyunlarının dirçəldilərək yaşaması tarixi köklərimizə necə bağlı xalq olduğumuzu bir daha sübut edir. Hər birimizin ümdə vəzifəsi tarixi yaddaşımızı əks etdirən milli oyunlarımızı yaşadaraq gələcək nəsillərə miras qoymaqdır.

***Leyla QURBANOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 61 (30755) 20 mart 2025-ci il, cümə axşamı

İdman

## Atletlər Komissiyası yenilənib



**Milli Olimpiya Komitəsinin (MOK) Atletlər Komissiyasının iclası keçirilib.**

MOK-un məlumatına görə, iclasda komissiyanın yeni tərkibi müəyyənləşib.

2025-2028-ci illəri əhatə edən dövr üçün Rüstəm Orucov (cüdo) komissiyanın sədri, Fəridə Əzizova (taekvondo) sədr müavini, Leyla Əliyeva (cüdo), İradə Aşumova (atıcılıq), Hacı Əliyev (güləş), Nazim Babayev (atletika), Təranə Abbasova (ağırlıqqaldırma), Fatimə Alkərəmova (üzgüçülük), Rəsul Çunayev (güləş) komissiyanın üzvləri seçilib.

## AFFA "Ərgünəş" və "Sabirabad"ı cəzalandırdı

**Region Liqasında keçirilən 2 oyunun nəticəsi ləğv edilib.**

AFFA bu matçlarda "lipa" aşkarlayıb. "Ərgünəş" (Füzuli) – "Ümid" (Saatlı) oyununda meydan sahiblərinin heyətində lisenziyası olmayan futbolçular oyuna çıxıb. Füzuli təmsilçisinə 0:3 hesablı texniki məğlubiyyət verilib.

"Sabirabad" – "Mil" matçında meydan sahiblərinin heyətində də başqa komandanın futbolçusu oyuna çıxıb. Sabirabad təmsilçisinə 0:3 hesablı texniki məğlubiyyət verilib.

*LeylƏ URBANOVA*
*XQ*

Maqsud İbrahimbəyov – 90

## Gənclər kitabxanasında yubiley sərgisi




**Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, Dövlət mükafatı laureatı, tanınmış ictimai xadim Maqsud İbrahimbəyovun anadan olmasının 90 ili tamam olur. Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "Maqsud İbrahimbəyov nəsri - milli kolorit, milli xarakter" adlı virtual kitab sərgisi hazırlanıb.**

Kitabxanadan mətbuata bildirilib ki, virtual sərgidə Maqsud İbrahimbəyovun çoxşaxəli fəaliyyəti, zəngin bədii irsi haqqında məlumat verilir, onun istedadlı nasir olması ilə yanaşı, dramaturq, kinossenarist kimi də yaddaqalan ekran əsərlərinin müəllifi olduğu qeyd edilir. Kitabxana əməkdaşları tərəfindən hazırlanan sərgidə Maqsud İbrahimbəyovun Azərbaycan Respublikası və Rusiya Federasiyası tərəfindən layiq görüldüyü orden, medal və fəxri adlar haqqında məlumat verilir, müəllifin kitablarının 36 xarici dilə tərcümə olunduğu, dünyanın bir çox ölkələrində dərc edildiyi və səhnələşdirildiyi diqqətə çatdırılır. Materialda adət-ənənələrə bağlılıq faktorunun, Bakı mühitinin özünəməxsus, milli koloritli təsvirinin Maqsud İbrahimbəyovun yaradıcılığını səciyyələndirən əsas xüsusiyyətlər olması qeyd edilir.

Virtual kitab sərgisində müəllifin "Cəhənnəmə sərinlik gəldi", "Müharibənin 1001 gecəsi", "Ondan yaxşı qardaş yox idi", "Qara paltarlı qadın", "Qoy o bizimlə qalsın", "Püstə ağacı", "Uşaqlığın son gecəsi" kimi kitablarının qısa annotasiyası təqdim edilir və onun haqqında qələmə alınan dövri mətbuat nümunələri sərgilənir.

*XQ*

***1990-cı ildə Tovuz Rayon Hərbi Komissarlığı tərəfindən Rüstəmov İman Məhərrəm oğlunun adına verilmiş Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

XQ-nin Novruz gülüşü

# Özümüz gülək ki, özgələr gülməsinlər



### "Kasıb pul tapdı..."

**Bir neçə il bundan əvvəlin söhbətidir. Olan-olmazımı toplayıb bir köhnə maşının pulunu yığmışdım. Özüm də kirayədə qalırdım. Pulu evdə qoyub gedəndə ürəyim düşürdü ki, ya qohum-qonşu götürəcək, ya da oğru-quldur gəlib aparacaq. Pul cəhənnəmə, arvad-uşağa zərər toxuna bilər.**

Çox fikirləşdim, nə edim, nə etməyim, axırda qərara gəldim ki, aparım rayona, verim anama, bəlkə onun bir etibarlı yeri olsun, qoysun ora, saxlasın. Elə də etdim. Anam pulu görən kimi qışqırdı:

– Ə, bu qədər pulu haradan almısan?

Dedim ay ana, qorxma, qəpik-qəpik yığmışam. Vəzifəm yoxdur ki, rüşvət alam!

Handan-hana arvadın ürəyi üstünə gəldi, pulu götürüb qoydu çoxdan işlədilməyən köhnə bir samovarın içərisinə. Mən də arxayın qayıtdım şəhərə.

Aradan bir-iki ay keçdi, gördüm telefon aramsız zəng çalır. Dəstəyi götürdüm, anam idi. Ürəyim düşdü, dedim sən öl, pula nəsə olub. Heç demə, düz fikirləşmişəm. Anam həyəcanlı idi:

– Ay bala, durma gəl, pulun çürüyür!

Rayona gedib nə görsəm yaxşıdır? Həqiqətən pul şişmişdi, amma hələ çürüməmişdi. Gülmək məni tutdu, bir atalar məsəli yadıma düşdü: "Kasıb pul tapdı, qoymağa yer tapmadı".

Sözün qısası, getdim bir köhnə maşın aldım. Fikirləşdim ki, daha o boyda maşını oğurlaya bilməzlər. Maşın da nə maşın? Gündə bir hissəsi xarab olur, düzəltdirirəm. İndi qalmışam borcun-xərcin içində… Zibili sata da bilmirəm, canım qurtarsın. Amma ürəyim sakitdir ki, daha pulum yoxdur…

### Gərək adamın olsun

Uşaqlarımızı ali məktəbə düzəldəndə yüz ölçüb, bir biçirik: oxuyub axırı nə olacaq? Lap bu yaxınlaradək dəb idi: orta məktəbi alayarımçıq bitirənlər də hüquq fakültəsinə girmək istəyirdilər. Hamısının da başında bircə fikir olurdu: Prokuror olmaq! Hüquq fakültəsinə qəbul olunmaq istəyənlərin bircəciyi düşünməzdi ki, vəkil olsun, hüquq məsləhətçisi olsun. Heç müstəntiqlik, hakimlik də yada düşməzdi.

Bu fakültədə oxumaq eşqi heç indi də beyinlərdən çıxmayıb. Görün, iş hara gəlib çatıb ki, millət vəkillərinin də bəziləri hüquq fakültəsində oxuyurlar…

Hüquq fakultəsinə qəbul olunmaq isə türklər demiş "kolay", yəni asan iş deyil və heç vaxt da asan olmayıb. Burada gərək ya zırpı adamın olsun, ya da pulun-paran… Kimin ki, adamı, pulu-parası olmur, belələrinin bir az biliyi olur. Onlar da harada oxusalar yaxşıdır: Pedaqoji Universitetdə, ya da xırda-xuruş texnikumlarda. Axırda da ya ibtidai sinif müəllimi olurlar, ya da bir müəssisədə kiçik mühasib.

Nə olar, qoy kim nə olur-olsun, amma adam olsun. Ən pisi odur ki, əlinə güc-bəla ilə diplom alanların könlündən ancaq birinci şəxs olmaq keçir, heç kim ikinci, üçüncü dərəcəli vəzifələrə özünü yaraşdırmır. Amma birinci şəxs olmaq asan başa gəlmir. Elə-belə adamı birinci şəxs qoymazlar, axı…

Gərək bunun üçün arxanda duranın-zadın olsun. Bir az da çənədən möhkəm olasan, orda-burda ağzına gələni danışıb, özünü hörmətdən salmayasan. Heç fikir vermisinizmi, hansı müavindən soruşursan müdirin necə adamdır, deyir "yaramazın, axmağın biridir". Müdiri hörmətdən sala-sala vəzifədən də salıb yerinə keçmək istəyir bədbəxt! Beləsinə deyən yoxdur ki, yaramaz, axmaqla necə işləyirsən? Deməli, sən də onun tayısan!

Xülasə, bəziləri ki, müdir, rəis, direktor… oldular, daha onların üzlərini görmə. İstədikləri işçini istədikləri vaxt işdən atırlar bayıra. Elə bilirlər, külli-ixtiyar sahibidirlər. Arxalarında adamları var axı…

Onlara deyən gərək, səni vəzifəyə qoyublar ki, camaata xidmət edəsən, vəzifəyə qoymayıblar ki, camaat sənə xidmət etsin?

Sözün qısası, "rəhbərlər"in tabeliklərində olanların "başlarında əkdikləri turp" barədə çox danışmaq, çox yazmaq olar, amma qorxuram. Çünki arxalarında duranlar var…

Mən təzə söz demirəm, amma deyirəm ki, gərək adamın adamı olsun. Niyə bu fikrə gəlmişəm, onu da deyim: Bir işi görmək üçün düz bir ay, bəzən bir il onun-bunun qapısını döyməli oluram. İşi görüb qurtarandan sonra böyürdən biri çıxır ki, bəs, mənə desəydin, sənin işini bir dəqiqəyə həll edərdim. Ona görə də gecə-gündüz fikirləşirəm ki, hərənin bir adamı var, bəs mənim niyə adamım yoxdur?!

Ömrüm boyu elə bilmişəm ki, savad, bacarıq, qabiliyyət varsa, deməli, müəyyən vəzifə də tuta bilərəm. Ömrüm boyu da vəzifəsiz qalmışam. Heç demə, savad, bacarıq, qabiliyyət, nə bilim, nələr əsas deyilmiş, gərək vəzifə tutmaq üçün adamın olsun. Vəzifə də elə şeydir ki, hamı sənə savadlı, bacarıqlı, qabiliyyətli kimi baxır, hətta səni nəvazişlə "filankəs müəllim" deyə çağırırlar.

Sözün qısası, bu zamanədə adamsız oldun ha, qurtardı-getdi. Ölsən, ondan yaxşıdır!

### Yalan-palan

Uşaq vaxtı adamın ağlı kəsmir, nə desələr inanır. Biz də eləydik, deyilən, yazılan bir şey oldu ha, mütləq inanırdıq. Ümumiyyətlə, bizimkilər yazıya lap çox inanırlar. Məsələn, qəzetlərdə yazırlar ki, filankəs pis adamdır, qurtardı! Haqqında yazılan adam peyğəmbər kimi olsa da xeyri yoxdu. Yaxud yaxşı adamı pis qələmə verdilərsə, "kitabı bağlandı".

İndi bizim məqsədimiz qəzetçilərin nəyi necə yazdıqlarından, yaxud da adamların hər yazılana inanıb-inanmamalarının lazımlı-lazımsız olub-olmadığından söhbət açmaq deyil. Söhbətimiz müsəlman üçün yazıya pozu olmaması barədədir.

Uşaq vaxtı kitablarda oxuyurduq ki, insan meymundan əmələ gəlib. Biz də buna inanırdıq. Böyüdük, orta məktəbi, universiteti bitirdik, amma çox fikirləşdik ki, ayə, görəsən, doğrudan da, insan meymundan əmələ gəlib, yoxsa yox? Hərdən güzgünün qabağına keçib özümüzlə meymunda oxşarlıq axtarırdıq. Meymunun da gözləri var, insanın da. Meymunun da əlləri, ayaqları var, insanın da. Meymunun da burnu, qulaqları var, insanın da. Meymunun da bədəni tüklüdür, insanın da. Elə insan var bədəni meymundan tüklüdür. Baxanda adam qorxur.

Xülasə, insanda olanlar meymunda da var. Belə şeyləri düşünəndə deyirsən, bəlkə də kişilər düz yazıblar, insan meymundan əmələ gəlib. Amma meymun insana baxanda bir az eybəcərdir. Bu eybəcərliyi görəndə düşünürsən, bəlkə meymun insandan əmələ gəlib?

Sözün qısası, bu həyatda çox yaşadıq, çox ömür sürdük, amma meymundan insan əmələ gəldiyini, yaxud onun tərsini görmədik. Belə getsə, ömrümüzün axırına kimi də görməyəcəyik. Bəs bu sirri necə açaq? İnsan meymundan, yoxsa meymun insandan əmələ gəlib?

Adamın yadına toyuq-yumurta məsələsi düşür... Bunlar hamısı yaradanın işləridir, özü bilər. Görəsən, insanlar niyə yalan-palan yazıb bir-birini aldadırlar, hə?

### Görəsən niyə?..

Ömrüm boyu fikirləşirəm ki, ayə, bizimkilər niyə özlərini başqa millətlərə oxşatmağa çalışırlar? Ha fikirləşirəm, dəqiq bir cavab tapa bilmirəm ki, camaata da bildirim. Görəsən, başqa millətlərə oxşamağımızın bizə bir xeyri var?

Bəziləri gül kimi ana dilimizi qoyub, bir-biri ilə əcnəbi dildə danışırlar. Yenə dili yaxşı bilsəydilər nə vardı ki? Elə danışırlar ki, adamın əti tökülür. Bu dildə danışmayanlara isə yuxarıdan-aşağı, geri qalmış adamlar kimi baxırlar. Hətta, bir yaramaz söz də tapıblar: "Çuşka". Bu sözün mənasını yaxşı başa düşməsəm də, bilirəm ki, pis sözdür. Hərdən öz-özümə sual verirəm: "çuşka" kimdir? Ana dilində danışanlar, yoxsa öz dilini qoyub başqa dili yamsılayanlar?

Bir də görürsən, böyük vəzifəli birisi çıxır televiziya ekranına, başlayır dilimizin "qol-qanad"ını sındıra-sındıra danışmağa. Hamı qalır məəttəl ki, dövlət adamı da belə nitq irad eləyər? Gərək dövlət vəzifələrinə nəslində başqa millətlərin nümayəndəsi olmayan adamları götürsünlər. Təkcə ona görə yox ki, elələri dilimizi bilmirlər, ona görə ki, onlardan əsl vətəndaş, əsl vətənpərvər ola bilməz.

A kişilər, özlərini yabançı millətlərə bənzədənlər adət-ənənələrimizi necə qiymətləndirə bilərlər? Musiqimizdən, muğamatımızdan necə baş çıxararlar? Yoxsa, şeirimizi, qəzəllərimizi anlayarlar? Ay anladılar ha!

Hələ belələrinin geyimlərini, saçlarının formasını demirik. Cavan oğlanlar başlarını amerikansayağı qırxdırıb düşürlər küçələrə. Baxıb görürsən dəliyə oxşayırlar. Qulaqlarının üstü başlarının ortasına kimi qotur kimi qırxıq, türlərinin biz-biz olduğunu görəndə adam dəhşətə gəlir. Beləsi gecə kimin qabağına çıxsa, havalanar.

Qızlar elə dar, bədənə yapışan şalvarlar geyirlər ki, ayıb da olsa, bütün əzaları görünür. Hələ bəzi qadınların gözlərini "bandaşdamalar"ını, qapqara saçlarını "perekis"lə yandırıb saraltmalarını, sifətlərini rəngləyib özlərini təlxəyə oxşatmalarını, dırnaqlarını qartal dırnaqlarına bənzətmələrini, "dermakol"u üzlərinə sürtüb "meyit"ə dönmələrini, bədənlərini "qızıl-brilyant mağazaları"na çevirmələrini, yaraşdı-yaraşmadı "bot" dabanlı ayaqqabılar geymələrini demirik. Bunların abır-həyaları bir yana, bəs sahibləri də yoxdur?

Bir sözlə, heç cür başa düşə bilmirəm, bizimkilər niyə özlərini başqa millətlərə oxşadırlar?

**Xeyrəddin QOCA,**
**yazıçı-publisist**

HAVA

## Yenə külək, yağış və duman...



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, martın 20-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin gecə və axşam bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək. Gecə 6-8° , gündüz 9-13° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 767 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-9°, gündüz 9-14° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 2-6° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin müavini Elçin Rəhimova anası

**FATMA RƏHİMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Aparat rəhbəri Xudayət Həsənliyə atası

**İSKƏNDƏR HƏSƏNLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şamaxı Futbol Klubunun kollektivi idarə heyətinin sədr müavini Ramiz Məmmədova bacısı

**BƏSTİ HACIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3373
SİFARİŞ 613
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00